

**“Bütün çətinliklərə, beynəlxalq iqtisadi böhranlara, siyasi-hərbi böhranlara baxmayaraq, Azərbaycan inamla irəliyə gedəcək. Azərbaycanda sabitlik təmin edilir, ictimai-siyasi vəziyyət müsbətdir. Azərbaycanda xalqla iqtidar arasında birlik möhkəmlənir və bu amillər bizim uğurlu inkişafımızı şərtləndirir.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*

*Yanvar - Mart (2016-cı il)*

**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbayramov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Rəfibəyli küçəsi, 7.
**Tel.:** 492 25 17 **Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 18.04.2016
60x84 1/8 formatda 108 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2016

# MÜNDƏRİCAT


## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

**3** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir

**15** Prezident İlham Əliyev şəhidlərin əziz xatirəsini yad etmişdir

**18** Prezident İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak etmişdir

**21** Z.B.Qaralovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**21** Azərbaycan qadınlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**21** Prezident İlham Əliyevin 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbriki

**22** Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki

**23** Prezident İlham Əliyev Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində iştirak etmişdir

## RƏSMİ TƏDBİRLƏR

**32** Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilmişdir

**35** Baş Prokurorluqda 2015-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir

**41** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2015-ci ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir

**44** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## TƏHLİLLƏR, TƏKLİFLƏR

**46** Müzəffər Ağazadə – Cinayət-Prosessual Məcəllədə yeni prosessual şəxs: ölmüş təqsirləndirilən şəxsin hüquqi varisi

## VETERANLAR YADA SALIR

**52** Cahangir Nəsirov - Azərbaycan qadınları Böyük Vətən müharibəsi və quruculuq illərində

## İCTİMAİYYƏTƏ HESABAT

**57** Baş Prokurorluqda korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı mətbuat konfransı keçirilmişdir

**60** Tabe rayon (şəhər) prokurorluqlarında "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" proqramlarından istifadə qaydalarına dair seminarlar keçirilmişdir

**61** Şərur rayon prokurorluğunda "Cinayət prosesində dindirmənin proqramlaşdırılması" mövzusunda seminar keçirilmişdir

## PROKURORLUĞUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

**62** Azərbaycan ilə Malayziya arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır

**62** Azərbaycan Respublikasının Prokurorluğu beynəlxalq əməkdaşlığa xüsusi önəm verir

**63** Almaniyada "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" proqramlarının tətbiqi sahəsində təcrübə öyrənilmişdir

## NORMATİV HÜQUQİ AKTLAR

**64** Prokurorluq üzrə normativ xarakterli aktlar

**90** Qanunvericiliyə dəyişikliklər

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

**Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib**

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb.

**Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi**

– Bu gün biz 2015-ci ilin yekunlarını müzakirə edəcəyik. Eyni zamanda, 2016-cı ildə görüləcək işlər haqqında danışacağıq.

2015-ci ildə dünyada iqtisadi böhran daha da dərinləşdi. Bizim regionumuzda isə iqtisadi böhranla yanaşı, siyasi və hərbi böhran müşahidə olunur. Əfsuslar ki, mövcud olan münaqişələr 2015-ci ildə öz həllini tapmadı. Əksinə, dünyada və xüsusilə bizim regionumuzda yeni təhlükə ocaqları yaranmışdır. Əlbəttə ki, bu hadisələr regionumuzun ümumi inkişafına mənfi təsir göstərmişdir. Yaxın Şərqdə – İraqda, Suriyada, Liviyada münaqişələr, qanlı toqquşmalar, müharibələr davam edir.



Əlbəttə, bu, bizi ciddi narahat edir. Çünki biz də bu regionda yaşayırıq və regionda baş verən hadisələr istər-istəməz bizə də öz təsirini göstərir. Xarici müdaxilə nəticəsində Yaxın Şərqdən artıq qaçqın, köçkün vəziyyətinə düşmüş yüz minlərlə insan Avropaya pənah gətirir. Yüz minlərlə insan həlak olmuşdur. Milyonlarla insan qaçqın, köçkün vəziyyətində yaşayır.

Əlbəttə, bu insanların aqibəti bizi narahat edir. Çünki biz də vaxtilə çox böyük humanitar fəlakətlə üz-üzə qalmışdıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox Azərbaycan vətəndaşı qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Biz yaxşı bilirik ki, bu, nə deməkdir. O vaxt Azərbaycan bu humanitar fəlakətlə təkbaşına üz-üzə qalmışdı. Bildiyiniz kimi, adambaşına ən yüksək köçkün, qaçqın səviyyəsi Azərbaycanda olmuşdur. Ancaq buna baxmayaraq, biz lazımi tədbirlər görərək, öz daxili resurslarımıza əsaslanaraq bu vəziyyətdən çıxa bildik. Biz köçkünlərin, qaçqınların yaşayış səviyyəsini böyük dərəcədə yaxşılaşdıra bilmişik.

Ancaq bu gün Avropada buna miqrant böhranı deyirlər. Mən dəfələrlə demişəm ki, bu, ilk növbədə, vətənini, əmlakını, doğmalarını itirmiş insanlar üçün böhrandır. Onlar indi Avropaya sığınacaq tapmaq, canlarını qurtarmaq üçün pənah gətirirlər. Orada da onları nələr gözləyir, hamımız yaxşı görürük. Bununla bərabər, yaranmış bu vəziyyət istər-istəməz Avropada radikal qüvvələrin, İslamafobiya meyillərinin güclənməsinə gətirib çıxarır. Bu da çox təhlükəli meyildir.

Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Eyni zamanda, bizi Avropa ölkələri ilə dərin əlaqələr bağlayır. Biz siyasi, iqtisadi, enerji sahələrində, başqa sahələrdə uğurla əməkdaşlıq edirik. Biz həmişə çalışırıq ki, dinlərarası, sivilizasiyalararası dialoq daha da güclənsin. Biz bu işə öz töhfəmizi vermişik və öz nümunəmizi or-

taya qoymuşuq. Ona görə bu gün dünyada yaşanan sivilizasiyalararası anlaşılmazlıq bizi narahat edir. Bu, çox təhlükəli meyillərdir. Azərbaycan öz tərəfindən çalışacaq ki, bu meyillərin yumşaldılması və müsbət məcraya yönəldilməsi üçün öz səylərini göstərsin.

Keçən il Türkiyə-Rusiya münasibətləri gərginləşdi. Təbiidir ki, bu, bizi çox narahat edir. Çünki hər iki ölkə bizim qonşumuzdur, yaxın dostumuzdur. Əlbəttə, bizim üçün, əminəm ki, Türkiyə və Rusiya üçün bu, arzuolunan vəziyyət deyil.

Bununla bərabər, bu yaxınlarda İran-Səudiyyə Ərəbistanı münasibətləri həddindən artıq gərginləşdi və diplomatik əlaqələr kəsildi. İran və Səudiyyə Ərəbistanı bizim üçün yaxın və dost ölkələrdir. İran ilə bizi birgə tarix, mədəniyyət birləşdirir, bir çox layihələr birgə icra edilir. Səudiyyə Ərəbistanı bizim üçün çox önəmli tərəfdaşdır. Yaxşı bilirsiniz ki, keçən il mənim Səudiyyə Ərəbistanına rəsmi səfərim yüksək səviyyədə keçmişdir. Mənə, eyni zamanda, Azərbaycan dövlətinə, Azərbaycan xalqına çox böyük qonaqpərvərlik göstərilmişdir. Müqəddəs Kəbənin qapıları üzümüzə açılmışdır. Eyni zamanda, Səudiyyə Ərəbistanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində həmişə birmənalı şəkildə Azərbaycanın mövqeyini dəstəkləyir, nəinki dəstəkləyir, hətta bu münaqişəyə və işğala görə Ermənistan ilə heç bir əlaqə saxlamır, diplomatik əlaqələr saxlamır. Yəni, İran-Səudiyyə Ərəbistanı münasibətlərində yaranmış gərginlik əlbəttə ki, bizi narahat edir. Çünki hər iki ölkə ilə bizim yaxın əlaqələrimiz var. Eyni zamanda, bu vəziyyət istər-istəməz müsəlman aləmində baş verən hadisələrə təsir göstərir.

Biz həmişə çalışmışıq və öz səylərimizi göstərmişik ki, müsəlman aləmi daha da sıx birləşsin. Bu gün də çalışırıq və Azərbaycanda keçirilən müxtəlif tədbirlər, o cümlədən gələn il keçiriləcək İslam Həmrəylik Oyunları bu məqsədi güdür ki, müsəlman aləmində əlaqələr daha da yaxın olsun, münaqişələrə son qoyulsun, əməkdaşlıq üçün daha yaxşı zəmin yaradılsın.

Yəni, budur keçən il müşahidə olunan mənzərə. Mən hələ MDB məkanında baş verən iqtisadi və siyasi hadisələri demirəm. Neftin qiyməti dünya bazarlarında kəskin şəkildə, 3-4 dəfə aşağı düşmüşdür. Bu, bizim gəlirlərimizə mənfi təsir göstərmişdir. Yəni, 2015-ci ildə geosiyasi və geoiqtisadi mənzərə çox narahatedici və ağırdır. Bu, reallıqdır. Biz real dünyada yaşayırıq və reallıqla hesablaşmalıyıq. Əlbəttə ki, bu reallığı nəzərə alaraq öz siyasətimizi bu il və bundan sonrakı illərdə davam etdirəcəyik.

O ki qaldı ölkəmizin inkişafına, Azərbaycan 2015-ci ildə uğurla inkişaf etmişdir. Qarşıda duran bütün vəzifələr icra edilmişdir. Ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır. Mən keçən il xarici ölkələrə 20 rəsmi və işgüzar səfər etmişəm. Xarici ölkələrin dövlət və hökumət başçıları Azərbaycana səfərlər etmişlər, 15 dövlət və hökumət başçısı Azərbaycanda olmuşdur. Bizim beynəlxalq təşkilatlardakı fəaliyyətimiz çox uğurlu olmuşdur. Azərbaycan bütün məsələlərlə bağlı öz prinsipial mövqeyini bildirir, ifadə edir. Bizim mövqeyimiz haqqədalət, beynəlxalq hüquq əsasında formalaşır.

Bu gün burada regionda gedən proseslərlə bağlı öz fikirlərimi bildirərkən, eyni zamanda, ictimaiyyətə çatdırmaq istəyirəm ki, Azərbaycan bundan sonra da regionda sabitləşdirici rol oynamağa çalışacaq. Çalışacaq ki, risklər azalsın, əməkdaşlıq daha da dərinləşsin.

Əfsuslar olsun ki, 2015-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir irəliləyiş olmamışdır. Deyə bilərəm ki, danışıqlar istiqamətində durğunluq müşahidə olunurdu. Sadəcə olaraq, ilin sonunda Ermənistan və Azərbaycan prezidentlərinin görüşü keçirilmişdir. Bu görüş də deyə bilərəm ki, formal xarakter daşıyırdı – görüş naminə görüş. Çünki 2015-ci ildə prezidentlər səviyyəsində görüş keçirilməmişdir. Ancaq bu görüşün heç bir faydası, yaxud da ki, nəticəsi olmamışdır. Bunun da səbəbi ondan ibarətdir ki, Ermənistan sülh istəmir. Status-kvonu nə qədər çox mümkündürsə saxlamaq istəyir, işğal olunmuş torpaqlardan çəkilmək istəmir və danışıqları sadəcə olaraq bir proses kimi qəbul edir, vaxt uzatmaqla məşğuldur və danışıqları sonsuz bir proses kimi gələcəkdə də görmək istəyir.

Bizim isə mövqeyimiz tam fərqlidir. Biz münaqişənin həllini istəyirik. Vasitəçilər də, Minsk qrupunun həmsədrləri də dəfələrlə bildirmişlər ki, onlar da münaqişənin həllini istəyirlər. Təbii ki, onların vəzifəsi bundan ibarətdir. Ancaq əfsuslar olsun ki, işğalçıya bu istiqamətdə heç bir ciddi təzyiq göstərilmir. Burada əlbəttə ki, işğalçı ilə işğala məruz qalan ölkə arasında fərq qoyulmalıdır. Bizim torpaqlarımız işğal altındadır və bu işğala son qoyulmalıdır. Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları bir neçə dəfə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir. Biz bunu müsbət qarşılayırıq. Ancaq status-kvonun dəyişdirilməsi üçün heç bir konkret addım atılmır. Status-kvonun dəyişdirilməsi o deməkdir ki, işğala son qoyulacaq.

Əlbəttə ki, Azərbaycan öz mövqeyini bundan sonra da müdafiə edəcək. Bizim mövqe beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanır. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir ki, erməni işğalçı qüvvələri torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılsın. Onu da qeyd etməliyəm ki, postsovet məkanında buna oxşar münaqişələrlə bağlı BMT Təhlükəsizlik Şurası heç bir qətnamə

qəbul etməmişdir. Ancaq işğala məruz qalan post-sovet məkanının digər ölkələri, onların vəziyyəti ilə bağlı bəzi hallarda ərazi bütövlüyü haqqında birmənalı bəyanatlar səslənir. Bizim ərazi bütövlüyümüz də eyni əhəmiyyət daşıyır. Heç bir başqa ölkənin ərazi bütövlüyündən aşağı əhəmiyyət daşımır və bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Azərbaycan bu istiqamətdə öz siyasətini aparacaq. Əlbəttə ki, diplomatik səylər davam etdiriləcək. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bütün üzv olduğumuz beynəlxalq təşkilatların gündəliyindədir və olmalıdır. Biz bu məsələni bütün beynəlxalq tribunalarda qaldırırıq və qaldıracağıq, diplomatik və siyasi səylərimizi artıracağıq. Ermənistanı bundan sonra da bu bölgədə bütün layihələrdən kənarda saxlayacağıq, öz hərbi gücümüzü artıracağıq.

Azərbaycanın hərbi potensialı 2015-ci ildə böyük dərəcədə möhkəmlənmişdir. Biz bunu döyüş meydanında da görürük. 2015-ci ildə təmas xəttində Azərbaycan tam üstünlük təmin etmişdir və öz iradəsini diktə etmişdir. Onlarla işğalçı məhv edildi, Ermənistan rəhbərliyi panikadadır, isterikadadır, xarici qüvvələrə müraciət edir ki, onları müdafiə etsinlər. Ancaq sual olunur: Erməni əsgərləri hansı torpaqda həlak olurlar? Azərbaycan torpağında həlak olurlar. Getsinlər, çəkilsinlər bizim torpaqlarımızdan, bu zaman münaqişəyə son qoyular, heç kim həlak olmaz və sülh bərpa edilə bilər.

Biz bundan sonra da bütün imkanlardan istifadə edəcəyik. Siyasi, diplomatik və iqtisadi rıçaqlardan istifadə edəcəyik, eyni zamanda, döyüş potensialımızı gücləndirəcəyik və beləliklə, münaqişənin həllini yaxınlaşdıracağıq. Bir daha demək istəyirəm ki, bizim prinsipial mövqeyimiz ədalətə, o cümlədən tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanır.

2015-ci ildə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir. Bu da çox müsbət haldır. Əlbəttə ki, əvvəlki illərdə olan inkişaf əldə edilməmişdir. Bu da mümkün deyildi. Çünki qeyd etdiyim kimi, neftin qiyməti 3-4 dəfə aşağı düşmüşdür. Manatın məzənnəsi devalvasiyaya uğramışdır. Bu da qaçılmaz idi. Çünki neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi imkan vermirdi ki, manatın məzənnəsi əvvəlki səviyyədə qalsın. Eyni zamanda, bizim qonşu ölkələrdə də milli valyutalar 100 faiz, bəzi hallarda ondan da çox dərəcədə devalvasiyaya uğramışdır. Belə olan halda Azərbaycanda istehsal olunan məhsullar öz rəqabət qabiliyyətliliyini itirirdi, bizim istehsalçılara çox böyük təzyiq göstərilirdi. Sadəcə olaraq, manatı əvvəlki səviyyədə saxlamaq qeyri-mümkün idi. Yəni, bu, qaçılmaz bir addım idi. Bunun səbəbi Azərbaycandan kənarda yaranmışdır. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsini mən şəxsən iqtisadi amillərlə, sırf iqtisadi amillərlə bağlaya bilmərəm. Çünki dünya iqtisadiyyatı o qədər tənəzzülə uğramayıb ki, neftin qiyməti 3-4 dəfə aşağı düşsün. Mənim fikrimcə, burada ilk növbədə siyasi amillər öz rolunu oynayıbdır. Kimsə kiminləsə mübarizə aparır, biz isə bundan əziyyət çəkirik. Ona görə bu da əlbəttə ki, bizim iqtisadi vəziyyətimizə mənfi təsir göstərmişdir. Ancaq biz çalışacağıq ki, bu məzənnənin dəyişməsi ilə bağlı mənfi fəsadların aşağı salınması üçün daha da fəal iş görək. Bu barədə mən bir qədər sonra öz fikirlərimi bildirəcəyəm.

Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı artıb. Ümumi daxili məhsul 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sənayesi isə 8,4 faiz artmışdır. Bu, məni çox sevindirir. Çünki bu, son illər ərzində qeyri-neft sektorunun inkişafı deməkdir, aparılan islahatların nəticəsidir. Hesab edirəm ki, qeyri-neft sənayesinin 8,4 faiz artması bizim əsas göstəricimizdir.

Keçən il ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulmuşdur. Bunun yarısı xarici sərmayədir. Bu da çox müsbət haldır. Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi öz potensialını təqdim edir. Başqa iqtisadi göstəricilər də müsbət dinamikanı göstərir. Yəni, 2015-ci ildə bütün bu geosiyasi və iqtisadi amilləri nəzərə alsaq, iqtisadi inkişafa nail olmaq özlüyündə böyük nailiyyətdir.

Keçən il bütün sosial proqramlar icra edilmişdir. Heç bir ixtisar olmamışdır. İnsanlara daha da böyük məbləğdə ünvanlı dövlət sosial yardımı verilmişdir. Bu sahədə də islahatlar aparılıb və bu yardımı alan insanların sayı azalıb. Bunun hesabına həqiqətən bu yardıma möhtac olan ailələrə daha da böyük məbləğdə yardım verilir. Bu gün 112 min ailə, təqribən 500 minə yaxın insan hər ay dövlətdən orta hesabla 152 manat yardım alır və il ərzində verilən bu məbləğ 7 faiz artmışdır. Sosial infrastruktur layihələri icra edilmişdir. Baxmayaraq ki, bizim gəlirlərimiz azalıb, ancaq bu sahəyə biz vəsaiti təşkil edə bilmişik. Altmışa yaxın tibb müəssisəsi tikilib-təmir edilib, 20-dən çox məktəb təmir edilib-tikilib və hazırda 23 məktəbdə təmir işləri aparılır. Uşaq bağçalarının tikintisi davam edir. Yəni, sosial infrastruktur layihələri Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuşdur və onlar icra edildi, bu il də icra edilməlidir.

Regionların inkişafı 2015-ci ildə sürətlə getmişdir. Mən dəfələrlə bölgələrdə olmuşam. Vəziyyətlə tanış olurdum, görürdüm ki, hər bir yerdə inkişaf, tərəqqi var, yeni sənaye müəssisələri açılır. Yüz mindən çox yeni iş yerləri açılmışdır ki, onlardan 84

mini daimi iş yeridir. Bununla bərabər, onu da deməliyəm ki, 40 min iş yeri bağlanmışdır. Ancaq buna baxmayaraq, 84 min daimi iş yeri açılmışdır, 40 min iş yeri bağlanmışdır. Yenə də burada biz müsbət dinamikanı görürük. Ancaq bununla bərabər, iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcək. Bu gün biz bu barədə də danışacağıq.

Azərbaycanda çox müsbət demoqrafik vəziyyət mövcuddur. Ötən il əhalinin sayı 114 min nəfər artıb. Bu, çox müsbət haldır, ümumi iqtisadi inkişafın təzahürüdür. Eyni zamanda, bu, bizi daha da fəal işləməyə sövq etməlidir. Çünki bir il ərzində əhalinin sayının 114 min nəfər artması gələcəkdə yeni iş yerləri, bir neçə ildən sonra yeni uşaq bağçaları, yeni məktəblər deməkdir. Biz bunları etməliyik. Yəni, bizim üstünlüyümüz ondan ibarətdir ki, əhali artır. Eyni zamanda, bu, bizim iqtisadiyyatımıza əlavə yükdür. Biz elə işləməliyik ki, iqtisadi inkişaf, açılan iş yerləri, yaradılan sosial infrastruktur demoqrafik inkişafı üstələsin. Bax, hökumət qarşısında bu vəzifə qoyulur və biz bu vəzifəni icra etməliyik.

Keçən il TANAP layihəsinin inşası başlanmışdır. Bu, ölkəmiz, region və ümumiyyətlə, Avropa üçün çox əhəmiyyətli layihədir, strateji əhəmiyyət daşıyan bir layihədir. Bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı dünya bazarlarına çıxaraq. Avropa isə alternativ qaz mənbəyi əldə edəcək. Tranzit ölkələr, – eyni zamanda, onlar istehlakçı ölkələrdir, – bundan böyük mənfəət götürəcəklər. Yəni, bu layihənin bütün iştirakçıları böyük siyasi və iqtisadi dividend əldə edəcəklər. Bu layihənin təşəbbüskarı Azərbaycandır. Əsas iqtisadi yük bizim üzərimizə düşür və biz bu layihəni icra etməyə tərəfdaş ölkələrlə başlamışıq. Keçən il Türkiyənin Qars şəhərində TANAP layihəsinin təməl daşı qoyulub və işlər uğurla davam etdirilir. Bu il artıq kəmərin inşası başlayır.

2015-ci ildə ölkəmizin həyatında tarixi hadisə baş vermişdir. İlk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Azərbaycan bu Oyunları ən yüksək səviyyədə keçirə bilmişdir. Baxmayaraq ki, Oyunların keçirilməsi üçün cəmi 2 il yarım vaxtımız var idi, biz bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirdik. Bütün Avropaya və dünyaya müstəqil ölkəmizin imkanlarını, xalqımızın qonaqpərvərliyini, gözəl Bakı şəhərimizi göstərdik. Azərbaycan reallıqlarını 6 min idmançı, minlərlə qonaq öz gözləri ilə görə bilmişlər. Bu reallıqlar bizim nüfuzumuzu daha da artırır və gələcəkdə Azərbaycana qoyulacaq investisiyaların həcmini, Azərbaycana gələcək turistlərin sayını artıracaq. Yəni, Avropa Oyunları sadəcə olaraq, dünyaya bizim təqdimatımız deyildi. Onun çox böyük praktiki nəticələri olacaqdır. Biz müasir idman, xidmət və nəqliyyat infrastrukturu yaratmışıq. Yəni, bütün bunlar Azərbaycan xalqının sərvətidir və bu Oyunlar əlbəttə ki, müstəqil ölkəmizin qüdrətini göstərmişdir. Bu Oyunlar göstərdi ki, biz ən mötəbər beynəlxalq tədbiri ən yüksək səviyyədə keçirə bilərik. Əlbəttə ki, idmançılarımız da bizi sevindirdilər. Azərbaycan komanda hesabında ikinci yeri tutub. İdmançılarımız 56 medal qazanmışlar ki, onlardan 21-i qızıl medaldır. Biz idman gücümüzü də göstərdik. Əslində idman hər bir ölkənin ümumi inkişafını əks etdirir. İnkişaf etmiş ölkələr idman meydanlarında daha çox qələbə qazanırlar. Azərbaycan idman dövlətidir, inkişafda olan dövlətdir və biz bu tarixi missiyanı şərəflə yerinə yetiririk.

2015-ci ildə parlament seçkiləri keçirilmişdir. Bu da ölkəmizin həyatında əlamətdar hadisə idi. Parlament seçkiləri ədalətli, şəffaf və demokratiya şəraitində keçirilmişdir. Bütün beynəlxalq müşahidəçilər, o cümlədən Avropa Şurasının nümayəndələri, MDB ölkələrinin nümayəndələri və digər müşahidəçilər parlament seçkilərini birmənalı şəkildə yüksək qiymətləndirmişlər ki, seçkilər ədalətli, şəffaf şəkildə və demokratik şəraitdə keçirilmişdir. Bütün beynəlxalq rəy sorğuları da rəsmi nəticələri təsdiqləyir. Yəni, bu, çox önəmli hadisədir. Çünki biz demokratiya yolu ilə gedirik, demokratik cəmiyyət qururuq. İnsan haqları, demokratik inkişaf daim bizim prioritet istiqamətlərimizdir. Seçkilər, istənilən seçkilər bu istiqamətdə bir sınaqdır. Biz bu sınaqdan şərəflə çıxdıq. Azərbaycan xalqının iradəsi parlament seçkilərinin nəticələrində tam şəkildə ifadə olunmuşdur. Eyni zamanda, aparılan siyasətə xalq tərəfindən yüksək qiymət verilmişdir. Çünki mən seçkilərin nəticələrini belə qəbul edirəm. Bir tərəfdən Azərbaycan dövləti demokratiyaya sadiq olduğunu bir daha nümayiş etdirmişdir, digər tərəfdən, parlament seçkilərinin nəticələri aparılan siyasətə xalq tərəfindən verilən böyük dəstəkdir. Mən bu dəstəyə görə Azərbaycan vətəndaşlarına minnətdaram və bəyan etmək istəyirəm ki, bundan sonra da biz ölkəmizi inamla irəliyə aparacağıq. Bütün çətinliklərə, beynəlxalq iqtisadi böhranlara, siyasi-hərbi böhranlara baxmayaraq, Azərbaycan inamla irəliyə gedəcək. Azərbaycanda sabitlik təmin edilir, ictimai-siyasi vəziyyət müsbətdir. Azərbaycanda xalqla iqtidar arasında birlik möhkəmlənir və bu amillər bizim uğurlu inkişafımızı şərtləndirir.

***

Sonra maliyyə naziri Samir Şərifov, Baş nazirin müavini Əli Həsənov, kənd təsərrüfatı naziri Heydər Əsədov çıxış etdilər.



**Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi**

– Biz 2016-cı ildə iqtisadi inkişaf templərini təmin etməliyik. Bu, asan məsələ deyil. Xüsusilə burada səslənən fikirlər və ümumiyyətlə, keçən il müşahidə olunan mənzərə deməyə əsas vermir ki, 2016-cı ildə dünyada iqtisadi böhran başa çatacaq. Belə olan halda biz daha da səmərəli işləməliyik və iqtisadi inkişaf templərini daxili resurslar hesabına, düşünülmüş siyasət, islahatlar, o cümlədən struktur islahatları nəticəsində təmin etməliyik.

Xüsusilə qeyri-neft sektorunun inkişafı böyük əhəmiyyət daşıyır. Son illər ərzində bu istiqamətdə böyük işlər aparılmışdır. Əgər biz vaxtilə qeyri-neft sektorunun inkişafı ilə məşğul olmasaydıq, bu gün iqtisadi inkişafımız o qədər də uğurlu olmazdı. İqtisadi şaxələndirmə, qeyri-neft sektorunun inkişafı 2016-cı ildə iqtisadi sahədə əsas prioritet olacaqdır. Əminəm ki, biz bu il ərzində bu istiqamətdə daha da böyük uğurlara nail olacağıq.

Ümumiyyətlə, ümumi daxili məhsulumuzun strukturu müsbətə doğru dəyişir, qeyri-neft sektorunun çəkisi artır. Bu, müsbət haldır. Neftdən asılılıq azalır. Ancaq biz bu asılılığı minimum səviyyəyə endirməliyik ki, gələcəkdə neftin qiymətindən asılı olmayaq. Vəzifə bundan ibarətdir. Hesab edirəm ki, biz düşünülmüş siyasət, gərgin iş nəticəsində buna nail ola biləcəyik.

Bu il biz xarici investisiyaları Azərbaycana daha böyük həcmdə cəlb etməliyik. Düzdür, bu gün dünya miqyasında xarici investisiyalar uğrunda mübarizə aparılır. Ancaq Azərbaycan xarici sərmayə üçün çox gözəl ölkədir, xarici sərmayələr qorunur. Düzdür, sərmayələr daha çox neft-qaz sektoruna qoyulur. Ancaq, eyni zamanda, son vaxtlar qeyri-neft sektoruna da xarici sərmayə qoyulması müşahidə olunur. Biz çalışmalıyıq ki, xarici sərmayəni ölkəmizə cəlb edək, xüsusilə qeyri-neft sektoruna. O sahələrə ki, öz növbəsində bu sahələrin inkişafı ixrac potensialımızı gücləndirəcək və idxaldan asılılığımızı azaldacaq. Hesab edirəm ki, kənd təsərrüfatı sektoruna, sənaye sektoruna, xidmət sektoruna xarici sərmayəni cəlb etmək bizim üçün daha da məqbul sayıla bilər və hökumət bu istiqamətdə ciddi iş aparmalıdır. Əvvəlki illərdə daha çox bizə olan müraciətlər əsasında xarici sərmayəni cəlb edirdik. Xarici investorlar gəlirdilər, təkliflər verirdilər, müvafiq orqanlar buna baxırdılar və ondan sonra qərar qəbul olunurdu. Ancaq indiki şəraitdə biz özümüz fəal işləməliyik. Bizim iqtisadi qurumlarımız, eyni zamanda, xaricdəki səfirliklərimiz də bu işlərə qoşulmalıdırlar, potensial investorlara Azərbaycan haqqında daha da geniş məlumat verilməlidir. Bizim imkanlarımız, artan iqtisadi inkişafımız, genişlənən daxili bazarımız, eyni zamanda, regional bazarlar hesab edirəm ki, potensial investorlar üçün cəlbedici ola bilər. Bir

sözlə, bu istiqamətdə çox ciddi iş aparılmalıdır və nəticələr olmalıdır.

Eyni zamanda, yerli sahibkarlar da Azərbaycan iqtisadiyyatına daha çox sərmayə qoymalıdırlar. Son vaxtlar biz bunu görürük. Xüsusilə dövlət tərəfindən verilən güzəştli kreditlər hesabına biz bunu görürük. Əlbəttə, bu, dövlət siyasətidir. Bu kreditlər sahibkarlara verildikdə də onların qarşısında şərt qoyulur ki, sərmayəni məhz bu və ya digər sahəyə yatırsınlar. Ancaq bizim artıq geniş biznes təbəqəmiz, iş adamlarımız var. Onlar da öz sərmayələrini ölkə iqtisadiyyatına qoymalıdırlar. İlk növbədə sərmayəni iqtisadiyyatın real sektoruna – istehsal sahələrinin yaradılmasına, kənd təsərrüfatına, sənayenin inkişafına və xidmət sektoruna yatırmalıdırlar. Dövlət qurumları isə – həm mərkəzi dövlət orqanları, həm yerlərdəki icra orqanları onlar üçün bütün şəraiti yaratmalıdırlar. Onların işinə müdaxilə etməməlidirlər, əksinə, onları təşviq etməlidirlər və mütəmadi qaydada məlumat verməlidirlər ki, hər bir bölgə üzrə nə qədər investisiya qoyulubdur, investisiyanın mənbəyi nədir. Çünki dövlət investisiyaları təbii ki, dövlət tərəfindən qoyulur. Burada yerli və mərkəzi icra orqanlarının fəaliyyəti o qədər də önəmli deyil. Ancaq əlbəttə ki, mərkəzi və yerli dövlət qurumları özəl xarici və yerli investisiyaları cəlb etməyə çalışmalıdırlar.

Biz ölkəmizin valyuta ehtiyatlarını qoruyuruq və qorumalıyıq. Əvvəlki illərdə Neft Fondundan dövlət büdcəsinə böyük məbləğdə transfert olunurdu. Bunun da təbii səbəbləri var idi. Biz çalışırdıq ki, əsas infrastruktur layihələrini maksimum tez bir zamanda icra edək və buna nail ola bilmişik. Bu gün deyə bilərəm ki, Azərbaycanda əsas infrastruktur layihələri icra edilibdir. Elektrik enerjisi ilə bağlı generasiya güclərimiz kifayət qədər böyükdür, qazlaşdırma uğurla aparılır, içməli su layihələri, yolların tikintisi. Yəni, Dövlət Neft Fondunun transfertlərinin məqsədi bundan ibarət idi ki, infrastruktur, biznesin inkişafı üçün daha yaxşı şərait yaradılsın və biz buna nail ola bilmişik. İndiki şəraitdə biz Neft Fondunun vəsaitini qorumalıyıq. Əvvəlki illərdə apardığımız siyasət davam etdirilə bilməz. Neft Fondundan dövlət büdcəsinə transfertlər bu il azalır və biz gələcəkdə də xüsusilə hər bir layihəyə, onun əhəmiyyətinə baxmalıyıq və məhz ondan sonra qərar qəbul edilməlidir.

Vergi bazası genişləndirilməlidir. Buna nail olmaq üçün kifayət qədər ehtiyatlar var. Biz qeyri-formal iqtisadi fəaliyyəti leqal müstəviyə gətirməliyik və bu istiqamətdə çox ciddi addımlar atılmalıdır. Vergi Məcəlləsinə edilmiş bir sıra dəyişikliklər artıq qüvvəyə minmişdir və daha da gözəl imkanlar yaradır.

Gömrük rəsmiləşdirilməsi və bütün idxal-ixrac əməliyyatları tam şəffaf aparılmalıdır. İnhisarçılığa qarşı daha da ciddi mübarizə aparılmalıdır. Hesab edirəm ki, bax, biz bu üç istiqamət üzrə fəal işləsək büdcə gəlirlərimizin məbləğini böyük dərəcədə artıra bilərik. Hesab edirəm ki, büdcəyə mövcud proqnozlardan daha çox vəsait daxil olmalıdır.

2016-cı ilin Dövlət İnvestisiya Proqramı yaxın günlərdə mənə təqdim edilməlidir. Bu proqramda əsas infrastruktur layihələri öz əksini tapacaqdır. Həmçinin dövlət sərmayəsi ölkəyə tez bir zamanda gəlir gətirə və idxalı əvəzləyə biləcək sahələrə qoyulmalıdır.

Maliyyə nəzarəti daha da gücləndirilməlidir. Xüsusilə Hesablama Palatasının işi daha da səmərəli şəkildə təşkil edilməlidir. Dövlət qurumlarının, dövlət şirkətlərinin xərclərinə çox ciddi nəzarət olmalıdır. Deyə bilmərəm ki, əvvəlki illərdə nəzarət lazımi səviyyədə idi. Bəzi hallarda dövlət qurumları, dövlət şirkətlərimiz lazım olmayan, səmərəsiz xərclər edirdilər. Buna son qoyulmalıdır. Burada maliyyə nəzarəti çox güclü, ciddi olmalıdır. Pozuntulara yol verən şəxslər ciddi cəzalandırılmalıdırlar.

Azərbaycanda bir neçə dövlət qurumu, dövlət şirkəti var ki, onlar ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyır, dövlət inhisarındadır. Ancaq orada, o şirkətlərdə idarəetmə qaydaları dəyişdirilməlidir. Korporativ idarəetmə prinsipləri tətbiq edilməlidir. Dünyanın inkişaf etmiş ölkələrinin aparıcı korporasiyalarının təcrübəsi öyrənilməli və tətbiq edilməlidir. Bu şirkətlər tam şəffaf fəaliyyət göstərməlidirlər.

Bununla yanaşı, ictimai nəzarət mexanizmləri işə salınmalıdır. Mən dəfələrlə ictimai nəzarət haqqında fikirlərimi bildirmişəm. Amma hesab edirəm ki, ictimai nəzarət mexanizmləri işlənməlidir. Çünki sadəcə olaraq insanlardan tələb etmək ki, gedin o və ya bu sahəyə nəzarət edin, bu, çətin məsələdir. Burada lazımi səviyyədə həm ictimai fəallıq, həm də mexanizmlər olmalıdır. İctimai nəzarət mexanizmləri mütləq tətbiq edilməlidir. Hökumət bu məsələ ilə bağlı öz təkliflərini təqdim etsin. Təbii ki, heç bir vaxt israfçılığa yol verilməməlidir, xüsusilə indiki şəraitdə çox ciddi nəzarət olmalıdır.

Biz nağd pul dövriyyəsi sferasını azaltmalıyıq. Nağdsız ödəmələr genişləndirilməlidir. Müxtəlif vasitələr var. Buna nail olmaq üçün, o cümlədən fiskal təşviq mexanizmləri tətbiq edilməlidir ki, şirkətlər maraqlı olsunlar ki, nağdsız əməliyyatlar aparılsın.

Deyə bilərəm ki, bütövlükdə son illər ərzində apardığımız islahatlar öz nəticəsini verməkdədir.

Beynəlxalq iqtisadi və maliyyə qurumları Azərbaycanda iqtisadi sahədə aparılan siyasəti yüksək qiymətləndirirlər. Dünyanın ən böyük və mötəbər qurumlarından biri olan Davos Dünya İqtisadi Forumu Azərbaycanı iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə 40-cı yerə layiq görüb. Bu, doğrudan da böyük nailiyyətdir. Aparıcı reytinq agentlikləri 2015-ci ildə bizim müsbət reytinqlərimizi təsdiq ediblər. Bu, doğrudan da çox böyük nailiyyətdir. Ancaq biz daha da səmərəli işləməliyik və hansı sahədə qüsur varsa, o qüsurlar, nöqsanlar aradan qaldırılmalıdır.

Biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə tədbirlər görülməlidir. Ötən il çox ciddi addımlar atılmışdır. Burada bu, səsləndi. Lisenziyaların sayı azaldılıb. İcazələrin sayı azaldılır. Bürokratik əngəllər aradan götürülür. Bu il də bu istiqamətdə daha da ciddi işlər aparılmalıdır və biznes ictimaiyyətinin təklifləri də nəzərə alınmalıdır. Onlarla mütəmadi qaydada əlaqələr saxlanılır. Ancaq indiki şəraitdə onların fikirləri hesab edirəm ki, daha da böyük əhəmiyyət daşıya bilər. Hansı problemlər var, onların biznes fəaliyyəti üçün əngəllər nədən ibarətdir ki, bunu biz aradan götürək və biznes mühitini daha da yaxşılaşdıraq.

Sahibkarlara güzəştli kreditlərin verilməsi təmin edilməlidir. Keçən il güzəştli şərtlərlə təxminən 250 milyon manat məbləğində kreditlər verilmişdir. Bunun böyük əksəriyyəti aqrar sektora, regionlara verilmişdir. 5 min 240 sahibkara güzəştli kreditlər verilmişdir. Bu il bu siyasət davam etdirilməlidir. Əlbəttə, indi bizim maliyyə imkanlarımız əvvəlki illərdəki kimi deyil, ancaq biz bu sahəyə mütləq vəsait təşkil etməliyik. Çünki bu, iqtisadiyyatın real sektoruna qoyulan sərmayədir. Bu sərmayə qoyuluşunda dövlət siyasəti tam öz əksini tapır. Çünki biz dövlət üçün lazım olan sahələri inkişaf etdirməliyik ki, idxalı əvəzləyə biləcək, ixrac qabiliyyətli məhsulları yetişdirək. Ona görə güzəştli kreditlərin məqsədyönlü şəkildə verilməsi öz müsbət rolunu oynayır. Bu ilin dövlət büdcəsində bu məqsədlər üçün ən azı keçən ilin səviyyəsində vəsait ayrılmalıdır. Nəzərə alsaq ki, verilən bu kreditlərin böyük hissəsi əvvəlcə götürülmüş və qaytarılmış kreditlər hesabına verilir, burada büdcə yükü o qədər də böyük olmayacaq. Olsa da yenə də bu çox önəmli və öz səmərəsini verən sahədir.

Mən bu barədə əvvəllər də öz fikirlərimi bildirmişdim. İndiki şəraitdə buna daha da böyük ehtiyac var. Özəl banklar daha çox iqtisadiyyatın real sektoruna kreditlər ayırsınlar. Dövlət özəl bankları dəstəkləyir. Ümumiyyətlə, bank sektorunda islahatlar aparılmalıdır. Bank sektorunda konsolidasiya aparılmalıdır. Özəl banklar ölkə iqtisadiyyatının inkişafında daha da fəal iştirak etməlidirlər. Əlbəttə ki, özəl banklar gəlir qazanmalıdırlar. Onlar üçün başqa alətlər bəlkə daha da cəlbedici ola bilər. Ancaq dövlət maraqları hər şeydən üstündür. Ona görə özəl banklara tövsiyə olunmalıdır ki, daha çox iqtisadiyyatın real sektoruna vəsait ayırsınlar. Bu gün də əgər onların kredit portfelinə baxsaq görərik ki, iqtisadiyyatın real sektoruna daha da çox vəsait ayrılır. Ancaq hesab edirəm ki, biz bunu, bu siyasəti daha da gücləndirməliyik. Çünki bu gün ölkə qarşısında duran əsas vəzifələr qeyri-neft sektorunun inkişafı, idxalı əvəzləyən, ixrac qabiliyyətli məhsulların istehsalıdır ki, bu məhsullar ixrac edilərək ölkəmizə valyuta gətirir. Çünki valyuta gəlirlərimiz kəskin şəkildə aşağı düşüb. Bu sahədə əlbəttə ki, ilk növbədə kənd təsərrüfatı, emal sənayesi istiqamətinə, tikinti materialları istiqamətinə vəsait ayrılmalıdır ki, biz özümüzü bu məhsullarla daxili istehsal hesabına tam təmin edək.

İstehlak qiymətlərinə çox ciddi nəzarət etmək lazımdır. Manatın məzənnəsinin dəyişməsi ilə bağlı bəzi işbazlar qiymətləri süni şəkildə qaldırmaq istəyirlər. Əlbəttə ki, biz ərzaq məhsulları ilə bağlı müəyyən dərəcədə idxaldan asılıyıq. Hələ ki, özümüzü tam 100 faiz təmin edə bilməmişik. Ancaq o məhsullar ki, Azərbaycanda istehsal olunur, orada qiymət artımı ümumiyyətlə mümkün deyil, olmamalıdır. Ümumiyyətlə, mən bilirəm, məlumat da gəlir ki, natəmiz insanlar, işbazlar bax bu məzənnə məsələsindən sui-istifadə etmək istəyirlər. Buna son qoyulmalıdır. Süni bahalaşmaya son qoyulmalıdır və burada çox ciddi cəza tədbirləri görülməlidir. Biz sadəcə olaraq cərimələrlə kifayətlənməməliyik. Prokurorluq orqanları çox ciddi məşğul olsun. Bu vəziyyətdən öz şəxsi maraqları üçün istifadə etmək istəyənlərə qarşı çox ciddi cəza tədbirləri görülməlidir. Mətbuatda da bu, işıqlandırılmalıdır ki, buna son qoyulsun.

Bu il pensiya və əməkhaqqının qaldırılması nəzərdə tutulmalıdır. Hökumət təkliflər hazırlasın. Əlbəttə, indiki şəraitdə bunu etmək o qədər də asan məsələ deyil. Ancaq mən dəfələrlə demişəm ki, biz çox güclü sosial siyasət aparırıq. Giriş sözümdə qeyd etdiyim kimi, sosial infrastrukturun yaradılması, ünvanlı dövlət sosial yardımının təmin edilməsi üçün çox ciddi addımlar atılmışdır. Böyük vəsait tələb edən addımlar atılmışdır. Ona görə, pensiyaların və əməkhaqlarının qaldırılması məsələsinə hökumət baxmalıdır, təkliflər verməlidir. Əlbəttə ki, dövlət büdcəsinə də düzəlişlər ediləcək, dürüstləşmə apa-

rılacaq. Orada həm sosial təminat məsələləri və investisiyayönümlü məsələlər öz həllini tapmalıdır.

Mən manatın devalvasiyası ilə bağlı fikirlərimi artıq bildirdim. Bu, bizdən asılı olan məsələ deyildi. Bir daha demək istəyirəm ki, neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi, qonşu ölkələrdə milli valyutaların devalvasiyası bu addımı qaçılmaz etmişdir. Bizim vəzifəmiz bu vəziyyətdən minimum itkilərlə çıxmaqdır. Əminəm ki, biz buna nail ola biləcəyik. Dediyim o məsələlər öz həllini tapmalıdır.

Biz bu il bütün sosial proqramları tam icra edəcəyik. Bu barədə heç kimin şübhəsi olmasın. O cümlədən məcburi köçkünlərin yaşayış problemlərinin həlli istiqamətində böyük vəsait nəzərdə tutulur. Ötən il 15 min köçkün yeni evlərə köçüb. 2014-cü ildə 20 min köçkün yeni evlərə köçüb və bu siyasət davam etdiriləcək. Dövlət Neft Fondunda bu məqsədlər üçün kifayət qədər vəsait nəzərdə tutulub.

Keçən il "Kənd təsərrüfatı ili" idi. Mən çox şadam ki, "Kənd təsərrüfatı ili"ndə kənd təsərrüfatı 6,6 faiz artmışdır. Bu, çox gözəl göstəricidir, qeyri-neft sektorunun inkişafıdır. Kənd təsərrüfatı sahəsində aparılan islahatlar da bax, bu vəziyyəti şərtləndirir. Bu islahatlar daha da dərinləşməlidir. Belə olan halda biz özümüzü ərzaq məhsulları ilə tam, yəni, 100 faiz təmin edə bilərik və ərzaq məhsullarının tərkibində yerli komponent daha da böyük həcmdə ola bilər. Vəzifəmiz isə özümüzü ərzaq məhsulları ilə 100 faiz təmin etməkdir. Ərzaq təhlükəsizliyi bu deməkdir.

İxrac qabiliyyətimizi artırmalıyıq. Çünki gələcəkdə bizim neft və qazdan başqa əsas ixrac məhsullarımız kənd təsərrüfatı məhsullarıdır. Xüsusilə nəzərə alsaq ki, ənənəvi bazarlarımıza çıxışımız var, biz yeni bazarlar axtarmalıyıq. Bizim kənd təsərrüfatı məhsulları üçün əsas bazarımız Rusiyadır. Rusiyada bizim məhsullara indi daha çox tələbat var. Biz bu tələbatı təmin etməliyik və Rusiya bazarına daha da böyük məhsulla çıxmalıyıq. Eyni zamanda, Qazaxıstanda müasir logistika mərkəzi tikilib, demək olar ki, hazırdır. Yaxın vaxtlarda biz ərzaq məhsullarımızı Qazaxıstana da ixrac etməyə başlayacağıq. Yaxın Şərq ölkələri bizim məhsullarımızla maraqlanırlar. Səfərlər zamanı bu məsələ müzakirə edilir və biz bu bazarlara da çıxmalıyıq. Çünki bizim keyfiyyətli məhsullarımız böyük marağa səbəb olur. Bizim üçün isə əsas məsələ ənənəvi bazarlara daha böyük həcmlə çıxmaq və yeni bazarlara öz məhsullarımızı təqdim etməkdir.

Nəzərə alsaq ki, keçən il meliorasiya işləri ilə bağlı çox ciddi addımlar atılmışdır, biz yararsız torpaqları dövriyyəyə buraxmalıyıq və minlərlə, on minlərlə hektar torpaq dövriyyəyə buraxılacaq. Artıq o torpaqlarda suvarma işləri təmin edilir və məhsuldarlığı, əkin sahələrini artırmalıyıq. Beləliklə, əminəm ki, biz bu il də kənd təsərrüfatında böyük artıma nail ola biləcəyik.

Dövlət İnvestisiya Proqramında infrastruktur layihələri öz əksini tapacaq. Onların içində içməli su layihələrini xüsusilə qeyd etmək istərdim. Çünki indi Azərbaycanda qazlaşdırma təxminən 90 faizə çatmışdır. Çox gözəl göstəricidir. "Azərişıq" indi bölgələrdə fəal iş aparır. Mən də bölgələrdə olarkən, vəziyyətlə maraqlanarkən yerli nümayəndələr, vətəndaşlar bildirirlər ki, son vaxtlar bölgələrdə elektrik enerjisi ilə təchizat daha da yaxşılaşdı. Elə etməliyik ki, bölgələrdə elektrik enerjisi ilə təchizat Bakıdakı kimi olsun. Ona görə, kifayət qədər generasiya güclərimiz yaradılıb. İndi əsas məsələ ondan ibarətdir ki, biz insanlara bu elektrik enerjisini fasiləsiz çatdıra bilək.

Keçən il 300 subartezian quyusu qazılmışdır. Bu da çox önəmli infrastruktur layihəsidir. Eyni zamanda, keçən il 60-a yaxın kənddə, bu günə qədər isə 384 kənddə sutəmizləyici qurğular quraşdırılmışdır. Çaylar boyu yerləşən bu kəndlərdə insanlar təmiz içməli sudan qıtlıq çəkirdilər. Ümumiyyətlə, son illər ərzində 625 min nəfər bu yolla təmiz içməli su ilə təmin edilib.

Sənaye istehsalı istiqamətində çox ciddi iş aparılmalıdır. Texnoparklar, sənaye klasterləri yaradılmalıdır. Bütün regionlarda sənaye zonaları yaradılmalıdır. Bu məsələ ilə bağlı mən əvvəlki müşavirələrdə də öz fikirlərimi bildirmişdim. İstəyirəm bu istiqamətdə işlər daha da sürətlə getsin ki, biz artıq nəticələri görək. Çünki artıq neçə vaxtdır ki, biz bu barədə danışırıq, işlər gedir, amma hələ nəticələr yoxdur. Burada mərkəzi icra orqanları, bu sahəyə cavabdehlik daşıyan orqanlar və xüsusilə, yerli icra orqanları da fəal işləməlidirlər. Onlar bunu təşkil etməlidirlər, yerlər ayırmalıdırlar, şərait yaratmalıdırlar. Onların işi bundan ibarətdir. Ona görə, hesab edirəm ki, bizim yerli icra orqanları daha da səmərəli işləməlidirlər, təşəbbüs göstərməlidirlər. Ancaq oturub mərkəzdən göstəriş gözləməməlidirlər. Bu, onların gündəlik işidir. Hər bir rayonun iqtisadi və sənaye potensialı güclənməlidir. Buna imkanlar var. Ancaq bizim əksər rayonlarımız dotasiya ilə yaşayır. Əvvəlki illərdə biz buna, necə deyərlər, göz yuma bilərdik. Böyük gəlirlərimiz var idi və bu dotasiyaları biz verirdik. Ancaq nə üçün bizim rayonlarımız dotasiya ilə işləməlidirlər? Bizim rayonlarımızın orta hesabla əhalisi o qədər də böyük deyil. Onlar özləri iqtisadi cəhətdən daha sə-

mərəli işləsələr bütün xərclərini bağlaya bilərlər. Amma gözləyirlər ki, bunlara nə qədər vəsait ayrılacaq. Onsuz da vəsait ayrılır. Bax, dövlət hesabına yollar, qaz xətləri, su xətləri çəkilir, hətta sayğaclar da qoyulur. Hansı ölkədə dövlət hesabına sayğaclar qoyulur?

Bütün infrastruktur layihələri icra edilir, böyük sərmayə qoyulur, turizm infrastrukturu yaradılır. Kim bunu yaradır? Dövlət və özəl şirkətlər. Amma yerlərdə onlar daha fəal işləməlidirlər. Onların qarşısında vəzifə qoyuram ki, hər rübdə bir dəfə görülən işlərlə, açılan yeni iş yerləri ilə, açılan müəssisələrlə bağlı məlumat versinlər. Yəni, onlar da nəticə çıxarsınlar. Dövlət onsuz da öz siyasətini aparacaq və lazımi sərmayəni qoyacaq. Ancaq mən əminəm ki, bizim bütün rayonlarımız daha səmərəli işləyə bilərlər və daha da yaxşı nəticələr olacaqdır.

Rayonlarda sənaye zonalarının yaradılması ilə bağlı mən artıq bir neçə dəfədir ki, məsələ qaldırıram. Ancaq indi bir pilot layihəsi icra edilir, Neftçala rayonunda. Başqa rayonlarda niyə bunlar icra edilmir? Çünki biganəlik göstərirlər, buna yol vermək olmaz. Ona görə, hər bir icra başçısının vəzifəsi bundan ibarətdir. Kim bu vəzifənin öhdəsindən gələ bilmirsə işdən kənarlaşdırılacaq.

Bu il biz struktur islahatları aparmalıyıq. Buna ehtiyac var. Ümumiyyətlə, daha da çevik, operativ idarəetmə mexanizmi işlənməlidir. Bəzi hallarda bəzi qurumlar bir-birinin fəaliyyətini təkrarlayırlar. Buna yol vermək olmaz.

Struktur islahatları mütləq aparılmalıdır. Bəzi hallarda süni şəkildə iş yerləri yaradılır. Misal üçün, insanlar işləmirlər, amma onlara maaş yazılır. Sonra o maaş onun-bunun cibinə gedir. Bu hallara son qoyulmalıdır. Ona görə, çox ciddi maliyyə nəzarəti, ictimai nəzarət, dövlət nəzarəti olmalıdır. Buna son qoyulmalıdır. Lazım olmayan qurumlar ləğv edilməlidir və bu istiqamətdə yaxın gələcəkdə addımlar atılacaqdır.

İnformasiya-kommunikasiya sektorunun inkişafı istiqamətində daha da ciddi addımlar atılmalıdır. Bu sektorun çox böyük potensialı var. Bu sahədə inkişaf müşahidə olunur. Ancaq bu sektorda da tam şəffaflıq təmin edilməlidir və dövlət bu sektorun inkişafından gələn xeyrini görməlidir. Çünki bu günə qədər ancaq dövlət investisiyaları qoyulur, kreditlər verilir, informasiya-kommunikasiya istiqamətində layihələr icra edilir. İki peykimiz var. Yəni, dövlət artıq bunun faydasını, gəlirini görməlidir. Amma əfsuslar olsun ki, bəzi hallarda gəlir başqa ciblərə gedir, dövlət xeyir götürmür, burada da tam şəffaflıq təmin edilməlidir. Arada gəzən şirkətlər burada əsassız qaydada böyük məbləğdə pul qazanırlar, onların fəaliyyəti dayandırılmalıdır. Yəni, bütün gəlirlər dövlətə, büdcəyə gəlməlidir və bunun hesabına informasiya-kommunikasiya texnologiyaları sektoru bundan sonra da inkişaf edəcək. Dövlət artıq bu sahəyə kifayət qədər, artıqlaması ilə vəsait ayırıb. Yoxlamalar göstərir ki, bu vəsaitdən vicdansızlıqla istifadə olunub. Burada israfçılıqdan söhbət getmir, burada böyük cinayətdən söhbət gedir. İndi prokurorluq ciddi məşğuldur. Bir malın qiyməti bir neçə dəfə şişirdilir – 3 dəfə, 4 dəfə. Bu, cinayətdir, vicdansızlıqdır, dövlətə xəyanətdir və bu əməlləri törədən insanlar indi məsuliyyətə cəlb olunurlar və bu, hamıya dərs olmalıdır, bütün qurumlara da dərs olmalıdır. Ona görə, əminəm ki, çox ciddi nəzarət belə halların təkrarlanmaması üçün yaxşı imkanlar yaradacaq.

İnformasiya-kommunikasiya texnologiyaları sektoru inkişaf etməlidir, xarici şirkətlər də buna maraq göstərirlər. İndi Azərbaycanda kompyuter istehsalı başlanır. Bu da çox müsbət haldır və bizim intellektual potensialımızı göstərir. Eyni zamanda, onu göstərir ki, xarici firmalar buna maraq göstərirlər. Burada tam şəffaflıq yaradılmalıdır.

Biz turizm sektorunun inkişafı üçün yerli və xarici sərmayəni cəlb etməliyik. Dövlət artıq kifayət qədər böyük işlər görübdür. Biz dövlət hesabına "Şahdağ" kurort zonasını yaratmışıq. Düzdür, sonra özəl qurumlar da orada otellər, mehmanxanalar tikiblər. Ancaq bütün infrastruktur və birinci otel dövlət hesabına tikilib. Nəyə görə? İnsanlara şərait yaratmaq, o bölgəni – şimal bölgəsini inkişaf etdirmək, iş yerləri yaratmaq, xarici turistləri cəlb etmək və gələcəkdə gəlir qazanmaq üçün. Budur məqsəd. Burada həm sosial, həm regional, həm də iqtisadi siyasət birləşir. Ona görə, turizm üçün bütün başqa məqbul zonalarda turizm geniş inkişaf etməlidir. İndi bizim belə zonalarımız var. "Şahdağ" mərkəzi, Qəbələ beynəlxalq turizm zonasına çevrilib. İndi Naftalan beynəlxalq kurort şöhrətini özünə qaytarır. Cənub zonasında, qərb zonasında kifayət qədər gözəl imkanlar var. Sadəcə olaraq yerli şirkətlər və yaxşı olar ki, xarici şirkətlər sərmayə qoysunlar və biz turistlərin axınını təmin etməliyik. Bütün süni əngəllər aradan götürülür. Vizalarla bağlı mövcud olan problemlər aradan götürülür ki, Bakıya, Azərbaycana səyahət etmək istəyən xarici qonaq vaxt itirmədən bilet alıb müvafiq prosedurlardan keçib gələ bilsin, istirahət edə bilsin.

Bu il nəqliyyat dəhlizlərinin daha da səmərəli işləməsi ilə bağlı çox ciddi addımlar atılmalıdır. Keçən ilin sonunda ciddi addımlar atılmışdır. Tranzit

yüklərin Azərbaycan ərazisindən daşınması üçün Koordinasiya Şurası yaradılmışdır. Bu, çox ciddi bir addımdır. Koordinasiya Şurasında nəqliyyatla bağlı olan bütün qurumlar birləşir. Vahid taarif siyasəti aparılır və aparılmalıdır. Eyni zamanda, Gürcüstan və Türkiyə rəhbərliyi ilə bu məsələlər müzakirə edildi. Azərbaycan təklif etdi ki, Azərbaycan, Gürcüstan və Türkiyə bu dəhliz üçün vahid taarif siyasəti aparsınlar. Bütün müvafiq qurumlar bir siyasət aparsınlar ki, bu dəhliz daha da cəlbedici olsun. Çünki əgər biz sadəcə olaraq burada taarif siyasətində güzəştlər etsək, qonşu ölkələr etməsə bunun səmərəsi olmayacaq. Eyni zamanda, potensial yükgöndərənlərlə də çox ciddi danışıqlar aparılmışdır. Mənim keçən ilin sonunda Çinə dövlət səfərim çərçivəsində bu məsələlər geniş şəkildə müzakirə edilmişdir və artıq Çindən Azərbaycana bu dəhliz ilə birinci konteyner qatarı da göndərilmişdir. Əminəm ki, biz gələcəkdə bu dəhlizin daha da böyük həcmdə işləməsinə nail olacağıq. Çünki ən qısa yol Azərbaycan ərazisindən keçən yoldur. İnfrastruktur var, bunu biz yaratmışıq. Həm dəmir yolu, həm dəniz nəqliyyatı, yeni ticarət limanı tikilir, onun bir hissəsi artıq istifadəyə verilib. Eyni zamanda, ictimaiyyət yaxşı bilir ki, Türkiyə-Rusiya münasibətlərinin gərginləşməsi nəticəsində Türkiyənin böyük tır maşınlarının Orta Asiyaya, Qazaxıstana çıxışı çətinləşdi. Azərbaycan dərhal öz imkanlarını ortaya qoydu, güzəştlər edildi və bu gün bu istiqamətdə də dəhliz işləyir. Biz buna daha da hazır olmalıyıq və Xəzər sahilinin şərqində yerləşən infrastruktur da əlbəttə ki, buna daha hazır olmalıdır. Ancaq bu, bizim üçün yeni imkanlar yaradır. Çünki bu gün biz tranzit potensialımızdan istənilən səviyyədə istifadə etmirik. Bu da nəyə görədir? Ona görə ki, nəqliyyat qurumlarının, – Xəzər gəmiçiliyi, dəmir yolu, liman, – hərəsi öz korporativ maraqlarını güdür, ortada isə Azərbaycan maraqları zərər görür. Buna yol vermək olmaz. Burada da tam şəffaflıq olmalıdır. Gəlirlər dövlətə gəlməlidir və biz bu gəlirlər hesabına daha çox investisiya qoyacağıq, daha çox infrastruktur yaradacağıq. Yəni, bir daha demək istəyirəm ki, son vaxtlar sürətli inkişafımız bəzi hallarda bu məsələlərə diqqətimizi azaltmışdır. Çünki biz neftdən gələn gəlirləri çalışırdıq ki, tezliklə lazım olan sahələrə yönəldək. Dövlət bütün yükü öz üzərinə götürmüşdür. Ona görə, bəzi dövlət qurumları, şirkətlər passiv fəaliyyət aparırdılar, təşəbbüs göstərmirdilər. Hər ilin sonunda daha çox sifariş edirdilər ki, mənə filan qədər vəsait ayırın, mən burada yol tikəcəyəm, bunu tikəcəyəm, onu tikəcəyəm. Birincisi, tikinti ilə bağlı. Burada da yeni qaydalar tətbiq edilməlidir. Açıq tenderlər elan olunmalıdır. Tenderlərdə qalib gələn şirkətlər bu və ya digər layihəni icra etməlidir. Çünki bizdə adət olub, dəmir yolu çəkilir, gərək bunu dəmir yolu idarəsi tiksin. Nəyə görə? Orada monopoliya, inhisarçılıq yaranır, qiymətlər şişirdilir. Açıq tender elan olunmalıdır. Mən artıq göstəriş vermişəm. Yerli şirkətlərə üstünlük verilməlidir, xarici şirkətlər iştirak etmək istəyirlərsə onlar da iştirak etsinlər. Kim daha ucuz qiymətə daha keyfiyyətli tikərsə tiksin.

Bizdə su xətlərini “Azərsu” çəkir. Birincisi, o qədər böyük layihələri icra etmək üçün onlarda texniki imkan yoxdur. Burada da müxtəlif şirkətlər cəlb edilməlidir. Belə olan halda biz bunu daha da ucuz qiymətə, daha böyük səmərə ilə şəffaf, açıq şəkildə icra edəcəyik. Həmçinin yolların tikintisi. Bizim bir qurumumuz var ki, yollar tikir. Açıq olmalıdır, bizdə indi kimin imkanı, texnikası, təcrübəsi var, yerli, xarici şirkətlər iştirak etsinlər. Burada şəffaflıq tam təmin olunmalıdır. Xahiş edirəm, hökumət buna çox ciddi nəzarət etsin.

Nəqliyyat dəhlizlərinə gəldikdə, bu il Bakı-Astara dəmir yolunun qalan hissəsi tikilməlidir. Orada qalan hissə 8 kilometrdir. Bu il bu, tikilməlidir. İran ilə artıq danışıqlar aparılıb və bu yolun əhəmiyyəti çox böyükdür. Bu, Azərbaycanı Şimal-Cənub dəhlizinin çox önəmli partnyoruna çevirəcək. Beləliklə, Şərq-Qərb və Şimal-Cənub – bütün yollar Azərbaycandan keçəcək. Bu, bizim siyasi, iqtisadi maraqlarımızı təmin edəcək. Ona görə, bir daha demək istəyirəm, ən azı bu il o qalan 8 kilometr yol tezliklə tikilməlidir və burada bütün müvafiq qurumlarla koordinasiya işləri də aparılmalıdır.

Keçən il şəhər nəqliyyatının tənzimlənməsi üçün lazımi tədbirlər görülüb. Ölkəmizə yeni müasir avtobuslar gətirilib. Yeni marşrutlar açılıb. Yeni idarəetmə qaydaları tətbiq edilir. Şəhər nəqliyyatı vahid bir sistem olmalıdır, inteqrasiya edilmiş sistem. Burada da biz sadəcə olaraq inkişaf etmiş şəhərlərin təcrübəsini tətbiq etməliyik. Metro, avtobus, digər vasitələr vahid sistem şəbəkəsinə qoşulmalıdır. Müvafiq göstərişlər verilmişdir. Yeni qurum yaradılmışdır. Tezliklə bu qurumun işi təşkil edilməlidir ki, şəhər nəqliyyatı Bakıda ən yüksək standartlara cavab versin. İndi bizim texniki vasitələrimiz var, müasir avtobuslar alınıb, yenə də almaq lazımdır. Sistem elə olmalıdır ki, yollar, dayanacaqlar, işıqforlar, metro, avtobus vahid sistem kimi işləməlidir. Bakıdan çəkilən yeni yollar bax bu ümumi siyasətin tərkib hissəsi olmalıdır.

Biz Bakıda son vaxtlar şəhər nəqliyyatının təkmilləşdirilməsi üçün çox böyük işlər görmüşük.

Körpülər salınıb, yollar genişləndirilib, yolötürücüləri tikilib. Çox böyük işlər görülmüşdür. Əgər biz bu işləri görməsəydik indi şəhər tıxac içində boğulardı. Ancaq bundan sonra daha da məqsədyönlü və düşünülmüş işlər aparılmalıdır. Proqram şəklində, yəni pərakəndə qaydada yox. Hansı yollar harada açılmalıdır, harada köçürmələr olmalıdır. Bu il bax bu sahəyə çox ciddi diqqət verilməlidir.

Ekoloji tədbirlər daim aparılır. Keçən il 4 milyondan çox ağac əkilmişdir. Bu siyasət davam etdirilməlidir. Ağacəkmə. Yadımdadır, əvvəllər biz buna kampaniya deyirdik, "Ekologiya ili"ndə biz bu işə fəal başlamışdıq. Ancaq hələ o vaxt mən deyirdim ki, bu, kampaniya olmamalıdır, bu, daimi proses olmalıdır. Bakıda və Abşeron yarımadasında ağacəkmə daimi proses olmalıdır. Çirklənmiş yerlər təmizlənməlidir. Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsi keçən il həyata keçirilmişdir. Çirklənmiş və üfunət iyi verən bu ərazi indi artıq adamın gözünü oxşayır. Təmizlənmiş gölə köçəri quşlar qonur. Burada böyük bulvar salınıb. Böyükşor gölünün təmizlənməsinin ikinci hissəsi də bu il icra edilməlidir. Zığ gölünün təmizlənməsi layihəsi də icra edilməlidir. Dövlət büdcəsində bu məqsədlər üçün vəsait tapmaq lazımdır.

Bu il iki yeni "ASAN xidmət" mərkəzi açılmalıdır – Masallıda və Qəbələdə. Beləliklə, "ASAN xidmət" mərkəzlərinin sayı 11-ə çatacaq. Bundan əlavə, səyyar xidmət göstərilir, on avtobus ölkəmizi dolaşır. "ASAN xidmət" Azərbaycan brendidir. Mən çox şadam ki, bəzi başqa ölkələr də bu təcrübədən istifadə edirlər. Düzdür, bəzi hallarda "ASAN xidmət"in təcrübəsinə istinad edilmir. Ancaq eybi yoxdur, bizim üçün əsas məsələ odur ki, Azərbaycan vətəndaşları bu xidmətdən yararlansınlar. İki il ərzində 7 milyondan çox müraciət olmuşdur. "ASAN xidmət"in, əgər belə demək mümkündürsə, xalq tərəfindən bəyənilmə əmsalı 100 faizə yaxındır. Bu, ictimai xidmətlər, korrupsiyaya qarşı mübarizə sahəsində doğrudan da inqilabdır. Eyni zamanda, könüllülər sinfi yaradılıb. Fəal vətənpərvər gənclər könüllülər kimi fəaliyyət göstərirlər. Yəni, bu təşəbbüsün çox böyük müsbət mənası var. Gələcəkdə "ASAN xidmət"də göstərilən xidmətlərin sayı daha da artmalıdır. Bizdə harada hələ ki şəffaflıq təmin edilmir, bax o sahələr də "ASAN xidmət"də öz həllini tapacaq. Ona görə, hökumət bu məsələ ilə bağlı əlavə təkliflər versin ki, biz hansı xidmətləri "ASAN xidmət"ə əlavə edə bilərik.

Bu il Bakıda mötəbər beynəlxalq tədbir – Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcək. Bu, dünya miqyasında çox böyük beynəlxalq tədbirdir. BMT-nin fəal iştirakı, dəstəyi ilə keçirilən tədbirlərdir. Mən çox şadam ki, növbəti Qlobal Forum Azərbaycanda keçiriləcək. Bu, Azərbaycanda həmin istiqamətdə görülən işlərə BMT tərəfindən verilən böyük qiymətdir. Bilirsiniz ki, Bakıda ənənəvi Humanitar forumlar keçirilir. Mədəniyyətlərarası Dialoq forumları bir neçə dəfə keçirilmişdir. Sivilizasiyalar Alyansının Qlobal Forumunun Bakıda keçirilməsi doğrudan da həm bizə verilən böyük qiymətdir, həm də ki bizim üçün böyük şərəfdir.

Azərbaycan sivilizasiyalararası dialoqun genişlənməsi üçün əlindən gələni edir. Əfsuslar olsun ki, getdikcə bu iş daha da çətinləşir. Mən giriş sözümdə bu məsələyə toxundum, bir daha demək istəmirəm. Biz nə qədər çalışsaq da əfsuslar olsun ki, sivilizasiyalararası dialoqu daha az görürük. Biz daha çox sivilizasiyalararası, dinlərarası anlaşılmazlıq, inamsızlıq, toqquşmalar görürük.

Ancaq biz bu yoldan dönməyəcəyik. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Biz bu sərvəti qoruyuruq. Biz bunu özümüz üçün edirik. Əlbəttə, çox istərdik ki, başqa ölkələr də bizim təcrübəmizdən istifadə etsinlər. Başa düşsünlər ki, dinlərarası münaqişə fəlakətə gətirib çıxarır. Başa düşsünlər ki, müxtəlif dinlərin, millətlərin nümayəndələri bir yerdə yaşaya bilərlər, normal qardaşlıq, dostluq şəraitində yaşaya bilərlər, necə ki, Azərbaycanda yaşayırlar. Əlbəttə, biz bundan sonra da çalışacağıq ki, ölkə daxilində bütün bu məsələlər sağlam zəmində öz həllini tapsın, – necə ki, bu, bu gün belədir, – regionda və dünyada dinlərarası, sivilizasiyalararası dialoq daha da dərinləşsin.

Bu Qlobal Forumun Azərbaycanda keçirilməsini, ümumiyyətlə, bu sahəyə verdiyimiz diqqəti və əldə etdiyimiz nailiyyətləri nəzərə alaraq mən bu ili Azərbaycanda "Multikulturalizm ili" elan edirəm. Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik. Beləliklə, bu il Azərbaycanda "Multikulturalizm ili" elan olunur.

2016-cı ildə biz fəal işləməliyik. Dediyim bütün vəzifələr icra edilməlidir. Vəzifələrin icrası üçün mexanizmlər qısa bir zamanda işlənib mənə təqdim edilməlidir. Müvafiq qərarlar qəbul ediləcək ki, 2016-cı ili də biz uğurla başa vuraq. Sağ olun.

# Prezident İlham Əliyev şəhidlərin əziz xatirəsini yad etmişdir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.**



Qanlı Yanvar hadisələrindən 26 il keçir. 1990-cı il yanvarın 20-də ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi mərkəzi hakimiyyət başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.

20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbçilərinin qorxunc qaragüruhuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr




bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.

Təəssüf ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçıları və iştirakçıları olduqlarından nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əllərindən gələni etdilər. 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı səfirliyinə gedərək xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləyən, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü olan, SSRİ rəhbərliyinin qəzəbinə tuş gələrək təqaüdə göndərilən Heydər Əliyev yenə də bütün məhrumiyyətlərə baxmayaraq o ağır günlərdə xalqının sırasında, onunla birgə, həmrəy oldu.

Heydər Əliyev bəyanatı ilə əslində Azərbaycanda gedən proseslərə qiymət verdi. Ulu Öndər SSRİ rəhbərliyinin Azərbaycana münasibətdə qətiyyən xoşniyyətli davranmadığını diqqətə çatdırmaqla yanaşı, həm də hakimiyyəti onda qınadı ki, Azərbaycana siyasi savadı olmayan, kölə xislətli insanın rəhbər təyin edilməsi xalqla hakimiyyət arasında dərin uçurumun yaranmasına səbəb olmuşdu. Bu uçurumun yaradılması da ilk növbədə mərkəzi hakimiyyətin maraqlarına xidmət edirdi və bununla belə gələcəkdə yaranacaq bütün problemlərin, konkret desək, 20 Yanvar faciəsinin baş verməsinə səbəb olmuşdu.

Bir müddət sonra – 1990-cı il noyabrın 21-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu hadisəyə siyasi-hüquqi qiymət verdi. Bu tarixi sənəddə Azərbaycan xalqına qarşı törədilən siyasi və hərbi qəsdin cavabdehləri və günahkarları açıqlandı. Sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışan Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilən bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və



cinayətkarların müəyyən edilməsi istiqamətində heç bir iş aparmadılar. Yalnız ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra – 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

Azərbaycanın azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı həmişə dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncamlar və fərmanlar verib. Bundan başqa əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Ötən il əlil və şəhid ailələrinə yeni mənzillər verilib ki, onların arasında 20 Yanvar əlilləri və şəhidlərinin ailələri də var. 20 Yanvar faciəsində şəhid olan şəxslərin ailələrinə Prezident təqaüdü verilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

***

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.

Dövlətimizin başçısı “Əbədi məşəl” abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni səsləndi.

***

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

***

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak edirdilər.

# Prezident İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak etmişdir

## Xocalı faciəsi qurbanlarının xatirəsi anılmışdır






İyirmi dörd il əvvəl erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı faciəsi qurbanlarının xatirəsini yad edirlər.




Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva anma mərasimində iştirak etdilər.




Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.

***

1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı soyqırımı bəşər tarixində ən qanlı faciələrdən biridir. Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecədə erməni silahlı dəstələri hələ SSRİ dövründən Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz ədalətli hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl iş aparır. Pre-




zident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Belə ki, bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondu, xüsusilə, Fondun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras, Qvatemala, Panama, Sudan parlamentləri, eləcə də, ABŞ-ın 21 ştatının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan və pisləyən sənədlər qəbul ediblər. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1951-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də, hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

# Z.B.Qaralovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə **Zakir Bəkir oğlu Qaralov** “Şöhrət” ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 yanvar 2016-cı il.

***

# Azərbaycan qadınlarının təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə, 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Tərəqqi” medalı ilə**

Abbasova Validə Məhərrəm qızı
Həmid-zadə Məsrurə Rzabala qızı
Xəlilova Lyudmila Qocayevna
Kuimova Vera Gennadiyevna
Qasımova Üzlüfət Ramazan qızı
Məmmədova Təranə Aslan qızı
Rəhmətullayeva Lalə İbrahim qızı

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

İsmayılova Səadət Teymur qızı
Məmmədova Zöhrə Hüseyn qızı
Şıxsəidova Roza Əli Murad qızı.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 mart 2016-cı il.

***

# Prezident İlham Əliyevin 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbriki

**8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik**

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və uğurlar arzulayıram.

Azərbaycan qadınının cəmiyyətimizdə qazandığı yüksək mövqe və elmdə, təhsildə, mədəniyyətdə fəth etdiyi zirvələr bizim tarixi nailiyyətimiz, əbədi qürur mənbəyimizdir. Onun ictimai nüfuzu dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünü vahid məfkurə ətrafında birləşmiş şəkildə qarşılamağa hazırlaşan Azərbaycanın müasir həyatının diqqətəlayiq gerçəkliyidir. Azərbaycan xanımları ülvi amallar naminə zəngin ictimai fəaliyyətləri boyunca özlərinin daxili aləmlərinin ahəngdarlığını həmişə layiqincə qoruyub

saxlamış, mürəkkəb sosial-siyasi dəyişikliklərin baş verdiyi ən müxtəlif dövrlərdə cəmiyyətimizin əsl mənəvi dayağı olmuşlar.

İnsan qəlbinin gözəlliklərinin tərənnümçüsü kövrək təbiətli qadın şair və musiqiçilərimizin, xeyirxahlıq, insanpərvərlik rəmzi qadın həkim və müəllimlərimizin adları yaxın keçmişimizin hər bir səhifəsini bəzəyir. Milliliklə müasirliyin vəhdətini mənəviyyatının ayrılmaz tərkib hissəsinə çevirən Azərbaycan qadınının zərifliyi, saflığı və sədaqəti söz, sənət abidələrimizdə əhatəli bədii təcəssümünü tapmışdır. Xalqımızın onun cəmiyyət həyatında yaxından iştirakına münasibətinin nəticəsidir ki, Azərbaycanda qadın hərəkatının görkəmli xadimləri öz dərin zəkalarına, tükənməz potensiallarına güvənərək yeni tarixi şəraitdə böyük müvəffəqiyyətlər qazanmışlar.

İnanıram ki, sürətlə qloballaşan dünyada gənc nəslin çoxəsrlik tarixi-mədəni irsimizə ehtiram, vətənpərvərlik və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda yetişdirilməsi üçün siz bundan sonra da əlinizdən gələni əsirgəməyəcək, bütün gücünüzü, istedad və bacarığınızı ölkənin intellektual-mənəvi sərvətlərinin zənginləşdirilməsi yolunda səfərbər edəcəksiniz.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 mart 2016-cı il.

***

# Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki

## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhvali-ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan torpağında çox qədim kökləri olan, uzaq keçmişlərdən xalqımızın mənəvi həyatının ən dərin qatlarına nüfuz edən və zamanın sınaqlarından günümüzədək uğurla çıxan Novruz bayramı ənənəvi dəyərlər sistemimizin təşəkkülündə müstəsna əhəmiyyətə malikdir. Əcdadlarımızın müqəddəs yadigarı kimi bu bayram təbiətin ilahi nizamına ehtiramın aydın ifadəsidir. Zəngin mənəviyyatımız və düşüncə dünyamız, yüksək əxlaqi keyfiyyətlərimiz və həyata nikbin baxışımız Novruz mərasimlərimizdə bütün rəngarəngliyi ilə dolğun təcəssümünü tapmışdır. İctimai-siyasi və ədəbi-mədəni fikir tariximizin görkəmli şəxsiyyətləri milli varlığımızın ayrılmaz parçası saydıqları bu bayrama həmişə xüsusi münasibət bəsləmişlər.

Yaz bayramı tükənməz yeniləşdirici gücü sayəsində ən çətin vaxtlarımızda belə gələcəyə inamımızı zəifləməyə qoymamışdır. O, Azərbaycan xalqının özünüdərk məfkurəsini qorumaqla ötən əsrin sonlarına doğru milli dövlətçilik idealımıza yenidən qovuşmağımızda mühüm rol oynamışdır. Novruzun rəsmi bayram statusu alması və artıq iyirmi beşinci baharını yaşayan Odlar diyarında ümumxalq bayramı səviyyəsində geniş qeyd olunması müstəqilliyimizin nailiyyətlərindəndir. Sivilizasiyaların qovuşuğundakı multikultural mühitli ölkəmizin müxtəlif mədəniyyətlərə mənsub insanlarını daim ünsiyyətə çağıraraq xoş münasibətlər bərqərar etmiş və dostluq, qardaşlıq əlaqələrini daha da gücləndirmiş Novruz bayramında tolerantlığın həqiqi təntənəsi vardır.

Bahar bayramının ali bəşəri duyğuların daşıyıcısı olaraq YUNESKO tərəfindən ümumdünya qeyri-maddi mədəni irsinin inciləri sırasına daxil edilməsi hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurur. Mən azərbaycançılıq məfkurəsi işığında sıx birləşməklə bayramı ölkəmizin hüdudlarından kənarda bizimlə bərabər qarşılayan soydaşlarımıza firavanlıq, əmin-amanlıq və ruh yüksəkliyi arzu edirəm.

Həmrəyliyimizin rəmzi bu bayram qoy hər evə xoş ovqat gətirsin, hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 mart 2016-cı il.

# Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib

**Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə ümumxalq şənliyi keçirilib.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva hər il olduğu kimi, bu il də Novruz şənliyində iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.

Milli geyimli oğlanlar və qızlar Azərbaycan Prezidentinə bayram xonçası təqdim etdilər, dövlətimizin başçısına və xanımına Novruz bayramı münasibətilə təbriklərini çatdırdılar.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.

Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.



**Prezident İlham Əliyevin nitqi**

– Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni uğurlar arzulayıram.

Azərbaycan xalqı öz milli mənəvi dəyərlərinə həmişə sadiq olmuşdur. Bu gün Azərbaycan dövləti milli dəyərlərimizin qorunması üçün ardıcıl siyasət aparır.

Novruz bayramı bizim milli sərvətimizdir. Müstəqil Azərbaycan dövləti də milli mənəvi dəyərlər üzərində qurulmuşdur. Bu il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd edəcəyik. Bu illər ərzində Azərbaycan sürətlə inkişaf edib.

Müstəqilliyimizin ilk illərində ölkəmizdə gedən proseslər bütün Azərbaycan xalqını çox narahat edirdi. Vətəndaş müharibəsi, iqtisadi və siyasi böhran, torpaqlarımızın işğal altına düşməsi nəticəsində Azərbaycanın gələcəyi sual altında idi. Xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət dəyişdi, sabitlik, asayiş bərpa edildi və Azərbaycan inkişaf yoluna qədəm qoydu. O vaxtdan bu günə qədər biz bu inkişaf yolundan dönməmişik.

Son illər sürətli inkişaf dövrüdür. Azərbaycan bütün sahələrdə böyük uğurlara imza atıb və bu gün, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir.

Azərbaycanda təhlükəsizlik yüksək səviyyədə təmin edilir. Bu gün Azərbaycan xalqı yaxşı görür ki, müxtəlif regionlarda, bölgələrdə vəziyyət gərginləşir, yeni münaqişə, müharibə ocaqları yaranır. Keçən il burada, Novruz şənliyində çıxış edərkən, əlbəttə, biz təsəvvür edə bilmirdik ki, bir il ərzində bu qədər dəyişikliklər olacaq. Bu dəyişikliklər müsbətə doğru dəyişikliklər deyil, yeni münaqişə, qarşıdurma ocaqları, yeni müharibələr, miqrant böhranı. Azərbaycan isə sabitlik, təhlükəsizlik məkanıdır. Biz çalışırıq və çalışacağıq ki, ölkəmizi bütün mümkün risklərdən qoruyaq, xalqımızın rahat yaşamasını, təhlükəsiz həyatını təmin edək və ölkəmizi inkişaf yolu ilə irəliyə aparaq.

Bugünkü dünyada bir çox ölkələr üçün təhlükəsizlik məsələləri ön plana çıxır. Azərbaycan bu sahədə nümunəvi ölkədir. Azərbaycan xalqı rahat, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayır. Azərbaycanda kriminogen durum çox yaxşıdır. Bu göstəriciyə görə biz dünya miqyasında liderlər sırasındayıq. Bir sözlə, hər bir ölkənin inkişafı üçün ictimai-siyasi sabitlik, iqtisadi inkişaf, təhlükəsizlik əsas şərtlərdir. Biz qürur hissi ilə deyə bilərik ki, müstəqillik illərində, xüsusilə son illər ərzində Azərbaycanda təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə təmin edilir. Biz heç bir ölkənin daxili işinə qarışmırıq, heç bir avantüraya qoşulmuruq, öz işimizlə məşğuluq, öz ölkəmizi inkişaf etdiririk, xalqımızın rifahını təmin edirik. Əlbəttə, heç vaxt imkan verməmişik və verməyəcəyik ki, kimsə bizim daxili işimizə qarışsın. Çünki Azərbaycan xalqı öz taleyinin sahibidir. Biz ölkəmizin inkişafı, çiçəklənməsi üçün əlimizdən gələni edirik. Bütün Azərbaycan cəmiyyəti vahid ideya, amal uğrunda birləşibdir – ölkəmizi gücləndirək, iqtisadiyyatı inkişaf etdirək, xalqımızın rifah halını daha da yüksəklərə qaldıraq.

Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan bir ölkədir. Bu ilin ilk ayları bunu bir daha göstərir. Bütün beynəlxalq məsələlərlə bağlı bizim prinsipial mövqeyimiz var və bu mövqeyə heç bir kənar qüvvə təsir edə bilməz. Biz ədalətin, beynəlxalq hüququn, əməkdaşlığın tərəfdarıyıq. Biz



heç vaxt imkan verməmişik, vermirik və verməyəcəyik ki, Azərbaycan başqa dövlətlərin maraqlarını təmin etmək üçün qarşıdurma məkanına çevrilsin. Əksinə, Azərbaycan əməkdaşlıq məkanıdır. Biz bölgədə sabitləşdirici, barışdırıcı rol oynayırıq. Bizə olan hörmət getdikcə artır. Çünki bizim sözümüzlə əməlimiz birdir. Biz prinsipial mövqe nümayiş etdiririk. Bəzi ölkələrin bu mövqedən xoşu gəlməyə bilər, ancaq bu, bizim problemimiz deyil. Belə olan halda, əlbəttə ki, təzyiqlər də olacaq, bizi müxtəlif səmtlərə çəkmək üçün səylər göstəriləcək. Amma, eyni zamanda, bizə olan hörmət daha da artacaq. Biz öz siyasətimizlə dünya miqyasında böyük hörmət qazanmışıq və bu hörmət getdikcə artır.

Son iki ay ərzində – yanvarın sonlarından bu günə qədər səkkiz dövlət və hökumət başçısı Azərbaycana səfər etmişdir. Mən son iki ay ərzində bir çox beynəlxalq tədbirlərdə iştirak etmişəm, həmçinin Davos Dünya İqtisadi Forumunda. Bu Forum dünya miqyasında bir nömrəli iqtisadi və siyasi Forumdur. Azərbaycan bu Forumda fəal iştirak edir, öz sözünü deyir. Azərbaycana olan maraq getdikcə artır. Münxen Təhlükəsizlik Konfransı, hesab edirəm ki, dünya miqyasında əhəmiyyət baxımından Davosdan sonra ikinci beynəlxalq tədbirdir. Orada da Azərbaycan hər il iştirak edir, öz sözünü deyir. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçı siyasəti ilə bağlı öz sözünü deyir və bütün arqumentlərlə erməni təbliğatını darmadağın edir.

Bu il mən London konfransında iştirak etmişəm. Bu konfrans da çox önəmli idi. O konfransda iştirak Azərbaycanın önəmini, dünyada oynadığı rolu və əlbəttə ki, bizə olan rəğbəti göstərir.

Mənim Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına, Türkiyəyə rəsmi və işgüzar səfərlərim olub. Yəni, yanvar ayının sonundan bu günə qədər Azərbaycan çox fəal xarici siyasət aparmışdır. Sadaladıqlarım ancaq mənim iştirak etdiyim tədbirlərdir. Bundan başqa digər böyük tədbirlər də keçirilmişdir. Bakıda IV Qlobal Forum keçirilmişdir. Bu Forumda 50-dən çox fəaliyyətdə olan və keçmiş dövlət, hökumət başçısı iştirak etmişdir. Bütün bu amillər onu göstərir ki, Azərbaycan dünya miqyasında çox böyük rol oynayır və bu rol xüsusilə indiki zamanədə daha da artır. Dünya ictimaiyyəti görür ki, bizim bölgədə sabit olan, prinsipial siyasət aparan ölkələrin sayı o qədər də çox deyil.



Beynəlxalq əlaqələr daha da genişlənəcək. İl ərzində bir çox başqa tədbirlər də gözlənilir, xüsusilə gələn ay Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcəkdir. Bu Forumun Bakıda keçirilməsi Azərbaycana olan hörmətin təzahürüdür.

Beynəlxalq məsələlərə gəldikdə, bizim üçün əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, bu istiqamətdə heç bir irəliləyiş yoxdur. Bunun başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi, bu məsələ ilə bilavasitə məşğul olanların biganəliyi və bəzi hallarda təxribatıdır. Mən bunu açıq deməliyəm. Azərbaycan xalqı bunu bilir, bilməlidir. Onsuz da Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə Azərbaycan xalqının o qədər də böyük inamı olmamışdır. Amma yanvar ayında onların törətdikləri əməllər bu inamı tamamilə dağıtmışdır. Bildiyiniz kimi, Avropa Şurası Parlament Assambleyasında iki qətnamə irəli sürülmüşdür. Bu qətnamələr çox dərin təhlil üzərində tərtib edilmişdir. Böyük iş görülmüşdür və bir qətnamə səs çoxluğu ilə qəbul edildi. Orada erməni işğalı pislənildi, erməni millətçilərinin Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklərlə bağlı Avropa deputatları öz səslərini ucaltdılar. Əfsuslar olsun ki, digər qətnamə qəbul edilmədi. Lehimizə cəmi dörd səs çatmamışdır. Bizim bütün təhlillərimiz göstərirdi ki, hər iki qətnamə rahatlıqla keçəcək. Çünki bizdə bununla bağlı kifayət qədər məlumatlar var idi. Avropa Şurası Parlament Assambleyasının deputatları, bir çox ölkələrin Xarici İşlər nazirlikləri bu əminliyi bizdə yaratmışdılar. Ancaq Minsk qrupunun həmsədrlərinin Avropa Şurasının işinə kobudcasına müdaxiləsi bu xoşagəlməz vəziyyətə gətirib çıxarıb. Onlar Avropa Şurasına səfər etmişlər. Orada Avropa Şurasının rəhbərliyinə bu qətnamənin qəbul olunmaması üçün təzyiq göstərmişlər ki, guya bu qətnamə münaqişənin həllinə problem yaradır. Biz bunu təxribat kimi qəbul edirik. Onu da qeyd etməliyəm ki, nəinki Strasburqda, eyni zamanda, bir çox Avropa ölkələrinin Xarici İşlər nazirliklərinə də onlar oxşar siqnalları, mesajları vermişlər ki, bu qətnamə qəbul edilməsin. Bunun nəticəsində, bir daha demək istəyirəm ki, bizə cəmi dörd səs çatmadı. Əlbəttə, bu qətnamə qəbul olunsaydı daha yaxşı olardı. Nəzərə alsaq ki, birinci qətnamə qəbul edilmişdir və orada bizə lazım olan bütün müddəalar öz əksini tapmışdır, ikinci qətnamənin qəbul edilməməsi böyük faciə deyil. Mən bunu sadəcə ona görə deyirəm ki, Azərbaycan xalqı bir daha bilsin, münaqişənin həll olunmaması təkcə Ermənistanın mövqeyi ilə bağlı deyil. Bu məsələ ilə bilavasitə məşğul olmağa mandat alan Minsk qrupunun həmsədrləri pozucu fəaliyyətləri ilə münaqişənin dondurulmasına xidmət



edirlər. Onlar öz səlahiyyətlərini aşaraq beynəlxalq təşkilatların işinə müdaxilə edirlər. Ermənistana təzyiq etmək əvəzinə ermənilərə himayədarlıq edirlər, onları qoruyurlar. Münaqişənin həlli əvəzinə qəribə təkliflər verirlər ki, təmas xəttində təhlükəsizlik tədbirləri möhkəmləndirilsin. Yəni, bu, nə deməkdir? O deməkdir ki, işğalçı dövlət özünü daha rahat hiss etsin və işğalı, status-kvonu daha da möhkəmləndirsin. Biz burada, əlbəttə, həm Azərbaycana qeyri-dost, qeyri-səmimi münasibət, eyni zamanda, riyakarlıq görürük və bunu açıq deyirik, onların üzünə deyirik. Mən burada artıq ictimaiyyətə də bunu deyirəm, bir tərəfdən onların dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Digər tərəfdən, Minsk qrupunun həmsədrlərinin pozucu fəaliyyəti status-kvonun möhkəmlənməsinə xidmət edir. Bax, budur münaqişənin uzadılmasının əsas səbəbi və hesab edirəm ki, bu siyasətin arxasında hansı amillərin dayandığını Azərbaycan xalqı çoxdan bilir. Bu, ədalətsizlikdir. Bu, ikili standartlar siyasətidir. Biz bu siyasəti rədd edirik və bundan sonra bütün kürsülərdə öz sözümüzü deyəcəyik. Ancaq istəyirəm Azərbaycan ictimaiyyəti onu da bilsin ki, bu, reallıqdır, real siyasətdir. Bunu etiraf etmək nə qədər acı olsa da bu, real siyasətdir və biz bu siyasəti qəbul etmirik. Azərbaycan dövlətinin siyasəti beynəlxalq hüquqa, ədalətə, əməkdaşlığa əsaslanır. Ancaq bizə qarşı belə təxribatçı addımların atılması, əlbəttə ki, cavabsız qalmır və qalmayacaqdır.

Münaqişənin həlli üçün ilk növbədə ölkəmiz, ordumuz daha da güclü olmalıdır. Bu istiqamətdə böyük işlər görülür. Bu gün biz təmas xəttində tam üstünlüyü əldə etmişik. Düşmənə sarsıdıcı zərbələr vurulur, qarşı tərəf panikaya qapılır və anlayır ki, xaricdən siyasi, iqtisadi və hərbi dəstək olmasa işğal edilmiş torpaqları bir həftə belə işğal altında saxlaya bilməyəcək. Biz isə güclənirik, güclənməliyik. Bu məsələni Azərbaycan xalqı həll edəcək. Mən buna əminəm.

2016-cı ildə siyasi və iqtisadi islahatlar daha da dərinləşir. Azərbaycan demokratiya yolu ilə gedir. Azərbaycanda bütün azadlıqlar təmin edilir, insan haqları yüksək səviyyədə qorunur. Səmimi deyə bilərəm ki, Azərbaycan demokratik inkişafa görə bu gün bir çox ölkələr üçün nümunə ola bilər.

İqtisadi sahədə aparılan dərin islahatlar əminəm ki, neft amilindən asılılığımızı tamamilə aradan götürəcək. Bu, bizim məqsədimizdir. Biz bu məqsədə doğru gedirik. Keçən ilin sonlarından başlayaraq bu il də davam edən islahatlar siyasəti artıq gözəl nəticələr verir. Qanunvericilikdə dəyişikliklər edilmişdir. Mənim tərəfimdən müvafiq sərəncamlar imzalanmışdır. Azərbaycanın uzunmüddətli, dayanıqlı iqtisadi inkişafının təmin edilməsi üçün konkret addımlar atılır. Əminəm, ilin sonuna qədər davam edən əsas islahatlar, yəni, qəbul ediləcək qərarlar ondan sonra elə şərait yaradacaq ki, Azərbaycan iqtisadiyyatı neft amilindən asılılığını azaldacaq və dediyim kimi, tam aradan götürəcəkdir. Dayanıqlı inkişaf bizim hədəfimizdir. Onu da qeyd etmək istəyirəm ki, biz ancaq öz resurslarımıza əsaslanırıq. Düzdür, bəzi kütləvi informasiya vasitələrində yazılıb ki, Azərbaycan xarici dəstək, xarici maliyyə yardımı



istəyib. Bu, tamamilə yalan və mötəbər mətbu orqanlara yaraşmayan təxribatdır. Biz öz hesabımıza yaşamışıq, yaşayacağıq. İndi bizim nə qədər imkanımız varsa, iqtisadi inkişafı o qədər də təmin edəcəyik. Ancaq qeyd etməliyəm ki, mötəbər beynəlxalq qurumlar, xüsusilə Beynəlxalq Valyuta Fondu bizim siyasətimizi, iqtisadi islahatlarımızı dəstəkləyir və bu siyasətimizə çox yüksək qiymət verir. Onu da qeyd etməliyəm ki, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə dünya miqyasında 40-cı yerə layiq görübdür. Bu da çox böyük göstəricidir. İslahatlar dərinləşəcək, bütün sahələrdə şəffaflıq tam təmin ediləcək. Biz gələcək iqtisadi fəaliyyətimizi, siyasətimizi yeni iqtisadi model üzərində aparacağıq və əminəm ki, yaxın zamanlarda daha da böyük nəticələrə nail olacağıq.

Onu da qeyd etmək istəyirəm ki, dövlət tərəfindən qəbul edilmiş təcili tədbirlər nəticəsində təkcə ilin birinci rübündə, – hələ ki rüb başa çatmayıb, – dövlət sektorunda 30 minə yaxın yeni iş yeri açılmışdır. Bu, mənim göstərişimlə həyata keçirilən tədbirlərdir. Əlbəttə, biz yaxşı başa düşürük, hər bir ölkə çalışmalıdır ki, özəl sektorda iş yerləri açılsın. Bu istiqamətdə də işlər gedir. Biznes qurumlarına müvafiq tövsiyələr verildi. Onlara maliyyə dəstəyi də veriləcək. Xüsusilə bu il icrası nəzərdə tutulan layihələrin həcmi təxminən 1,5-2 milyard manat ətrafındadır. Yəni, bu, on minlərlə yeni iş yerinin yaradılmasına gətirib çıxaracaq. Ancaq təcili tədbirlərin görülməsi də labüd idi. Yenə də deyirəm, dövlət sektorunda, dövlət şirkətləri və dövlət qurumları tərəfindən 30 minə yaxın iş yeri açılmışdır. Bax, budur bizim sosial siyasətimiz. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Baxmayaraq ki, gəlirlərimiz azalıb, neftin qiyməti kəskin şəkildə aşağı düşüb, biz maaşların, pensiyaların artırılması ilə bağlı qərar qəbul etmişik, 10 faiz artıbdır. Hələlik bizim buna imkanımız çatır. Ancaq onu da qeyd etmək istəyirəm ki, əgər ətrafa baxsaq görərik ki, bu da nadir bir haldır, çünki xüsusilə dünya böhranı zamanı maaşlar artırılmır, kəsilir, verilmir. Biz isə sosial siyasətimizi bir daha göstəririk. Göstəririk ki, Azərbaycan inamla inkişaf edəcək. Bu əminlik var. Heç bir böhran, neftin qiymətinin ucuzlaşması bizim siyasətimizə təsir etməyəcək. Bizim kifayət qədər resurslarımız, valyuta ehtiyatlarımız var, iqtisadi göstəricilərimiz çox müsbətdir. Əlbəttə ki, aparılan islahatlar bizi daha da gücləndirəcəkdir.

Biz yeni sahələri işə salırıq ki, o sahələr ölkəmizə böyük siyasi və iqtisadi mənfəət gətirəcək. Nəqliyyat sektorunu xüsusilə qeyd etmək istərdim. Biz indi Şərq-Qərb və Şimal–Cənub dəhlizlərinin yaradılması üzərində işləyirik, ilkin nəticələr var. Apardığımız siyasət, irəli sürdüyümüz təşəbbüslər nəticə verir. Biz Şərq-Qərb nəqliyyat dəhlizinin cəlbediciliyini artırmaq üçün qonşu ölkələr olan Gürcüstan və Türkiyə ilə vahid tarif siyasəti aparmaq barədə təşəbbüs irəli sürmüşük. Bu təşəbbüs müsbət qarşılanıb. Artıq işlər görülür. Keçən ilin sonlarında mənim Gürcüstana, Çinə və bu yaxınlarda Türkiyəyə səfərlərim çərçivəsində həmin məsələlər müzakirə edilmişdir. Biz yeni dəhliz yaradırıq. Asiyadan Avropaya ən qısa yol Azərbaycan ərazisindən keçəcək.

Buna nail olmaq üçün biz lazımi infrastrukturu yaratmışıq və yaradırıq, eyni zamanda, qonşu ölkələrlə vahid tarif siyasəti aparılmalıdır ki, burada xərclər daha da azalsın.

Şimal-Cənub nəqliyyat dəhlizinin bu yaxınlarda icrasının sürətlənməsi yenə də bizim təşəbbüsümüzlə bağlıdır. İndi həm İran, həm Rusiya ilə danışıqlar aparılır və yenə də Azərbaycan burada öz önəmli rolunu oynayır. Əminəm ki, bu dəhlizi də biz yaradacağıq. Beləliklə, bu dəhlizlər yaranandan sonra onilliklər ərzində Azərbaycan böyük siyasi və iqtisadi mənfəət götürəcək. Nəqliyyat sektorunun gəlirləri neftdən fərqli olaraq tükənən sərvət deyil.

Neft-qaz sektoru ilə bağlı bu ilin fevral ayında Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının ikinci toplantısı keçirilmişdir. Çox böyük uğurla keçirilmişdir. Azərbaycan bir daha öz liderlik rolunu göstərmişdir. Məşvərət Şurası toplantısının yekunları ilə bağlı Birgə Bəyannamə imzalanmışdır. Bu Bəyannaməni 11 ölkə – Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, Xorvatiya, Monteneqro, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Avropa Komissiyası imzalamışdır. Yəni, bu Bəyannaməni 12 tərəf imzalayıb. Bəyannamənin əsas mahiyyəti ondan ibarətdir ki, əlaqələndirmə işləri bundan sonra da davam etdiriləcək. Sənəddə Azərbaycanın bu işlərdə aparıcı, strateji, liderlik rolu qeyd edilib. Yəni, bu, artıq bütün beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilir və bilinir, tanınır ki, əgər biz təşəbbüs göstərməsəydik, əgər biz maliyyə vəsaiti ayırmasaydıq, "Cənub" qaz dəhlizi gözəl ideya kimi hələ qalacaqdı, bunu onilliklər bundan sonra da müzakirə edəcəkdik. Biz bu ideyanı reallığa çeviririk. "Cənub Qaz Dəhlizi" bizim üçün çox böyük əhəmiyyətə malik olan bir layihədir və imkan verəcək ki, zəngin qaz resurslarımızı ixrac edək. Əgər bu layihə icra edilməsəydi bu ehtiyatlar dənizin dibində qalacaqdı. Biz onları çıxarırıq, minlərlə, on minlərlə iş yeri yaradılmaqdadır. Azərbaycanın ixrac potensialı güclənəcək. Bizim önəmimiz daha da artacaq. Azərbaycan Avropa üçün əvəzolunmaz ölkəyə çevrilir. Bizim maraqlarımız təmin ediləcək, gücümüz daha da artacaq.

Bildiyiniz kimi, bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilib. Təkcə ona görə yox ki, bu il Azərbaycanda Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcəkdir. Ona görə ki, indiki şəraitdə dünyada gedən toqquşmalar, o cümlədən milli, dini zəmində toqquşmalar bizi çox narahat edir. Biz yol göstəririk, nümunə göstəririk. Göstəririk ki, multikulturalizm yaşayır. Multikulturalizmin iflasa uğradığını deyənlər elə multikulturalizmin məhv edilməsinə çalışanlardır. Onlar bəlkə də başa düşmürlər ki, necə böyük səhv buraxırlar. Biz göstəririk ki, bu, mümkündür. Biz göstəririk ki, belə olmalıdır. Biz göstəririk ki, bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, yaşayacaqlar. Azərbaycan dövləti onları, onların maraqlarını, milli duyğularını, ləyaqətini qoruyur. Onlar bizim qardaşlarımızdır. Bizim gücümüz birliyimizdədir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim sərvətimizdir. Biz bunu qorumalıyıq, qoruyacağıq və bir daha demək istəyirəm ki, dünyaya yol göstəririk. Bir çox məsələlərlə bağlı yol göstəririk – inkişaf, müstəqillik, ləyaqət, prinsipial siyasət, xalqlararası, millətlərarası münasibətlər, din–dövlət münasibətləri, energetika siyasəti, nəqliyyat siyasəti. Budur bugünkü Azərbaycanın reallıqları.

Əminəm ki, biz 2016-cı ili də uğurla başa vuracağıq. Azərbaycanın uğurlu inkişafı təmin ediləcəkdir.

Bir daha sizi və bütün Azərbaycan xalqını gözəl bayram münasibətilə təbrik edirəm. Sağ olun.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parka gəldilər.

Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.

Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bayram konsertinə baxdılar.

Dövlətimizin başçısı və xanımı Kənd Təsərrüfatı Nazirliyinin bayram münasibətilə təşkil etdiyi "Novruz" yarmarkası ilə tanış oldular. Burada bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilir. Yarmarkada ölkəmizin 10 iqtisadi rayonundan 42 şirkət məhsullarını təqdim edir. Son dövrlərdə Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mühüm nailiyyətlər əldə olunub. Bu gün Azərbaycan özünü keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Azərbaycanın ekoloji cəhətdən təmizliyi ilə seçilən kənd təsərrüfatı məhsullarına dünyada da tələbat artır.

Novruz xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bayramdır. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində qoyulan qadağalar digər milli mənəvi dəyərlərimiz kimi, Novruzu da




Azərbaycan xalqının şüurundan silə bilmədi. Hər bir xalqın milli mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasına Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli məsələ də var. Çünki məhz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi, milli bayramımız olan Novruz ötən əsrin 70-80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başladı. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün Prezident İlham Əliyev də mədəni-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlətimizin başçısının hər il xalqa ünvanladığı təbriklər də onun milli mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.

Qeyd edək ki, 2010-cu ildə BMT-nin qərarı ilə martın 20-si Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürü idi. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, mühüm insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.

Prezident İlham Əliyev və Mehriban Əliyeva “Natiq” ritm qrupunun və aşıqların ifalarını dinlədilər, Azərbaycan xalçalarının nümunələri ilə tanış oldular.

Milli Parkda təşkil edilən “Şərq bazarı” bayram şənliyinin iştirakçılarında xüsusi maraq doğururdu. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə baxdılar.

Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu mərasimdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də təqdim edilirdi. Müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin nümunələri də şənlik iştirakçılarında maraq doğurdu.



Prezident və xanımı mayın 5-dən 21-dək Bakıda keçiriləcək 17 yaşadək futbolçular arasında Avropa çempionatının final mərhələsi ilə bağlı yaradılan guşəyə baxdılar. Burada dövlətimizin başçısına və xanımına çempionatın açılış mərasiminin biletləri təqdim olundu.

Qeyd edək ki, çempionatın ölkəmizdə keçirilməsi ilə bağlı qərar 2012-ci ilin martında İstanbulda UEFA İcraiyyə Komitəsinin iclasında qəbul edilib. Çempionatın 16 komandanın qatılacağı final mərhələsinin bütün oyunları Bakıda keçiriləcək. Bu mötəbər yarışların təşkilinə 800 könüllünün cəlb edilməsi nəzərdə tutulub. Könüllülərin fəaliyyət sahələrinə biletlərin yoxlanılması, media, protokol, marketinq, qeydiyyat, qonaqpərvərlik, tibb, nəqliyyat və digər məsələlər daxildir.

İyunun 19-da Bakıda keçiriləcək "Formula-1" üzrə Avropa Qran-prisinin başlanmasına bu gün düz üç ay vaxt qalır. Bununla bağlı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti Novruz bayramı günlərində dənizkənarı bulvarda "Formula-1" əyləncə zonası yaradıb. Simulyasiya oyunlarına, azyaşlı uşaqlar üçün əyləncə məkanına, könüllülərin və marşalların fəaliyyətini işıqlandıran xüsusi guşələrə yer veriləcək bu zonada konsert proqramlarının təşkili də nəzərdə tutulub.

Burada da Prezident İlham Əliyevə və Mehriban Əliyevaya yarışları izləmək üçün biletlər təqdim olundu.

Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.

Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.

# Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilmişdir



Yanvarın 7-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın rəhbər heyətinin iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 30 sentyabr 2015-ci il tarixdə imzalanmış Sərəncamla Azərbaycan Respublikasında qanunçuluğun təmin edilməsində, ağır və xüsusilə ağır cinayətlərin istintaqının aparılmasında və bu cinayətlərin açılmasında, korrupsiyaya qarşı mübarizə aparılmasında, məhkəmədə dövlət ittihamının müdafiə olunmasında xidmətlərinə görə "İgidliyə görə" və "Dövlət qulluğunda fərqlənməyə görə" medalları ilə təltif edilmiş prokurorluq əməkdaşlarına dövlət mükafatlarının təqdim olunması və prokurorluq orqanları tərəfindən 2015-ci ildə "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir.

Prokurorluq əməkdaşlarının bir qrupunun yüksək dövlət mükafatlarına layiq görülməsini Azərbaycan Prokurorluğuna dövlət səviyyəsində göstərilən yüksək inamın ifadəsi olduğunu bildirən Baş prokuror Zakir Qaralov ölkəmizin dövlət təsisatları içərisində xüsusi yeri olan prokurorluq orqanlarının bugünkü statusda mövcudluğuna, fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılmasına, dövlətçilik ideyalarına sadiqlik nümayiş etdirən kadr korpusunun formalaşmasına görə ilk növbədə xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrik dövlətçilik siyasətinə, onun tərəfindən prokurorluğa göstərilən etimada borclu olduğunu diqqətə çatdırmışdır.

Xüsusi vurğulanmışdır ki, demokratik və sivil bir dövlət təsisatı kimi tam yenidən formalaşmasına

görə Heydər Əliyev şəxsiyyətinə borclu olan prokurorluğun kollektivində, hər bir prokurorluq əməkdaşında qürur hissi doğuran bir haldır ki, müstəqil Azərbaycan Respublikasının prokurorluq orqanlarına dövlət səviyyəsində göstərilən etimad və diqqət Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir və prokurorluğa hərtərəfli qayğı göstərilir. Prokurorluğun peşə bayramı ərəfəsində dövlətimizin başçısı tərəfindən prokurorluq orqanlarının bir qrup əməkdaşının yüksək dövlət mükafatlarına və ali xüsusi rütbələrə layiq görülməsi məhz dövlət qayğısının təcəssümü kimi müstəsna əhəmiyyət kəsb edir və prokurorluğun kollektivi üçün böyük məsuliyyət yaradır.

Diqqətə çatdırılmışdır ki, inkişaf tarixinin yeni yüksəliş mərhələsini yaşayan müstəqil Azərbaycanda dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan müasir məzmunlu siyasət tədbirləri nəticəsində ölkə həyatının bütün sahələrində böyük irəliləyişlərə, müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunmuş, hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində görülən işlər yeni müstəviyə qaldırılmışdır.

Bildirilmişdir ki, ölkəmizin dinamik və hərtərəfli sosial-iqtisadi inkişafına istiqamətləndirilmiş dövlətçilik siyasətini qətiyyətlə dəstəkləyən Azərbaycan Prokurorluğu orqanlarının başlıca vəzifəsi, digər hüquq mühafizə orqanları ilə, ilk növbədə Daxili İşlər Nazirliyi əlaqəli şəkildə bu quruculuq işlərinin əsas təminatları olan ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunmasından, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən, dövlət müstəqilliyimizin, demokratik hüquq və azadlıqların etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsindən ibarətdir.

Azərbaycan Prokurorluğunun və hər bir prokurorluq əməkdaşının fəaliyyətinin, ilk növbədə, dövlət müstəqilliyimizin qorunmasına, ictimai-siyasi sabitliyi pozmağa yönəldilmiş cinayətkar qəsdlərin qarşısının alınmasına istiqamətləndiriləcəyinə, Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi dövlətçilik tədbirlərində yaxından iştirak edəcəyinə inam ifadə olunmuşdur.

Müşavirənin gündəliyində duran ikinci məsələ ilə əlaqədar Baş prokuror diqqətə çatdırmışdır ki, 2015-ci ildə prokurorluq orqanlarının fəaliyyəti qanunla müəyyən edilmiş, Azərbaycan Respublikası Prezidentinin göstəriş və tövsiyələrindən irəli gələn vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsinə, prokurorluğun müasir beynəlxalq standartlar səviyyəsində təkmilləşdirilməsi prosesinin daha intensiv şəkildə davam etdirilməsinə, yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunmasına, bütün fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin daha da artırılmasına yönəlmişdir.

Hesabat dövründə prokurorluq orqanları digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək cinayətkarlığa, xüsusən də onun mütəşəkkil təzahürlərinə qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsini təmin etmişdir.

Bildirilmişdir ki, 2015-ci ildə prokurorluq orqanları tərəfindən bir çox ağır, mürəkkəb və çox epizodlu cinayət işlərinin istintaqı tamamlanmış, ibtidai istintaqın keyfiyyətinin yaxşılaşdırılması, qüvvədə olan qanunvericiliyin tələblərinə dəqiq əməl edilməsi üzərində nəzarət gücləndirilmişdir.

Hesabat dövründə qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin açılması, bu cinayətləri törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində müəyyən işlər görülmüşdür.

Prokurorluq və polis orqanlarının həyata keçirdikləri səmərəli istintaq-əməliyyat tədbirləri nəticəsində ötən illərdə baş verməklə bağlı qalmış bir sıra qəsdən adam öldürmə cinayətlərinin, eləcə də 2015-ci ildə qeydə alınmış qəsdən adam öldürmə cinayətlərindən əksəriyyətinin, o cümlədən qeyri-aşkarlıq şəraitdə törədilmiş xüsusilə ağır cinayətlərin "isti izlər"lə açılması təmin olunmuşdur.

Diqqətə çatdırılmışdır ki, 2015-ci ildə ədalətli və şəffaf kadr siyasətinin həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirilməklə, bu sahədə görülən sistemli iş və məqsədyönlü tədbirlər davam etdirilmiş, kadrların demokratik əsaslarla müsabiqə yolu ilə seçilməsi prosesinin ardıcıllığı, fəaliyyətlərində uğurlar əldə etmiş işçilərin həvəsləndirilməsi, peşəkarlıq səviyyəsinə malik şəxslərin vəzifədə irəli çəkilməsi üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkar olunan hər hansı nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması 2015-ci ildə də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində saxlanılmışdır.

Qeyd edilmişdir ki, hesabat dövründə prokurorluq orqanları üzrə xidməti, icra və əmək intizamının pozuntusu hallarına və digər xətalara yol verdiklərinə görə 37 əməkdaş intizam məsuliyyətinə cəlb edilmiş, o cümlədən 7 nəfər prokurorluq orqanlarından xaric edilmişdir. Baş Prokurorluğun rəhbərliyinin göstərişi əsasında 2016-cı il yanvarın 6-da Bakı şəhəri Nəsimi rayonu, Sumqayıt şəhəri və Qubadlı rayon prokurorluqlarında daxili nizam-intizam qaydalarına riayət edilməsi və işə davamiyyət vəziyyəti yoxlanılarkən xidməti və əmək intizamının kobud pozuntusu hallarına yol verdiklərinə görə 2 əməkdaş prokurorluq orqanlarından xaric edilmişdir. Baş Prokurorluğun əlaqədar struktur qurumları və bütün tabe prokurorlardan möhkəm nizam-intizam yaradılması məsələlərində prinsipiallığın daha da artırılması tələb edilmişdir.

Dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılmışdır.

Qeyd edilmişdir ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi təmin edilmişdir. Vətəndaşların müraciət etmək imkanlarının genişləndirilməsi və asanlaşdırılması, buna əvvəlkindən daha az vaxt sərf olunması, daxil olmuş müraciətlərə daha diqqətlə yanaşılaraq qaldırılan məsələlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi, bu sahədə müasir informasiya kommunikasiya texnologiyalarından istifadə edilməsi, vətəndaşların yaşayış yerlərində qəbulunun prosedurları hazırlanaraq təcrübədə səmərəli tətbiqi həyata keçirilmişdir. Eyni zamanda, bu sahədə işin təşkilində müəyyən çatışmazlıqların hələ də mövcudluğu diqqətə çatdırılmaqla, tələb edilmişdir ki, müraciətlərə baxılması və vətəndaşların qəbulu işi gündəlik nəzarətdə saxlanılmaqla, “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında” əmrin qeyd-şərtsiz icrası, həmin fəaliyyət istiqaməti üzrə işin düzgün təşkili, bu sahəyə cavabdeh əməkdaşların məsuliyyətinin artırılması təmin olunsun.

Dövlət başçısının tapşırıq və tövsiyələrinə müvafiq olaraq Baş prokuror tərəfindən respublikanın müxtəlif bölgələrində prokurorluğun rəhbər işçilərinin iştirakı ilə vətəndaşların qəbulu keçirilməklə, qaldırılan məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində hərtərəfli tədbirlər həyata keçirilmişdir.

Əməliyyat müşavirəsində Baş prokurorun birinci müavini Rüstəm Usubov çıxış edərək 2015-cü il ərzində cinayətkarlığa qarşı mübarizənin, istintaq işinin və ibtidai araşdırmaya prosessual rəhbərliyin təşkili, cinayət təqibi çərçivəsində insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr, Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin rəisi Müqəddəs Sultanov 2015-ci ilin iş planının icra vəziyyəti və cari ilin iş planı barədə, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin rəisi Anar Məmmədov prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin yeni qəbul olunmuş “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq surətdə təşkil edilməsi, bu istiqamətdə görülmüş işlər və qarşıda duran vəzifələr haqqında ətraflı məlumat vermişlər.

Əməliyyat müşavirəsində korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin daha da gücləndirilməsi barədə dövlət başçısı cənab İlham Əliyevin verdiyi tapşırıqlara müvafiq olaraq, cari ildə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, əlaqədar struktur qurumlar və tabe prokurorluqlar tərəfindən digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə mütəşəkkil cinayətkarlığın bu təhlükəli təzahürlərinə qarşı daha geniş miqyasda qətiyyətli və sistemli mübarizə aparılması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin həyata keçirilməsi barədə konkret göstərişlər verilmişdir.

Eyni zamanda, 2015-ci il ərzində görülmüş işlərin vəziyyəti ümumiləşdirilməklə nəticələrinin təsdiq edilmiş cədvələ uyğun olaraq, Baş Prokurorluğun idarə və şöbələrində müzakirələrin aparılması, habelə Baş Prokurorluğun geniş kollegiya iclasının keçirilməsinə hazırlıqla əlaqədar müvafiq tapşırıqlar verilmişdir.

Əməliyyat müşavirəsində inam ifadə olunmuşdur ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi 2016-cı ildə də öz səlahiyyət hədləri daxilində Prezident cənab İlham Əliyevin rəhbəliyi altında həyata keçirilən yeni məzmunlu siyasi tədbirlərin reallaşdırılmasında, digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkardlığa qarşı mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və insan hüquq və azadlıqlarının qorunmasında bütün zəruri tədbilərin görülməsini təmin edəcəkdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Baş Prokurorluqda 2015-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir

**Azərbaycanın prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəruri tədbirlər həyata keçirmişdir**




Fevralın 5-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2015-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasında giriş nitqi ilə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, 2015-ci ildə dünyada mövcud olan siyasi, iqtisadi və maliyyə böhranlarına baxmayaraq xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlət siyasəti və səriştəli idarəçiliyi nəticəsində ölkə həyatının bütün sahələrində böyük irəliləyişlərə, müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunmuş, hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində görülən işlər yeni müstəviyə qaldırılmışdır. 2015-ci ildə ölkədə 54,4 milyard manatlıq ümumi daxili məhsul istehsal edilməsi, əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun həcminin artaraq 5703 manata çatması,




84 min daimi olmaqla 100 mindən çox yeni iş yerlərinin yaradılması, əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləğinin 2015-ci il dekabrın 1-nə 7,1 milyard manat təşkil etməsi, 2014-cü illə müqayisədə əhalinin gəlirlərinin nominal ifadədə 5,7 faiz artaraq 41,7 milyard manata çatması xüsusi vurğulanmışdır. Təsadüfi deyil ki, Ümumdünya Davos İqtisadi Forumunun hesabatlarına görə ölkəmizin iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünya ölkələri sırasında 40-cı yerdə qərarlaşmışdır.

Azərbaycan Respublikasının BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməsi, bir müddət öncə ölkəmizin BMT-nin Təhlükəsizlik Şurasının üzvü seçilməsi, Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etməsi, eləcə də 2015-ci ildə ilk Avropa Oyunlarının Bakıda keçirilməsi, paytaxtımızın cari ildə BMT-nin Sivilizasiyalar Alyansının 7-ci qlobal forumuna və 2017-ci ildə daha bir möhtəşəm tədbirə – İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcəyi ölkəmizdə həyata keçirilən xarici siyasətin dünya dövlətləri tərəfindən yüksək dəyərləndirilməsinin bariz nümunəsi və müstəqillik illərində əldə etdiyi ən böyük nailiyyətlərdəndir.

Bildirilmişdir ki, ulu öndər Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac, Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz qaz boru kəmərlərinin istifadəyə verilməsi, dünyanın nəhəng enerji layihələrindən olan “Şahdəniz-2”, TANAP və TAP layihələrinin reallaşdırılması ölkəmizin enerji strategiyasının həyata keçirilməsinə, regionda Azərbaycanın geostrateji mövqeyini daha da gücləndirməkdədir.

2015-ci ilin mühüm əhəmiyyətə malik olan ictimai-siyasi tədbirin – Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərin nəticələrinin xalqla dövlətin vəhdətinin və birliyinin əyani təsdiqi və bariz nümunəsi olmasını diqqətə çatdıran Baş prokuror, demokratik prinsiplərə və beynəlxalq standartlara uyğun olaraq keçirilmiş parlament seçkilərində xalqımızın yekdilliklə ölkədə mövcud əmin amanlığın və həyata keçirilən sosial-iqtisadi siyasətin davamlılığına, hərtərəfli inkişaf dinamikasının sürətlənməsinə, xalqın rifahının və gələcəyinin təmin

olunmasına, insan hüquq və azadlıqlarının sistemli və ardıcıl olaraq qorunmasına səs verdiyini bildirmişdir.

Xüsusi vurğulanmışdır ki, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində məqsədyönlü xarici siyasət tədbirləri davam etdirilməklə yanaşı, Milli Ordunun daha da gücləndirilməsi, müasir ordu quruculuğu məqsədlərinə xidmət edən zəruri infrastrukturların yaradılması istiqamətində böyük işlər görülmüşdür.

Hesabat məruzəsində qeyd edilmişdir ki, 2015-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olmuş, daxili işlər, ədliyyə, məhkəmə və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunmuşdur. Hesabat dövründə prokurorluq orqanlarının bütün səyləri, ilk növbədə Dövlət başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, müasir məzmunlu islahat tədbirlərinin eyni intensivliklə davam etdirilməsinə, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsinə, yeni iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılmasına, möhkəm nizam-intizam yaradılmaqla neqativ təzahürlərin vaxtında aradan qaldırılmasını təmin edən işlək nəzarət mexanizminin yaradılmasına istiqamətləndirilmişdir.

Prokurorluq orqanlarının fəaliyyətinin dövlət səviyyəsində yüksək qiymətləndirildiyi, peşə bayramı ərəfəsində cənab İlham Əliyevin Sərəncamları ilə qanunçuluğun təmin edilməsində, ağır cinayətlərin açılması və istintaqının aparılmasında, məhkəmələrdə dövlət ittihamının müdafiə olunmasında xidmətlərinə görə prokurorluq orqanlarının 25 əməkdaşının “İgidliyə görə” və “Dövlət qulluğunda fərqlənməyə görə” medalları kimi yüksək dövlət mükafatları ilə təltif edilməsi və 4 əməkdaşa ali xüsusi rütbələrin verilməsi diqqətə çatdırılmışdır.

Bildirilmişdir ki, Baş Prokurorluğun Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidmətinin əməliyyat qurumları ilə həyata keçirdiyi birgə səmərəli istintaq-əməliyyat tədbirləri nəticəsində 2015-ci ildə qeydə alınmış 203 qəsdən adam öldürmə cinayətlərindən 194 hadisənin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş və əksəriyyəti xüsusilə ağır cinayətlər olan, iki və daha çox şəxsin ölümü ilə nəticələnmiş 71 hadisənin isti izlərlə açılması təmin olunmuşdur. Həmin cinayətlərin açılması 95,5 % təşkil etmişdir. 2014-cü illə müqayisədə hesabat dövründə qeydə alınmış qəsdən adam öldürmə cinayətlərinin ümumi sayı 16 hadisə və açılmamış bu xarakterli cinayətlərin sayı isə 3 hadisə azalmışdır.

Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin və rayon (şəhər) prokurorluqlarının əməkdaşlarının aidiyyəti hüquq mühafizə orqanlarının əməliyyat qurumları ilə həyata keçirdikləri birgə istintaq-əməliyyat tədbirləri nəticəsində hesabat dövründə ötən illərdə baş verməklə bağlı qalmış bir sıra qəsdən adam öldürmə cinayətlərinin açılması təmin olunmuş, habelə itkin düşmüş şəxslər kimi axtarışda olan bir neçə nəfərin qəsdən öldürülmələri müəyyən edilmişdir.

Azərbaycan Respublikası Hərbi prokurorluğu orqanları tərəfindən Silahlı Qüvvələrdə cinayətkarlığa qarşı mübarizə sahəsində səmərəli tədbirlərin həyata keçirildiyini diqqətə çatdıran Baş prokuror bildirmişdir ki, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində görülən işlər daha səmərəli olmuş, hesabat dövründə qeydə alınmış cinayətlərin 99,6 faizi açılmışdır.

Cinayətkarlığa qarşı mübarizə sahəsində terrorçuluq, müxtəlif xarakterli ekstremizm təzahürlərinə qarşı mübarizə məsələləri də daim diqqət mərkəzində saxlanılmaqla, bu qəbldən olan cinayət işlərinin istintaqı zamanı bütün təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi ilə yanaşı, cinayəti doğuran səbəb və şəraitlərin aşkarlanaraq qabaqlayıcı və profilaktiki tədbirlərin görülməsi təmin edilmişdir.

Belə ki, hesabat dövründə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi tərəfindən bu kateqoriyadan olan, eləcə də qəsdən adam öldürmə cinayətlərinin keyfiyyətli istintaq edilməsi və cinayət törətmiş şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb edilmələri sahəsində ciddi uğurlar əldə edilmişdir.

Hüquqi qeydiyyatı olmayan “Müsəlman Birliyi” adlı qurumun üzvləri T.B. və qeyrilərinin barəsində Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaqı aparılan cinayət işi üzrə Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidiməti ilə birgə həyata keçirilən tədbirlər nəticəsində T.B. və onun mütəşəkkil cinayətkar dəstə halında rəhbərlik etdiyi qanunsuz qurumun paytaxtla yanaşı, bölgələrdə də təşkilatlanması və silahlanaraq cinayətkar fəaliyyətlə məşğul olmaları müəyyən edilmiş, mütəşəkkil dəstənin Bakı şəhəri və ətraf kəndlərdə 57 nəfər, Gəncə şəhəri və digər rayonlarda 11 nəfər fəal silahlı üzvü aşkar olunaraq Cinayət Məcəl-

ləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilmişdir.

Keçirilmiş genişmiqyaslı xüsusi istintaq-əməliyyat tədbirləri nəticəsində həmin mütəşəkkil dəstənin üzvlərindən çoxlu sayda odlu silah, döyüş sursatı, radikal məzmunlu dini ədəbiyyat və sair əşyalar aşkar edilərək maddi sübut kimi götürülmüşdür.

Bundan başqa, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi tərəfindən bir çox ağır, mürəkkəb və çoxepizodlu cinayət işlərinin istintaqı yüksək peşəkarlıqla aparılmış, o cümlədən "Günəşli" neft-qaz platformasında baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı, Binəqədi rayonu ərazisində yaşayış binasındakı yanğınla əlaqədar, habelə Qəbələ rayonu ərazisində özünü radikal dini cərəyanın əmiri elan etmiş Nurəddin Xəlilovun rəhbərliyi ilə 17 nəfərdən ibarət silahlı bandanın çoxsaylı cinayət əməlləri ilə bağlı başlanmış cinayət işləri üzrə intensiv istintaq hərəkətləri həyata keçirilmişdir.

Xüsusi vurğulanmışdır ki, ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin müvafiq strukturlarında sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələr və əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin tələbləri pozulmaqla telefon danışıqlarının dinlənilməsi və yol verilmiş digər qanunsuzluqlarla bağlı 17 oktyabr 2015-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdır. İş üzrə 22 şəxs təqsirləndirilən şəxs qismində cəlb edilmiş, onlardan 20 şəxs barəsində həbs qətimkan tədbiri və 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilməklə istintaqdan yayınan 1 şəxs barəsində həbs qətimkan tədbiri seçilməklə axtarış elan edilmişdir.

Həmin iş üzrə 130 epizod araşdırılmaqla, cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 65 nəfər zərər çəkmiş şəxs qismində tanınmışdır. Hazırda ayrı-ayrı vətəndaşlardan daxil olan yeni müraciətlərdə göstərilən bütün xüsusatların tam, hərtərəfli və obyektiv araşdırılması təmin edilərək, zərərçəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası istiqamətində zəruri tədbirlər görülür.

Xüsusi vurğulanmışdır ki, hesabat dövründə Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq orqanları tərəfindən ardıcıl və kəsərli tədbirlər davam etdirilmişdir. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2015-ci ildə rüşvətlə bağlı, vəzifədən sui-istifadə etmə, vəzifə səlahiyyətlərini aşma və bu xarakterli digər faktlar üzrə 295 şəxs barəsində 200 cinayət işinin istintaqı tamamlanaraq aidiyyəti üzrə baxılması üçün müvafiq məhkəmələrə göndərilməsi, həmçinin Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, tabeçilikdə olan müəssisə və əlaqəli şirkətlərin ayrı-ayrı rəhbər vəzifəli şəxsləri tərəfindən dövlət əmlakının sistemli şəkildə mənimsəmə və israf etmə yolu ilə talanmasında iştirak etmiş korrupsiya şəbəkəsi üzvlərinin qanunsuz əməllərinin ifşa edilməklə barələrində qısa müddətdə qanunamüvafiq tədbirlərin görülməsi müsbət iş göstəriciləri kimi dəyərləndirilmişdir.

Kollegiya iclasında yanvarın 10-da Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin daha da gücləndirilməsi, istehlak məhsullarının qiymətlərinə ciddi şəkildə nəzarət etmək, manatın məzənnəsində baş vermiş dəyişiklikdən istifadə edərək süni qiymət artımı, mal qıtlığının yaradılması, inhisarçılıq, istehlakçıların aldadılması və digər sui-istifadə hallarının qarşısının alınması ilə barədə Dövlət başçısı verdiyi tapşırıqlara müvafiq olaraq, cari ildə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi, əlaqədar struktur qurumlar və tabe prokurorluqlar tərəfindən digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə korrupsiya və rüşvətxorluğa qarşı daha geniş miqyasda qətiyyətli və sistemli mübarizə aparılması, mütəşəkkil cinayətkarlığın bu təhlükəli təzahürlərinin qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin həyata keçirilməsi barədə müvafiq tapşırıqlar verilmişdir.

Həmin tapşırıqlardan irəli gələn vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyi və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən birgə Tədbirlər Planı təsdiq edilməklə yol verilmiş qanunsuz hallara qarşı ən sərt mübarizə tədbirləri davam etdirilir. Həmin dövrdən etibarən süni qiymət artımı ilə əlaqədar Baş İdarə tərəfindən 12 cinayət işi başlanmaqla hazırda istintaq tədbirləri davam etdirilir.

Ölkəmizdə sahibkarların hüquqlarının qorunması, əlverişli biznes mühitinin formalaşması məqsədilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarında və Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının yaradılmasının xüsusi əhəmiyyətini vurğulayan Baş prokuror bildirmişdir ki, dövlət başçısı tərəfindən imzalanmış sənədin qəbul edilməsində məqsəd sahibkarlıq fəaliyyəti göstərən

fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, onların hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən yuxarı orqana təkrar şikayətlərin verilməsinə imkan yaratmaqdır.

Bildirilmişdir ki, həyata keçirilmiş profilaktiki tədbirlər nəticəsində 2014-cü ilə nisbətən hesabat dövründə qeydə alınmış yol-nəqliyyat hadisələrinin sayı 415 fakt, həmin hadisələr nəticəsində ölənlərin sayı 230 fakt və xəsarət alanların sayı 411 fakt, habelə bağlı qalan hadisələrin sayı 14 fakt azalmışdır. Ölümlə nəticələnmiş yol-nəqliyyat hadisələrindən 14-ü, o cümlədən Gəncə və Şirvan şəhərləri, Xətai, Hacıqabul, Samux və İmişli rayonlarının hər birində 1, Baş Dövlət Yol polis idarəsinin yol-patrul xidməti alayının xidmət etdiyi ərazidə 6 və Sabunçu rayonu ərazisində isə qeydə alınmış 2 hadisə bağlı qalmışdır.

Dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılmışdır.

Qeyd edilmişdir ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi təmin edilmişdir. Vətəndaşların müraciət etmək imkanlarının genişləndirilməsi və asanlaşdırılması, buna əvvəlkindən daha az vaxt sərf olunması, daxil olmuş müraciətlərə daha diqqətlə yanaşılaraq qaldırılan məsələlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi, bu sahədə müasir informasiya kommunikasiya texnologiyalarından istifadə edilməsi, vətəndaşların yaşayış yerlərində qəbulunun prosedurları hazırlanaraq təcrübədə səmərəli tətbiqi həyata keçirilmişdir. Eyni zamanda, bu sahədə işin təşkilində müəyyən çatışmazlıqların hələ də mövcudluğu diqqətə çatdırılmaqla, tələb edilmişdir ki, müraciətlərə baxılması və vətəndaşların qəbulu işi gündəlik nəzarətdə saxlanılmaqla, "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" əmrin qeyd-şərtsiz icrası, həmin fəaliyyət istiqaməti üzrə işin düzgün təşkili, bu sahəyə cavabdeh əməkdaşların məsuliyyətinin artırılması təmin olunsun.

Dövlət başçısının tapşırıq və tövsiyələrinə müvafiq olaraq Baş prokuror tərəfindən respublikanın müxtəlif bölgələrində prokurorluğun rəhbər işçilərinin iştirakı ilə vətəndaşların qəbulu keçirilməklə, qaldırılan məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində hərtərəfli tədbirlər həyata keçirilmişdir.

Bildirilmişdir ki, hesabat ilində prokurorluq orqanlarının beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Beynəlxalq Antikorrupsiya Akademiyasının Assambleyasına ölkəmizin nümayəndəsinin sədrliyi ilə əlaqədar həmin qurumla əlaqələr daha da genişlənmişdir. Azərbaycanın Assambleyaya sədrliyi dövründə həyata keçirilmiş uğurlu fəaliyyət nəticəsində 5 ölkə Akademiyaya üzv qəbul olunmaqla üzvlərin sayı 65-ə çatmış, həmçinin qarşılıqlı əməkdaşlığa öz müsbət təsirini göstərəcək "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Türkiyə Respublikası Ali Məhkəməsinin Baş Prokurorluğu arasında Anlaşma Memorandumu" və "Azərbaycan Respublikası Baş Prokurorluğu ilə Rusiya Federasiyasının İstintaq Komitəsi arasında əməkdaşlıq haqqında" Sazişlər imzalanmışdır.

Kollegiya iclasında prokurorluq orqanlarında informasiya kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsinin yüksəldilməsi, "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" İnformasiya proqramlarının tam fəaliyyət göstərməsi, bu sahədə həyata keçirilən işin səmərəliliyinin artırılması barədə konkret tapşırıqlar verilmişdir.

Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkar olunan hər hansı nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması 2015-ci ildə də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində saxlanılmışdır.

Qeyd edilmişdir ki, hesabat dövründə prokurorluq orqanları üzrə xidməti, icra və əmək intizamının pozuntusu hallarına və digər xətalara yol verdiklərinə görə 37 əməkdaş intizam məsuliyyətinə cəlb edilmiş, o cümlədən 7 nəfər prokurorluq orqanlarından xaric edilmişdir. Baş Prokurorluğun əlaqədar struktur qurumları və bütün tabe prokurorlardan möhkəm nizam-intizam yaradılması məsələlərində prinsipiallığın daha da artırılması tələb edilmişdir.

Görülmüş müsbət işlərlə yanaşı qeyd edilməlidir ki, Baş Prokurorluğa hesabat ilində vətəndaşlardan qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd hadisələrinə görə başlanmış işlərin istintaqının qeyri-obyektiv aparılması, cinayətin törədilməsində

iştirak etmiş bütün şəxslərin cinayət məsuliyyətinə cəlb olunmaması və təqsirləndirilən şəxslərin əməllərinin düzgün tövsif olunmaması barədə xeyli sayda şikayətlər daxil olmuşdur. Aparılmış araşdırmalar göstərir ki, cinayət işlərinin istintaqının ilkin mərhələsində zəruri təxirəsalınmaz hərəkətlərin keyfiyyətli yerinə yetirilməməsi, texniki vasitələrdən səmərəli istifadə olunmaması, müstəntiqlər və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən prinsipiallıq göstərilməməsi vətəndaşların bu xarakterli şikayətlər etmələrinə səbəb olmuşdur. Bir sıra hallarda yalnız Baş Prokurorluğun müdaxiləsindən sonra cinayət işlərinin istintaqı zamanı yol verilmiş nöqsanlar aradan qaldırılmaqla, müraciətlərdə göstərilən vəsatətlər təmin edilmişdir.

Bildirilmişdir ki, prokurorluğun fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayətkar hərəkətlər nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilində yol verilən çatışmazlıqların qısa müddətlər ərzində aradan qaldırılması üçün konkret tapşırıqlar verilmişdir. Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə 2015-ci ilin nəticələrinə görə artımı müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə, bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin layiq olduqları məsuliyyətə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılmışdır. 2014-cü illə müqayisədə bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin sayının əhəmiyyətli dərəcədə azalmasına baxmayaraq, Baş Prokurorluğun müvafiq qurumları və əlaqədar tabe prokurorlara tapşırıq verilmişdir ki, hesabat ilinin nəticələrinə görə bağlı qalmış 9 belə cinayətin, o cümlədən Bakı şəhərinin Yasamal və Qaradağ, eləcə də Abşeron, Ağdaş, Ağsu, Ağcabədi, Beyləqan, Quba və Şəmkir rayonlarının hər birində 1 fakt olmaqla açılması istiqamətində zəruri tədbirlərin görülməsi təmin edilsin.

Kollegiya iclasında Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2012-ci il tarixli "Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədar yol-nəqliyyat hadisələrinin təhqiqatında və istintaqında, açılması təmin edilməmiş ölümlə nəticələnən yol-nəqliyyat hadisələri ilə bağlı əməliyyat-axtarış və istintaq hərəkətlərinin həyata keçirilməsində qanunların icrasına nəzarətin gücləndirilməsi, yol-nəqliyyat hadisələri ilə bağlı aparılan təhqiqat, istintaq və ekspertizalar zamanı korrupsiya və digər sui-istifadə hallarına yol verən şəxslərin məsuliyyətə cəlb edilməsinin təmin olunması ilə bağlı zəruri tədbirlərin görülməsinə dair konkret göstərişlər verilmişdir.

Bildirilmişdir ki, ölkəmizdə uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq 2002-ci ildən başlayaraq keçirilən 15 müsabiqə üzrə prokurorluğa qulluğa qəbul edilmiş 656 gənc hüquqşünasın sayının prokurorluğun kadr tərkibinin 58 faizini təşkil etməsi aparılan uğurlu islahatların məntiqi nəticəsidir.

Tədbirdə çıxış edən Baş prokurorun birinci müavini Rüstəm Usubov, Baş prokurorun müavini-Respublika Hərbi prokuroru Xanlar Vəliyev, Baş prokurorun müavini Namiq Əsgərov, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Bakı şəhər prokuroru Əziz Seyidov və digər natiqlərin çıxışlarında 2015-ci il ərzində cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində müvafiq tabe struktur qurumlar tərəfindən görülmüş işlər barədə ətraflı məlumatlar verilməklə, "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş istiqamətlər üzrə fəaliyyətin səmərəliliyinin daha da artırılması, işin müasir məzmunda təkmilləşdirilməsi və mövcud çatışmazlıqların aradan qaldırılmasına yönəldilmiş konkret təkliflər irəli sürülmüşdür.

Kollegiya iclasına yekun vuran Baş prokuror prokurorluq orqanlarının kollektivi adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin etmişdir ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi öz qüvvələrini səfərbərliyə almaqla, bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə birlikdə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi yolunda öz xidmətlərini göstərəcəkdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2015-ci ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir



Yanvarın 29-da Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2015-ci ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev açaraq, geniş məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğu 2015-ci ildə digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin edilməsində fəallıq göstərmişdir. Muxtar Respublika ərazisində 20 cinayət hadisəsinin qeydə alınması aidiyyəti rayon (şəhər) prokurorlarını ciddi düşündürməli, cinayətlərin baş verməddən qarşısının alınması üçün digər hüquq-mühafizə orqanları ilə birlikdə qabaqlayıcı-profilaktiki tədbirləri daha da gücləndirməli, cinayət hadisələrinin baş verməməsi üçün müvafiq tədbirlər görülməlidir.

Peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi qeydə alınmamış, yetkinlik yaşına çatmayanlar və narkomanlar tərəfindən cinayət hadisəsi törədilməmiş, lakin əvvəllər məhkum olunmuşlar və sərxoşlar tərəfindən cinayət hadisələri törədilməsi halları qeydə alınmışdır. Keç-

miş illərdə baş verib qapalı qalmış cinayət hadisələrindən açılanı olmadığından Prokurorluğun İstintaq şöbəsi və tabe rayon (şəhər) prokurorları müvafiq orqanlarla əlaqəli şəkildə cinayətlərin açılması istiqamətində istintaq və əməliyyat-axtarış tədbirlərinin intensivliyinin və kəsərliliyinin artırılması üçün konkret tədbirlər müəyyənləşdirməlidirlər. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 5 fakt qeydə alınmışdır. Muxtar Respublikanın sərhəd bölgəsində yerləşməsini və bu cinayətlərin transmilli xarakter daşımasını nəzərə alaraq narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə işləri daha da gücləndirməlidirlər.

Prokurorluq orqanlarında 7 cinayət işi istintaq olunmuşdur ki, onlardan 4 iş ittiham aktı ilə baxılması üçün məhkəmyə göndərilmiş, 1 işin icraatı dayandırılmış, 2 iş isə növbəti ilə qalıq qalmışdır. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında prokurorluq orqanlarına 38 məlumat daxil olmuşdur ki, 4 məlumat üzrə cinayət işi başlanmış, 27 məlumat üzrə cinayət işi başlanması rədd edilmiş, 6 məlumat istintaq aidiyyatına göndərilmiş, 1 məlumat isə növbəti ilə qalıq qalmışdır. Məlumatların həli zamanı müddət və qanun pozuntularına yol verilməmişdir. Bundan sonra da Baş Prokurorluq üzrə «Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin səmərəliliyinin artırılması, istintaq və təhqiqat üzərində nəzarətinin gücləndirilməsi və bu sahədə işin daha da təkmilləşdirilməsi haqqında» əmrin tələblərinə əməl edilməsi üçün bütün zəruri tədbirləri görməlidirlər.

Qeyd olunmuşdur ki, Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin əməkdaşlarının iştirakı ilə məhkəmələr tərəfindən 17 şəxs barəsində 17 hazırlıq iclası keçirilərək məhkəmə baxışı təyin edilmiş, 17 şəxs barəsində 17 iş üzrə ittiham hökmləri, 1 şəxs barəsində 1 iş üzrə isə bəraət hökmü çıxarılmış, hazırlıq iclası keçirilmiş 2 şəxs barəsində 2 iş növbəti ilə qalıq qalmışdır. Ali Məhkəmənin Cinayət və hərbi kollegiyaları tərəfindən 26 şəxs barəsində 24 cinayət işinin ilkin baxışı keçirilərək məhkəmə baxışına təyin edilərək müvafiq qərarlar qəbul olunmuş, baxılıb nəticə verilmiş 2 şəxs barəsində 2 iş üzrə apellyasiya protestləri verilmiş, lakin protestlər təmin olunmamışdır. Məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat üzrə 19 şəxs barəsində 19 işə baxılaraq nəticə verilmişdir. Dövlət ittihamının müdafiəsi üzrə şöbənin əməkdaşları Baş Prokurorluq üzrə «Cinayət təqibi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun prokurorluq orqanlarında nəzərə alınması haqqında" və "Cinayət mühakimə icraatında ictimai və ictimai-xüsusi ittihamın müdafiəsi üzrə prokurorluğun fəaliyyətinin təşkilinin təkmilləşdirilməsi tədbirləri barədə" əmrlərin tələblərini rəhbər tutmalı, obyektiv və ədalətli məhkəmə qərarlarının çıxarılmasını təmin etməlidirlər.

Daxili işlər orqanlarında 17 cinayət işi istintaq olunmuşdur ki, onlardan 10 iş ittiham aktı ilə məhkəməyə, 5 iş aidiyyətinə göndərilmiş, 1 işin icraatı dayandırılmış, 1 iş isə növbəti ilə qalıq qalmış, müddət pozuntusu ilə cinayət işi istintaq olunmamış, istintaqı tamamlanmış işlərdən məhkəmə və prokurorluq tərəfindən əlavə istintaqa qaytarılanı olmamış, əsassız cinayət işi başlama, təqsirləndirilən şəxs qismində cəlb etmə, tutma hallarına yol verilməmişdir. Törədilmiş və ya hazırlanan cinayətlər barədə 38 məlumat daxil olmuşdur ki, onlardan 12 məlumat üzrə cinayət işi başlanmış, 14 məlumat üzrə cinayət işi başlanması rədd edilmiş, 10 məlumat istintaq aidiyyəti üzrə, 2 məlumat isə ərazi aidiyyəti üzrə göndərilmişdir.

Cinayət törədərək istintaq və məhkəmə orqanlarından qaçıb gizlənmiş 7 şəxs barəsində 7 axtarış işi olmuşdur ki, onlardan 5-i tutularaq istintaq və məhkəmə orqanlarına təhvil verilmiş, 2 şəxsin tutulması təmin olunmadığından 2016-cı ilə qalıq qalmışdır. Xəbərsiz itkin düşmə kimi 1 nəfər axtarışda olmuş və həmin şəxsin tapılması təmin edilmədiyindən axtarış işi qalıq qalmışdır.

Muxtar Respublika üzrə 11 yol nəqliyyat hadisəsi qeydə alınmışdır ki, nəticədə 15 nəfər ölmüş, 2 nəfər xəsarət almışdır. Cinayətkarlığa qarşı mübarizə işinin ümumi mənafeyinə ziyan vuran amil kimi Muxtar Respublika ərazisində qeydə alınmış ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının tam alınmaması həmin hadisələrin profilaktikası istiqamətində tədbirlərin həyata keçirilməsinə ciddi zərurət yaradır.

Qeyd olunmuşdur ki, Ədliyyə, Fövqəladə Hallar və Vergilər nazirliklərində cinayət işi istintaq olunmamış, Dövlət Gömrük Komitəsində 7 cinayət

işi istintaq olunmuşdur ki, onlardan 2 iş ittiham aktı ilə məhkəməyə, 3 iş istintaq aidiyyətinə göndərilmiş, 2 iş isə növbəti ilə qalıq qalmışdır. Dövlət Təhlükəsizlik Xidmətində 2 cinayət işi istintaq olunmuşdur ki, onlardan 1 işin istintaqı tamamlanaraq ittiham aktı ilə məhkəməyə, digər iş isə istintaqın davam etdirilməsi üçün aidiyyəti üzrə Daxili İşlər Nazirliyinə göndərilmişdir.

Prokurorluq orqanlarına vətəndaşlardan 26 müraciət daxil olmuşdur ki, onlardan 8-i prokurorluqda həll edilmiş, 1-i cinayət işinə əlavə edilmiş, 17-i isə digər təşkilatlara göndərilmiş, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun elektron poçt ünvanına 1 müraciət daxil olmuşdır. Prokurorluq orqanlarında 318 nəfər vətəndaş prokurorlar tərəfindən qəbul edilmişdir. Müraciətlərə baxılması şöbəsi tərəfindən “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun və Baş Prokurorluq üzrə “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında” əmrin tələblərinə ciddi əməl edilməsi diqqət mərkəzində saxlanılmalıdır.

Qeyd olunmuşdur ki, hüquqi maarifləndirmə və qanunvericliyin izahı prokurorluq orqanlarında daha da gücləndirilmişdir. Bu məqsədlə rayon (şəhər) prokurorları, polis şöbələri, kənd ərazi icra nümayəndələri və bələdiyyələrlə birlikdə ayrı-ayrı kəndlərdə, əmək kollektivlərində, təhsil müəssisələrində əhali ilə görüşlər keçirilmiş, hüquqi mövzularda mühazirələr oxunmuş, onları maraqlandırın suallara ətraflı və dolğun cavablar verilmişdir. Prokurorluğun fəaliyyətində aşkarlıq və qanunvericiliyin izahı ilə bağlı 877 halda təbliğat işi aparılmış, kütləvi informasiya vasitəlrində 386 dəfə, o cümlədən televiziyada 109, radioda 31, mətbuatda isə 246 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilmiş, Naxçıvan televiziyasında “Qanunçuluq” televiziya proqramı hazırlanmışdır ki, həmin proqramda 30 dəfə müxtəlif hüquqi mövzularda verilişlər efirə getmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun “Azərbaycan Respublikası Baş Prokurorunun “Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında” 27 iyun 2005-ci il tarixli 09/62 saylı əmrinin icrası ilə əlaqədar prokurorluq orqanları tərəfindən görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair» 19.05.2015-ci il tarixli icmal məktubda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunmuşdur.

Prokurorluq işçilərindən 6 nəfər intizam məsuliyyətinə cəlb edilmiş, 2 nəfər Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif olunmuşdur. Bundan başqa Azərbaycan Respublikası Baş Prokurorunun müvafiq əmrləri ilə 5 nəfər, Naxçıvan Muxtar Respublikası Prokurorunun müvafiq əmrləri ilə isə 6 nəfər yuxarı təsnifat vəzifəyə təyin olunmuşdur. Həmçinin prokurorluq işçilərindən 1 nəfəri xidmət illərinə görə, 2 nəfəri isə öz ərizələri əsasında tutduqları vəzifədən azad edilməklə, prokurorluq orqanlarında qulluq keçmələrinə xitam verilmişdir.

Tədris məşğələləri Baş Prokurorluq üzrə “Prokurorluq işçilərinin nəzəri və peşə hazırlığı ilə əlaqədar işin təkmilləşdirilməsi haqqında” əmrin və Naxçıvan Muxtar Respublikası Prokurorunun əmri əsasında keçirilmiş, məşğələlərdə əsasən “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Proqramı”nın prinsiplərinin, “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyasının müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun, həmçinin qanunvericiliyə edilmiş son əlavə və dəyişikliklərin öyrənilməsi təmin edilmişdir.

Sonda əminliklə ifadə olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirləri görəcək, Azərbaycan xalqına, onun dövlətçiliyinə sədaqətlə xidmət edəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## Baş prokuror Xızı şəhərində vətəndaşları qəbul etmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov yanvarın 29-da Xızı rayon prokurorluğunun inzibati binasında Sumqayıt şəhəri, Xızı, Abşeron, Qubadlı və Zəngilan rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Xızı rayon İcra Hakimiyyətinin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 31 vətəndaşın müraciətində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Göstərilənlərlə yanaşı, qeyd edilən rayonların prokurorlarının iştirakı ilə müşavirə keçirilməklə bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilmiş, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımaları onların diqqətinə çatdırılmışdır.

## Baş prokuror Neftçala rayonunda vətəndaşları qəbul etmişdir



Baş prokuror Zakir Qaralov martın 11-də Neftçala rayon prokurorluğunun inzibati binasında Neftçala, Cəlilabad, Biləsuvar və Cəbrayıl rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Neftçala rayon İcra Hakimiyyətinin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 50-ə yaxın vətəndaşın müraciətində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Sonra həmin rayonların prokurorlarının iştirakı ilə müşavirə keçirilmişdir. Müşavirədə bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilmişdir. Habelə vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımaları onların diqqətinə çatdırılmışdır.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Cinayət-Prosessual Məcəllədə yeni prosessual şəxs: ölmüş təqsirləndirilən şəxsin hüquqi varisi

Cinayət hadisəsi törətmiş şəxsin özünün hadisənin gedişində həlak olması, yaxud onun sonradan vəfat etməsi hallarında ibtidai araşdırma orqanları və məhkəmələrin məhz hansı məzmunda prosessual qərarlar qəbul etmələri son illərə qədər mübahisə predmeti olmamışdır. Azərbaycan Respublikasının 2000-ci ilə qədər qüvvədə olmuş Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra CPM), habelə hazırda qüvvədə olan CPM-nin 10.07.2011-ci il tarixə qədərki redaksiyasının normalarına əsasən bu məsələnin sadə və bizim fikrimizcə məntiqi həlli var idi. Hadisə törətmiş təqsirli şəxsin nə vaxt ölməsindən asılı olmayaraq icraatında iş olan orqan tərəfindən icraata xitam verilirdi. Yalnız ölən şəxsin reabilitasiyasının zəruri olması hallarında icraat davam etdirilirdi. Həm də təqsirli şəxsin reabilitasiyası məqsədilə icraatın davam etdirilməsinə təcrübədə o hallarda yol verilirdi ki, cinayət törətməsi ehtimal olunan şəxs haqqında artıq ittiham aktı, yaxud məhkəmə hökmü mövcud olmuş olaydı.

Bir sözlə cinayət hadisəsi törətmiş, lakin hadisənin gedişində, yaxud hadisədən sonra ölmüş şəxslər haqqında heç bir halda ittiham aktı yazılmırdı, onlar məhkəmənin hazırlıq iclasının qərarı ilə məhkəməyə verilmirdilər və təbii ki, mühakimə olunmurdular. Hazırda qüvvədə olan CPM-nin 39.1.5-ci maddəsi hadisə törətmiş şəxsin ölməsi hallarında onun təqsirinin sübuta yetirilib-yetirilməməsindən asılı olmayaraq cinayət təqibini istisna edir. Doğrudur, bəzi hüquqşünaslar hesab edirlər ki, təqsirli şəxs nəinki hadisəni törətdikdən sonra elə hadisəni törədilməsi gedişində  də ölə bildiyindən bu maddənin dəqiqləşdirilməsinə eytiyac vardır. Biz hesab edirik ki, bu maddədə  düzəliş edilmədən də söhbətin nədən getdiyi aydındır.

Əvvəl mövcud olmuş cinayət prosesual normalarda, o cümlədən hazırda qüvvədə olan CPM-nin 41.2-ci maddəsində təqsirləndirilən şəxsin ölməsi hallarında işin icraatına bu əsasla xitam verilməsi üçün yaxın qohumları və müdafiəçisinin razılığı tələb olunmurdu. Lakin "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında "2011-ci il 10 iyun tarixli Qanunu ilə Məcəllədə yeni norma yarandı. 41.2-ci maddəyə belə bir müddəa əlavə olundu ki, təhqiqatçı, müstəntiq və ya prokuror bəraətverici əsaslar olmadıqda ölmüş şəxsin yaxın qohumlarının və müdafiəçisinin razılığı olmadan cinayət təqibinə xitam verilməsi barədə qərar çıxara bilməz.

CPM-nin 41.2-ci maddəsi ilə müəyyən edilən yeni normanın təcrübədə həyata keçirilməsi üçün cinayət-prosesual qanunvericilikdə müfaviq baza olmadığından Milli Məclis özünün 2012-ci il 11 dekabr tarixli Qanunu ilə 41.2-ci maddənin mətnini yeni redaksiyada verdi və həmin maddənin tətbiqini təmin etmək məqsədilə bir sıra maddələrdə dəyişiklik etdi, yaxud Məcəlləyə yeni maddələr əlavə etməli oldu. 11 dekabr 2012-ci il tarixli qanunla Məcəlləyə "ölmüş təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi" adlandırılan cinayət prosesinin yeni iştirakçısı gətirildi.

CPM-ə haqqında söhbət gedən yeni normanın əlavə edilməsi Bakı şəhəri, Nəsimi rayonu ərazisində baş vermiş konkret cinayət hadisəsi ilə bağlı olmuşdu. Belə ki, 2006-cı ilin noyabr ayında həmin rayonun ərazisində yerləşən 9 mərtəbəli binalardan birinin arxa hissəsində İbrahimov soyadlı şəxsin meyiti, üstündə isə darağında 7 ədəd gülləsi olan tapança, habelə istifadə edilməmiş enli skoç aşkar edilmişdi. Binanın damında isə mərhuma aid edilən mismar çıxardan alət və damın beton çıxıntısına bağlanmış və 7-ci mərtəbəyə qədər sallanan toxunma kəndir də müşahidə olunmuşdu.

İbtidai istintaq orqanı araşdırma zamanı belə nəticəyə gəlmişdi ki, mərhum İbrahimov binada yaşayan vətəndaşa məxsus əmlakı quldurluq yolu ilə ələ keçirmək fikrinə düşmüş, niyyətini həyata keçirmək məqsədilə lazımi hazırlıq tədbirləri görərək alət və vasitələr əldə etmişdir. O, binanın damından kəndirlə sallanıb mənzillərdən birinə girməyə cəhd edərkən yıxılıb həlak olmuşdur. Lazımi araşdırmadan sonra AR CM-nin 29.181.2 və 228.1-ci maddəsi ilə başlanmış işin icraatına cinayəti törədən İbrahimovun ölməsi səbəbi ilə CPM-nin 39.1.5-ci maddəsinin tələbinə əsasən xitam verilmişdi.

İşin icraatına **xitam verilməsinin əsası** mərhumun yaxın qohumlarını qane etmədiyindən müdafiəçisinin şikayəti əsasında həmin qərar ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən ləğv edilərək iş bir sıra məsələlərin ətraflı yoxlanılması üçün müstəntiqə qaytarılmışdı. Sonrakı üç il ərzində müstəntiqlərin eyni məzmunlu qərarları 4 dəfə yuxarı prokurorlar və bir dəfə məhkəmə nəzarəti qaydasında rayon məhkəməsi tərəfindən ləğv edilmiş, iş bəzi məsələlərin ətraflı yoxlanılması üçün göndərilmişdi. Məhkumun qohumları onun quldurluğa cəhddə günahlandırılması ilə razılaşmamaqla yanaşı iddia etmişlər ki, guya İbrahimov başqa yerdə öldürülməklə meyidi aşkar edilən yerə atılmışdır.

Axırıncı dəfə cinayət hadisəsinin ibtidai istintaqı Respublika Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə İstintaq idarəsinə həvalə edilmişdir. Bu qurum da hərtərəfli araşdırmalar aparmaqla son nəticədə məzmunca əvvəlki araşdırıcıların qərarları ilə üst-üstə düşən qərar qəbul etmişdi. Yəni yenidən işin icraatına CPM-nin 39.1.5-ci maddəsində göstərilən əsasla xitam verilmişdi. Bu dəfə mərhumun müdafiəçisi ibtidai araşdırma orqanının qərarından Nəsimi rayon məhkəməsinə şikayət verərkən həm də belə bir arqument irəli sürmüşdü ki, hadisə törədən və sağ qalan təqsirləndirilən şəxslərdən fərqli olaraq ölmüş təqsirləndirilən şəxs haqqında bəraətverici əsaslar olmadan işin icraatına xitam verilməsi CPM-nin 41.2-ci maddəsi ilə müəyyən edilən prinsiplərin mahiyyətinə ziddir.

Nəsimi rayon məhkəməsi Konstitusiya Məhkəməsinə etdiyi sorğusunda qeyd etmişdi ki, CPM-nin 41.2-ci maddəsinə görə təqsirləndirilən (şübhəli) şəxsin sağ olması hallarında bəraətverici əsaslar olmadan işin icraatına xitam verilməsinə müdafiə tərəfinin mütləq razılığı tələb olunduğu halda, təqsirləndirilən (şübhəli) şəxsin ölməsi hallarında belə razılıq alınması nəzərdə tutulmaması CPM-nin 39.1.5 və 41.2-ci maddələrinin praktikada tətbiqi zamanı müyyən anlaşılmazlıqlar yaranmasına səbəb olur.

Verilmiş sorğu əsasında Konstitusiya Məhkəməsinin Plenumunda 17 aprel 2011-ci ildə "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 31.1.5 və 41.2-ci maddələrinin şərh edilməsinə dair" məsələyə baxılarkan bu sətirlərin müəllifi də mütəxəssis qismində iclasa dəvət edilmişdi. Çıxışımızda bildirdik ki, CPM-nin 39.1.5-ci maddəsinə münasibətdə 41.2-ci maddə ilə müəyyən edilən normaların tətbiq edilməsində hər hansı problem yoxdur. Cinayət hadisəsi üzrə tam və hərtərəfli araşdırma aparılarsa ibtidai araşdırma orqanının prosessual qanunvericilikdə nəzərdə tutulan hər hansı növ qərar qəbul etməsi ölmüş təqsirləndirilən şəxsin qohumları və müdafiəçisinin iradəsindən (razılığından) asılı edilə bilməz. Yəni təqsirli olması sübuta yetirilən ölmüş təqsirləndirilən (şübhəli) şəxs qohumları və müdafiəçisinin arzusu olduqda belə ittiham edilə və mühakimə oluna bilməz. Ölmüş şəxsin məhkəmə iclasında CPM-nin qaydalarına uyğun surətdə mühakimə edilməsinə dünya məhkəmə təcrübəsində təsadüf edilməmişdir. Belə bir normanın olacağı təqdirdə istintaq-məhkəmə təcrübəsi həlli mümkün olmayan problemlərlə qarşılaşa bilər. Həm də qeyd edildi ki, ölmüş təqsirləndirilən şəxsin yaxın qohumları və müdafiəçisi ibtidai araşdırma orqanının işin icraatına bəraətverici əsaslar olmadan xitam verilməsi barədəki qərarı ilə razı olmadıqda, CPM-də müəyyən edilən normalara uyğun olaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, daha sonra məhkəmə nəzarəti qaydasında məhkəməyə şikayət vermək hüququna malikdir. Belə şikayətlərin həlli üzrə son mərhələ apellyasiya instansiyası məhkəmələridir. Beləliklə, ölmüş təqsirləndirilən (şübhəli) şəxs haqqında ibtidai araşdırma orqanının işin icraatına xitam verilməsi barədəki qərarının qanuniliyi və əsaslılığı üç dəfə səlahiyyətli orqanlar tərəfindən yoxlanılır. Nəzərə almaq lazımdır ki, CPM-nin 450.5-ci maddəsinə əsasən belə şikayətlərə baxılarkan hakim şikayəti təsdiq və ya təkzib edən şəxsləri məhkəmə iclasına çağırmaq və onları dindirmək, şikayətin əsaslığının yoxlanılması üçün zəruri olan sənəd və maddi sübutları tələb etmək hüququna malikdir. Belə vəziyyətdə ölmüş təqsirləndirilən (şübhəli) şəxsin mənafeyinin məhkəmə müdafiəsindən kənarda qalmasından söhbət gedə bilməz. Çünki şikayətə baxılan hər üç mərhələdə ibtidai istintaqın qüsurlu olması aşkar edilən hallarda, şikayət təmin edilməklə iş müvafiq göstərişlə müstəntiqə göndərilə bilər. Belə bir fikir də məhkəməyə çatdırıldı ki, qanunvericilik müəyyən səbəblər üzündən ölmüş zərərçəkmiş şəxsdən fərqli, ölmüş təqsirləndirilən (şübhəli) şəxs üçün haqlı olaraq hüquqi varis anlayışı müəyyən etməmişdir. Çünki fikrimizcə CPM-də belə bir anlayışın olması məntiqi düşüncəyə zidd olardı.

Plenumda əks mövqedən çıxış edənlər də oldu. Onlar fikirlərini bununla əsaslandırdılar ki, işin ic-

raatına bəraətverici əsaslar olmadan xitam verilməsi hallarında sağ olan təqsirləndirilən şəxsin razılığı mütləq tələb olunursa, onun ölməsi hallarında yaxın qohumlarının və müdafiəçisinin razılığı niyə də tələb olunmasın?

Konstitusiya Məhkəməsi nəticə etibarilə müzakirə olunan məsələ barədə aşağıdakı məzmunda qərar qəbul etdi:

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.5-ci maddəsi tətbiq olunarkan ölmüş şəxsin yaxın qohumlarının və müdafiəçisinin həmin Məcəllənin 41.2-ci maddəsinin tələblərinə uyğun qaydada cinayət prosesində iştirak etmək hüququnun müəyyən edilməsi Milli Məclisə tövsiyə edilsin.

2. Cinayət-Prosessual qanunvericiliyə əlavə və dəyişikliklər edilənədək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.5-ci maddəsinə əsasən cinayət təqibinə xitam verilməsi haqqında qərardan ölmüş şəxsin yaxın qohumlarının və müdafiəçisinin şikayət vermə hüququ məhkəmə nəzarəti qaydasında həyata keçirilə bilər.

Beləliklə Konstitusiya Məhkəməsi sorğu verilməsinə səbəb olmuş konkret işin qüvvədə olan prosessual qanunvericiliyin tələblərinə uyğun həll edilməli olması ilə razılaşsa da hesab etdi ki, CPM-nin 39.1.5-ci maddəsinin tətbiqi zamanı ölmüş təqsirləndirilən şəxsin hüquqları tam şəkildə qorunmur. Bu səbəbdən prosessual qanuna müvafiq dəyişikliklər edilməsi barədə Milli Məclisə tövsiyə verildi.

Konstitusiya Məhkəməsinin fikrincə barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş (və ya başlanılması rədd edilmiş) şəxsə aid qərarın mövcudluğu onun (ölmüş şəxsin) nüfuzuna təsir edə bilər və bundan irəli gələn digər ictimai nəticələrin yaranmasına səbəb ola bilər. Belə ki, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmadan prosessual qərarda şəxsin cinayət qanununda nəzərdə tutulmuş əməli törətmiş hesab olunması qaçılmaz olaraq **onun şəxsiyyətinə və nüfuzuna təsir edə bilər.** Bu da öz növbəsində onun hüquqlarının, o cümlədən Konstitusiyanın 46-cı maddəsində təsbit olunmuş öz şərəf və ləyaqətinin müdafiəsini tələb edə bilər.

Bu qərarın qəbul edilməsi ilə əlaqədar 10 iyun 2011-ci il tarixli Qanunla CPM-nin 41.2-ci maddəsindəki təqsirləndirilən (şübhəli) şəxsin sözlərindən sonra **(o cümlədən şəxsin yaxın qohumları və müdafiəçisinin)** sözləri əlavə edildi. Beləliklə qanunvericilik yolu ilə təsbit olundu ki, ölmüş təqsirləndirilən şəxsin yaxın qohumlarının və müdafiəçisinin razılığı olmadan onun haqqındakı cinayət təqibinə xitam verilə bilməz.

10 iyun 2011-ci il tarixli Qanunla CPM-ə əlavə edilən normanın yarımçıqlığı, təcrübədə tətbiqinin yeni, həlli mümkün olmayan problemlər yaradacağını güman etdiyimizə görə bu barədə mətbuatda çıxış etməli olduq. ("Dəyişikliklər qanunların təkmilləşdirilməsinə xidmət etməlidir". Ali Məhkəmənin bülleteni 2013-cü il, №1.) Həmin yazıda başqa məsələlərlə yanaşı bunu da qeyd etmişdik ki, cinayət-prosessual qanunla (CPM-nin 7.0.18-ci maddəsi) müəyyən edilən cinayət prosesinin iştirakçıları sırasına indiyə kimi mövcud olmayan yeni prosessual şəxs də qoşulur. Prosessual qanunda bu şəxsin adı konkret göstərilmədiyi kimi, hüquq və vəzifələri də öz əksini tapmamışdır. Həm də özümüzün belə bir subyektiv fikrimizi də qabartmışdıq ki, əvvəlki normanın saxlanılması proses iştirakçılarından heç kəsin hüquqlarına xələl gətirmirdi.

"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 11 dekabr tarixli Qanunu ilə CPM-ə söhbət açdığımız məsələləri nizama salmalı olan yeni normalar əlavə edildi. Həmin Qanunla CPM-nin 41.2, 43.3, 93.4.13, 119.4, 281.1, 383.1.5, 409.4 və 422.3-cü maddələrə dəyişikliklər edilməsi ilə yanaşı Məcəlləyə 43.3-1, 44.2.-1, 92.3.14, 92.3.15, 106-1, 282.1-1 kimi yeni maddələr də əlavə olundu. Qanuna edilən bu dəyişikliklərlə CPM-nin 41.2-ci maddəsinin 10 iyun 2011-ci il redaksiyasındakı mətni də dəyişikliyə uğradı. Hazırda 41.2-ci maddənin son mətni aşağıdakı kimidir:

Təhqiqatçı, müstəntiq və ya prokuror bəraətverici əsaslar olmadan təqsirləndirilən (şübhəli) şəxsin, habelə ölmüş təqsirləndirilən (şübhəli) şəxsin və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin təqsirləndirilən (şübhəli) şəxs qismində tanınanadək ölmüş şəxsin hüquqi varisinin, hüquqi varisi müəyyən edilmədiyi, o cümlədən bu Məcəllənin 106-1.4-cü maddəsində nəzərdə tutulmuş hallarda müdafiəçinin razılığı olmadan cinayət təqibinə xitam verilməsi barədə qərar çıxara bilməz. Belə halda cinayət təqibi üzrə **icraat bu Məcəllə ilə müəyyən edilmiş qaydada davam etdirilir və hökmün, məhkəmənin digər qərarının çıxarılması ilə başa çatdırılır.**

Həmin Qanunla həmçinin cinayət-prosessual qanunvericiliyə "ölmüş təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi" adlı yeni anlayış gətirildi, bu şəxsin hüquq və vəzifələrindən bəhs edən normalar daxil edildi. Dəyişikliyə uğrayan maddələr, həmçinin Məcəlləyə əlavə edilən digər maddələr əslində 41.2 və 106-1-ci maddələrin təcrübədə tətbiqi məsələlərinə xidmət edir.

CPM-ə 11 dekabr 2012-ci il tarixli Qanunla edilən dəyişikliklərin istintaq-məhkəmə təcrübəsində dolaşıqlığa və anlaşılmazlığa gətirib çıxaracağı ilə bağlı mülahizələrimizi aşağıda əsaslandırmağa çalışacağıq. İndi isə edilən dəyişikliklərin mətnindən doğan anlaşılmazlıqların bir neçəsini qeyd etmək istəyirik.

1. 41.2-ci maddənin son redaksiyasından belə çıxır ki, cinayət hadisəsi törətmiş şəxs yalnız təqsirləndirilən şəxs qismində tanınanadək öldüyü hallarda ona hüquqi varis təyin oluna bilər. Halbuki, cinayət törətmiş şəxsin təqsirləndirilən (şübhəli) şəxs qismində cəlb edildikdən sonra ölməsi halları da istisna olunmur. Belə hallarda, həmçinin cinayət işi məhkəmənin icraatında olarkan təqsirləndirilən (şübhəli) şəxsin ölməsi hallarında yaxın qohumlarından birinin hüquqi varisi ola bilməsi məsələsi açıq qalmışdır.

2. 44-cü maddənin əvvəlki redaksiyasında məhkəmə baxışının nəticəsi olaraq ittiham hökmü çıxarılması zamanı təqsirləndirilən şəxsə cəza təyin edilib-edilməməsi məsələlərindən danışılır. Həmin maddənin bəndlərində (44.1-44.2.4-cü maddələr) məhkəməyə verilən şəxs "təqsirləndirilən şəxs" adlandırıldığı halda, CPM-ə yeni əlavə edilən 44.2.1-1-ci maddədə bu prosessual şəxsin adı iki yerdə "təqsirləndirilən (şübhəli) şəxs" kimi göstərilmişdir. Halbuki, cinayət işinin məhkəmə baxışı mərhələsində məhkəməyə verilən şəxs "şübhəli şəxs" adlandırıla bilməz. O, artıq bütün hallarda təqsirləndirilən şəxsdir. Şübhəli şəxsin anlayışı, hüquq və vəzifələrindən bəhs edən CPM-nin 90-cı maddəsinin mətnindən də bunu görmək olar.

3. CPM-nin 41.2-ci maddəsinə dəyişiklik edilməsi, Məcəlləyə yeni 106-1-ci maddənin əlavə olunması qanuna digər normalar əlavə edilməsi, bəzi maddələrin dəyişdirilməsi ilə nəticələnməli idi və bu qanunda müəyyən dərəcədə öz əksini tapmışdır. Yuxarıda qeyd edildiyi kimi 11 dekabr 2012-ci il tarixli Qanunla CPM-nin səkkiz maddəsi dəyişikliyə uğramış, ona beş yeni maddə əlavə olunmuşdur. Əslində yeni normanın qəbul edilməsi ilə Məcəllənin daha çox maddəsi dəyişikliyə məruz qalmalı idi. (məsələn, 7, 154, 181, 183, 197, 198, 284-288, 291, 292, 299, 300, 358, 407 və sair). Həmin maddələrdə, habelə digər müvafiq maddələrdə dəyişiklik edilməməsi istintaq-məhkəmə təcrübəsində dolaşıqlıq və anlaşılmazlığa gətirib çıxarmalıdır.

İndi də 11 dekabr 2012-ci il tarixli Qanunla CPM-ə edilən dəyişikliklərin nəzəri cəhətdən əsaslandırılması və yeni normaların təcrübədə tətbiqində yaranacaq problemlər barədə:

Qeyd etdiyimiz kimi 11 dekabr 2012-ci il tarixli Qanunla cinayət-prosessual qanunvericilikdə o vaxtadək mövcud olmayan yeni prosessual şəxs – ölmüş təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi meydana çıxdı. Bizimlə razılaşarsınız ki, nə təhsil illərində, nə də hüquqşünaslıq ixtisası üzrə işlədiyimiz uzun illər ərzində bu terminlə ilk dəfədir ki, rastlaşırıq. Həmişə hesb etmişik ki, cinayət-prosessual hüquqda ölmüş təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisinin olması qeyri-mümkündür. Çünki hər bir prosessual qanunda hüquqi varislik institutu nəinki hüquqlar əldə etməklə, həm də vəzifələr daşımaqla bağlıdır.

Hüquqi ədəbiyyatda prosessual hüquq varisliyi qismində ölmüş təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi anlayışı ilə rastlaşmamışıq. Hüquqi varislik termini hüquqi ədəbiyyatda əsasən mülki prosesdə əmlak-hüquq münasibətlərinin, beynəlxalq hüquqda isə yeni dövlətin yaranması, ləğv edilməsi, onların hüquqi vəziyyətinin dəyişdirilməsi zamanı meydana çıxan münasibətlərin nizama salınması ilə əlaqədar işlədilirdi.

Hüquq ensiklopediyası lüğətlərində də qeyd edilir ki, hüquq varisliyi hüququn qanuna, yaxud sazişə əsasən bir şəxsdən başqasına keçməsidir. Hüquq varisliyi zamanı hüquq münasibətlərinin yeni subyekti əvvəlkini əvəz edir, lakin ona keçmiş hüquq və vəzifələr dəyişmir. Mülki hüquqda, ailə hüququnda, əmək hüququnda yalnız əmlak hüquq və vəzifələri vərəsəlik yolu ilə keçir. Prosessual hüquq varisliyi mülki prosesdə iştirak edən maraqlı şəxsin onun maddi hüquq münasibətində hüquq varisi ilə əvəz edilməsidir. Beynəlxalq hüquqda isə dövlətin hüquq varisliyi yeni dövlətin yaranması, dövlətin başqa dövlətin tərkibinə daxil olması, dövlətlərin bölünməsi (ayrılması) zamanı hüquq və vəzifələrin bir dövlətdən başqasına keçməsidir.

Nəzərdən keçirdiyimiz hüquq ensiklopediyalarının heç birində təqsirləndirilən (şübhəli) şəxsin prosessual hüquq varisliyinin başqa şəxsə keçməsinin mümkün

olması barədə mülahizə ilə belə rastlaşmadıq. Hər hansı xarici ölkənin cinayət-prosessual qanunvericiliyində bizim CPM-nin 106-1-ci maddəsinin məzmununa oxşar maddəsi olub-olmaması barədə məlumat əldə edə bilmədik. (RF-nin CPM-də bu məzmunda norma yoxdur). Əlaqə saxladığımız cinayət-prosessual hüquq sahəsində çalışan alimlər və stajlı praktiki işçilər də yeni normanın mahiyyəti, onun istintaq- məhkəmə təcrübəsində müsbət rol oynayacağı barədə fikir söyləyə bilmədilər.

CPM-nin söhbət açdığımız yeni normasının istintaq-məhkəmə təcrübəsində tətbiqi zamanı baş verə biləcək bəzi məqamlara diqqət yetirək. Yuxarıda qeyd olundu ki, CPM-nin 41.2-ci maddəsinin mahiyyətinə görə bəraətverici əsaslar olmadan ölmüş təqsirləndirilən (şübhəli) şəxs haqqında cinayət təqibinə onun hüquqi varisinin, hüquqi varis olmadıqda isə müdafiəçisinin razılığı olmadan xitam verilə bilməz. Bu zaman cinayət təqibi CPM ilə müəyyən edilən qaydada davam etdirilir və məhkəmə hökmünün, yaxud başqa növ qərarın çıxarılması ilə başa çatdırılır. Aydın məsələdir ki, burada hüquqi varis olmağa razılıq vermiş şəxs haqqında deyil, ölmüş təqsirlənsirilən şəxsin özü haqqında istintaq-məhkəmə araşdırmaları aparılmasından söhbət gedir.

Belə çıxır ki, ibtidai araşdırmanın gedişində cinayət hadisəsinin məhz şəxsin təqsirli əməlləri nəticəsində törədilməsi təkzibolunmaz sübutlarla təsdiq edilsə belə, onun hüquqi varisinin, varis olmadıqda isə müdafiəçisinin razılığı olmadan CPM-nin 39.1.5-ci maddəsinə əsasən işin icraatına xitam verilə bilməz. Cinayət prosesini həyata keçirən orqanın hərəkətlərindən və ya qərarlarından məhkəməyə şikayət verilməsi, bu işlərə məhkəmədə baxılması barədə CPM-nin 442, 449-451-ci maddələri ilə müəyyən edilən normaların bu məsələlərə aidiyyəti yoxdur.

Yeni normalara əsasən məhkəmə nəzarətinin həyata keçirilməsi ilə bağlı CPM-nin 52-ci fəslində müəyyən edilən müddəaların belə şikayətlərə baxılması ilə ümumiyyətlə əlaqəsi olması istisna olunur. Bu isə o deməkdir ki, icraata xitam verilməsinə razılıq alınmaması hallarında müstəntiq müfaviq qərarla ölmüş şəxsi təqsirləndirilən şəxs qismində tanımalı, ibtidai istintaq materialları ilə tanış etməli onun haqqında ittiham aktı tərtib etməklə cinayət işini baxılması üçün prokurorun vasitəsilə məhkəməyə göndərməlidir. Daha sonra məhkəmənin hazırlıq iclasının qərarı ilə ölmüş şəxs məhkəməyə verilməli və nəhayət CPM-də müəyyən edilən qaydalarla mühakimə olunmalıdır.

Bizim bildiyimizə görə dünya istintaq-məhkəmə təcrübəsində ölmüş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi, mühakimə edilməsi hallarına təsadüf edilməmişdir. Hətta bəşəriyyətə qarşı ağır cinayətlər törətmiş müharibə canilərinə qarşı da belə prosedurlar həyata keçirilməmişdir.

Görünür bu bir tərəfdən onunla əlaqədardır ki, cinayəti törədən şəxsin taleyin hökmü ilə azadlıqdan məhrum olması hallarında cinayətkar kimi mühakimə edilməsi etika qaydalarından kənara çıxır. Digər tərəfdən məhkəməyə verilən şəxsin özünün ittihama qarşı münasibəti bilinmədən haqqında ittiham hökmü çıxarılması hüququn ümumi normalarına da ziddir. Haqlarında ittiham hökmü çıxarıldıqdan sonra ölmüş şəxslərin reablitasiyası üçün yeni açılmış hallara görə və digər səbəblərərdən məhkəmə prosesləri keçirilməsi halları burada istisnalıq təşkil edir. Çünki belə hallarda cinayət işində məhkum edilmiş şəxslərin ittihama münasibəti barədə məlumat olur.

Kimsə deyə bilər ki, belə proseslər ölmüş təqsirləndirilən şəxsin bəraət ala bilməsi ethimalı ilə həyata keçirilir. Bu arqument də ölmüş şəxs barəsində məhkəmə proseslərinin həyata keçirilməsini zəruri edə bilməz. Çünki konkret iş üzrə məhkəmə baxışı ölmüş təqsirləndirilən şəxsin təqsirinin sübuta yetməsi ilə də nəticələnə bilər. Belə hallarda hansı məzmunda hökm çıxarılması və bu hökmün icrası məsələləri problem yaradır.

Hüquq nəzəriyyəsinə görə ümumi hüquq varisliyində birinci şəxsin nəinki hüquqları, həmçinin vəzifələri də hüquqi varisə keçməlidir. Nəzərə alsaq ki, cinayət prosesində zərərçəkmiş şəxs ikili statusa (zərərçəkmiş və mülki iddiaçı qismində) malikdir, deməli o, CPM-nin 89, 181-183-cü maddələrinə uyğun olaraq ölmüş təqsirləndirilən şəxsin hüquqi varisinə qarşı ona dəyən maddi və mənəvi zərərin ödənilməsi barədə cinayət prosesində mülki iddia vermək hüquqi vardır. Belə iddianın mümkünlüyü CPM-ə əlavə edilən 106-1.7-ci maddənin məzmunu ilə də təsdiq olunur. Həmin maddədə müəyyən edilmişdir ki, ölmüş təqsirləndirilən şəxsin hüquqi varisi mərhumun CPM ilə müəyyən edilən vəzifələrini yerinə yetirir. CPM-nin 181-ci maddəsində cinayət əməli nəticəsində zərərçəkmişə yetirilə bilən zərər növlərinin geniş siyahısı verilmişdir. İttiham hökmün çıxarılacağı təqdirdə əmlak zərəri və mənəvi ziyan hadisəni törətmiş şəxsin hesabına ödənilməlidir.

Çətin ki, ölmüş təqsirləndirilən şəxsin hüquqi varisi ölmüş şəxs haqqında ittiham hökmü çıxarılması hallarında belə məhrumiyyətləri üzərinə götürmüş olsun. Bu məzmunda öhdəlik götürülmədikdə isə ölmüş şəxsin hüquqi varisi institutu öz əhəmiyyətini itirir.

Cinayət hadisəsi törətmiş şəxsin özünün ölməsi əsasən yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma hallarında baş verir. Ölkəmizdə bu növ cinayət hadisələri kifayət qədər geniş yayılmışdır. Şübhəsiz ki, bu yazıda söhbət açdığımız problemlə praktikada daha çox yol-nəqliyyat cinayətləri ilə əlaqədar işlər üzrə rastlaşacağıq.

Məsələn, tutaq ki, hər ikisində sərnişin olan "Mersedes" və "Toyota" markalı avtomaşınların toqquşması nəticəsində hər iki avtomaşının sürücüsü həlak olmuş sərnişinlər yaralanmış, avtomaşınlar əzilməklə istismara yararsız hala düşmüşlər. İbtidai araşdırma zamanı hadisənin məhz "Mersedes" markalı avtomaşının sürücüsünün təqsiri üzündən baş verməsi öz təsdiqini tapmışdır. Buna baxmayaraq, ölmüş təqsirləndirilən şəxsin hüquqi varisi və ya müdafiəçisi işin icraatına CPM-nin 39.1.5-ci maddəsi ilə müəyyən edilən əsaslarla xitam verilməsinə razılıq vermədiklərindən iş ölmüş şəxs barəsindəki ittiham aktı ilə məhkəməyə göndərilir.

CPM-nin 106-cı maddəsinə əsasən zərərçəkmişlərin, onların yaxın qohumlarının, ölmüş zərərçəkmiş şəxsin hüquqi varisinin təqsirli şəxsə qarşı onlara dəyən maddi zərəri və mənəvi ziyanı tələb etmək hüququ olduğundan onlar müfaviq mülki iddialar vermişlər. Məhkəməyə verilən ölmüş təqsirləndirilən şəxs hadisəni törətməkdə təqsirli bilindiyi hallarda şübhəsiz ki, ona cəza verilməməklə ittiham hökmü çıxarılacaqdır. Belə hallarda bəs zərərçəkmişlərə dəymiş maddi və mənəvi ziyan, o cümlədən sıradan çıxmış avtomaşının dəyəri, zərərçəmişlərin müalicəsi, dəfn xərcləri və digər məsrəflər kimin hesabına ödənilməlidir? Şübhəsiz ki, hadisə nəticəsində ölmüş, əmlak zərəri çəkmiş təqsirləndirilən şəxsin əmlakı hesabına zərərçəkmişlərə dəyən ziyanı tutmaq mümkün deyildir. Belə çıxır ki, zərərçəkmişlərə dəymiş maddi və mənəvi ziyan ölmüş təqsirləndirilən şəxsin hüquqi varisindən tutulmalıdır. Bu isə o halda mümkün olardı ki, hüquqi varis təyin edilərkən ona ölmüş şəxs haqqında ittiham hökmü çıxaralacağı təqdirdə zərərçəkmişə dəyən zərəri ödəməli olacağı barədə xəbərdarlıq edilmiş olsun. Qanunda isə (CPM-nin 106-1-ci maddəsi) hüquqi varisə belə xəbərdarlıq edilməli olması barədə göstəriş yoxdur.

CPM-nin 106-1.6-cı maddəsində göstərilir ki, ölmüş təqsirləndirilən şəxsin hüquqi varisi cinayət işi üzrə icraatın hər hansı anında müfaviq səlahiyyətini üzərindən götürə bilər. Deməli, o, məhkəmə iclasının sonunda, yaxud işin apellyasiya baxışı mərhələsində də qanunla üzərinə qoyulan vəzifələrdən, o cümlədən zərərçəkmişə dəyən zərəri ödəməkdən imtina edə bilər. Bu hərəkət ona gətirib çıxarır ki, hüquqi varis qanunla təqsirləndirilən şəxs üçün müəyyən edilən vəzifələri icra etməkdən imtina edir. Bu isə ölmüş təqsirləndirilən şəxsə hüquqi varis təyin edilməsi institutunu gərəksiz edir. Bir sözlə dairə qapanır.

Doğrudur, CPM-nin 87.6.18-ci maddəsinə görə zərərçəkmiş cinayət qanuni ilə nəzərdə tutulmuş əməl nəticəsində ona vurulmuş ziyana görə qanunla müəyyən edilmiş kompesasiyanı dövlət hesabına almaq hüququna malikdir. Lakin "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının 2000-ci il 14 iyul tarixli Qanunu ilə (2-ci maddə) CPM-nin zərərçəkmiş şəxsə kompensasiya verilməsinə dair müddəaları məhkəmə hüquq islahatı başa çatdıqdan və müfaviq qanun qəbul edildikdən sonra qüvvəyə minir. Bu günə qədər müvafiq qanun qəbul edilmədiyindən məhkəmə təcrübəsində cinayət əməli nəticəsində zərərçəkmişə dəyən zərər yalnız məhkumdan qət edilir.

Mülahizələrimizdən belə nəticə çıxarılmamalıdır ki, biz umumiyyətlə ölmüş təqsirləndirilən şəxs haqqında istintaq-məhkəmə araşdırması aparılmasının əleyhinəyik. Təqsirləndirilən şəxsin ibtidai istintaq və məhkəmə icraatının hansı mərhələsində ölməsindən asılı olaraq araşdırmanın məhkəmə qərarının qəbul edilməsinədək davam etdirilməsi mümkün və zəruridir. Bu barədəki mülahizələrimiz yuxarıda adını çəkdiyimiz "Dəyişikliklər qanunların təkmilləşdirilməsinə xidmət etməlidir" adlı yazıda öz əksini tapdığından, onları bir daha təkrarlamaq istəmirik.

CPM-ə 11 dekabr 2012-ci il tarixli Qanunla edilən əlavə və dəyişikliklər isə əvvəlki yazıda gəldiyimiz qənaətlərin məntiqi olduğuna inamımızı bir daha möhkəmləndirdi.

**Müzəffər Ağazadə,**
**Azərbaycan Respublikanın**
**əməkdar hüquqşünası**

# Azərbaycan qadınları Böyük Vətən müharibəsi və quruculuq illərində

«Azərbaycan qadını gözəl, mərd, cəsur, namuslu və qeyrətlidir. İnsan mədəniyyətinin ən mühüm cəhətlərindən biri cəmiyyətdə qadına hörmət etmək və hörmət etməyi, diqqət göstərməyi bacarmaqdır».

**Heydər Əliyev**

Bəli! Azərbaycan qadınını həmişə ruhlandıran, pərvazlandıran, ucaldan ulu öndərimiz Heydər Əliyev kimi dövlət başçısı olmayıb.

Bu bir həqiqətdir ki, cəmiyyəti qadınlar formalaşdırır. Həm də əbəs deyildir ki, gözəl qadınlara və torpağa görə nə qədər müharibələr baş vermişdir. Odur ki, tarixin inkişaf mərhələlərində kişilərlə bərabər qadınlar da bərabərlik hüququnun əldə olunmasına nail olmuşlar.

Makedoniyalı İsgəndərin hökmdarlığı dövrlərində qızlar orduya cəlb olunmuşlar. Hazırda İsrail, Rusiya və Norveç dövlətlərində qadınların orduda xidmət etmələri adi hal olmuşdur.

1941-1945-ci il Böyük Vətən Müharibəsi illərində qadınların ordu sıralarında qulluq etmələri könüllülük xarakteri daşımışdır. Bu sahədə qadın tibb bacılarının döyüş meydanlarında yaralılara təcili yardım etmələri xüsusi əhəmiyyət kəsb etmişdir.

Ümumiyyətlə, yaşadığı tarixi dövrdən, onun sosial-iqtisadi vəziyyətindən, coğrafi məkanından, irqindən, dilindən, dinindən asılı olmayaraq qadın bəşəriyyətin inkişafının bütün mərhələlərində özünəməxsus aparıcı qüvvə olmuşdur. Azərbaycan qadını da çətin, keşməkeşli inkişaf yolu keçmişdir. Tariximizə nəzər salsaq görərik ki, cəmiyyətin inkişafının bütün mərhələlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmişlər. Onların arasında diplomatlar, hökmdarlar, hətta sərkərdələr, döyüşçülər də olub.

Bütün müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb 125 il bundan qabaq 1901-ci ildə Bakıda yaradılmışdır. Bu da ölkəmizdə milli qadın siyasətinə çox güclü təkan verilmişdir. Həmin dövrdə ilk dəfə olaraq müsəlman Şərqində qadına seçmək və seçilmək hüququnun verilməsi tarixi nailiyyət hesab olunurdu. Bununla da nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl ölkəmizdə qadına, cəmiyyətdə siyasi proseslərə qoşulmaq hüququ verilmişdir.

Fərəhləndirici hal odur ki, XX-XXI əsrlərdə ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması məhz ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider qadın hüquqlarının müdafiəsini öz siyasi fəaliyyətinin tərkib hissəsi saymış və qarantı olmuş, milli qadın hərəkatının formalaşması, genişlənərək institutlaşması üçün böyük işlər görmüşdür.

Hazırda Azərbaycanda çox mühüm dəyişikliklər, gözəçarpan yüksəliş baş verir.

Ölkə rəhbərliyinin uğurlu dövlət idarəçiliyi, bölgələrin inkişafına yönəldilən sosial-iqtisadi proqramlar, dünya iqtisadi sisteminə sürətli inteqrasiya, düşünülmüş və balanslaşdırılmış xarici siyasət Azərbaycanın regionda lider dövlətə çevrilməsini şərtləndirir. Ölkəmizin iqtisadi və siyasi inkişafı Azərbaycan qadınlarının özünü reallaşdırması, eləcə də ictimai həyatın bütün sahələrində aktiv iştirakı üçün imkanlar yaradır. Sosial həyatın elə bir sahəsi yoxdur ki, orada qadınlar təmsil olunmasınlar. Onlar ən çətin və mürəkkəb istiqamətlərdə də uğur qazanmağı bacarırlar.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, xalqımızın qəhrəman qızı Mehriban xanım Əliyeva bütün dünyaya sübut etmişdir ki, Azərbaycan qadını həm gözəl ana, həm də fəal ictimai xadim ola bilər.

Bu isə Azərbaycan Hökuməti və Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən aparılan

güclü dövlət qadın siyasətinin məntiqi nəticəsidir.

Hər bir xalqın tarixində silinməz iz qoymuş görkəmli qadınları vardır. Əsrlər, qərinələr keçir, lakin bu qadınların xidmətləri nəinki unudulmur, hətta gələcək nəsillər üçün örnək olur. Azərbaycan xalqının da tarixində görkəmli qadın şəxsiyyətlər az olmamışdır.

Qədim yazılı abidəmiz olan “Kitabi-Dədə Qorqud”da Burla xatun, Banu Çiçək, Selcan xatun kimi kişilərlə qoşa yay çəkən, qurşaq tutub güləşən, cıdırda öndə gedən qəhrəman qadınlarımız haqqında məlumat verilib.

Massaget hökmdarı Tomris İran şahı Kirin Azərbaycana hücumunun qarşısını almış, böyük hünər, ağıl və mətanət göstərmişdi. Massagetlərin hökmdarı öləndən sonra, tayfanın başına onun dul qadını Tomris keçir. Tomrisin igidliyi yarımhəqiqət və bəzən də əfsanələşdirilmiş şəkildə yazılmaqda və deyilməkdədir.

Nizami Gəncəvinin “İsgəndərnamə” əsərində qeyd olunur ki, Bərdə hökmdarı Nüşabə böyük fateh makedoniyalı İsgəndərlə görüşüb, öz müdrikliyi və dərin ağlı ilə onu sülhə çağırıb, dünya malı üçün qan tökməkdən çəkindirib.

Azərbaycan tarixində tanınmış və tarixdə iz qoyan şəxsiyyətlərdən biri də, Ağqoyunlu hökmdarı Uzun Həsənin anası, bütün Şərqdə dövrünün yeganə istedadlı diplomat qadını kimi tanınan Sara Xatun böyük ağıl və mətanət, müdriklik və cəsarət sahibi idi.

XIII əsrin əvvəllərində Xarəzmşah Cəlaləddinin Azərbaycana təcavüzü zamanı Atabəylər dövlətinin sonuncu hökmdarı Müzəffərəddin Özbək Əlincə qalasına qaçıb. Onun Təbrizdə qalan arvadı Mehrican xatun 1225-ci ildə təbrizli Şəmsəddinlə birlikdə Təbriz, Xoy, Naxçıvanın işğaldan azad olunmasında igidliklə vuruşub, böyük hünər göstərib.

Atabəy Şəmsəddin Eldəgizin xanımı, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın anası Möminə xatun ərinin və oğlanlarının hakimiyyətləri dövründə böyük siyasi nüfuza malik olub.

Türk dünyasının əfsanəvi igidi Koroğlunun Nigarı onun həm xanımı, həm silahdaşı olub.

1776-cı ildə Dərbənd şəhərini idarə etmək Quba xanı Fətəli xanın arvadı Tuti Bikəyə tapşırılıb. O, ərinin döyüşdə öldürülməsi barədə şayiələrə inanmayaraq şəhəri sonadək müdafiə edib, 9 ay düşməni Dərbəndə yaxın buraxmayıb.

Qaçaq Nəbinin ömür-gün yoldaşı Həcər əlində silah 25 ildən artıq at belində zalımlara qarşı döyüşüb.

Böyük Vətən müharibəsi illərində ümumi Vətənimiz SSRİ-nin qorunması üçün kişilərlə birlikdə, yaşından, sənətindən və milliyyətindən asılı olmayaraq bütün qadınlar da ayağa qalxmışdı. Kişilərlə çiyin-çiyinə, onlar da müharibənin bütün çətinliklərinə qalib gəlmişlər.

Azərbaycanın qadın və qızları Böyük Vətən müharibəsi illərində cəbhədə xüsusi dəyanətlə özlərini göstərmişlər. 10 min nəfərdən çox azərbaycanlı qızları cəbhəyə getmişlər. Çoxları, demək olar, bütün hərbi ixtisaslara malik idilər. Onlar döyüş təyyarələrini, tankları idarə edirdilər, pulemyotçu və topçular, avtomatçı və snayperçi, tibb işçiləri, rabitəçi idilər.

Xalqımız fəxr edir ki, Vətənimizin cəngavər müdafiəçiləri arasında Azərbaycanın mərd qızları da olub.

Azərbaycan qadınları ön və arxa cəbhədə də fədakarlıq, hünər, qəhrəmanlıq göstərmişdilər. Arxa cəbhədə qadınlar neft buruqlarında, dəmir yollarında, kənd təsərrüfatı texnikası – traktor, kombayn sükanında, hospitallarda və başqa sahələrdə də kişiləri əvəz edirdilər.

İkinci Dünya müharibəsi dövründə qadınların hərbi sahədə fəaliyyəti genişləndi. Müharibədən sonra Azərbaycanda hərbi sahədə yüksək rütbəli ilk qadın təyyarəçi, ilk qadın gəmi kapitanı meydana çıxdı. Belə cəsur, hünərli bir neçə azərbaycanlı qadınlarımızın ömür yoluna qısaca nəzər salaq.

İlk qadın təyyarəçilərimiz, milli aviasiyamızın ilk “göyərçinləri”. Leyla Məmmədbəyova 1930-1931-ci illərdə Bakı Aviasiya Məktəbində təyyarəçi-təlimatçı ixtisasına yiyələnmiş, Bakı aeroklubunun yaradıcılarından və müəllimlərindən biri olmuşdur. O təkcə Azərbaycan tarixində deyil, o cümlədən Qafqazda, Cənubi Avropada və Yaxın Şərqdə ilk qadın təyyarəçi aviasiya mayoru rütbəsinə yiyələnmişdi. 1932-ci ildə Moskva Mərkəzi Aviasiya Məktəbində təhsilini davam etdirmişdir. O, 1933-cü ildə Moskvanın Tuşino aerodromunda "U-2" təyyarəsindən paraşütlə atılaraq Nina Kamnevadan sonra SSRİ-nin ikinci qadın paraşütçüsü adına sahib olmuşdur. Sonralar hərbçi peşəsini Bakı aeroklubunda müəllim kimi davam etdirmişdir. Yetkinlik yaşına çatmamış uşaqları olduğundan Məmmədbəyovanı Böyük Vətən müharibəsinə aparmayıblar. O, müharibə illərində yüzlərlə de-

santçı və 4 min paraşütçü hazırlayıb cəbhəyə yollayıb. Yetirmələri arasında iki nəfər Sovet İttifaqı Qəhrəmanı adını alan da vardır.

Sona Nurayeva da ilk təyyarəçi qadınlardan biri olub. O, Bakı təyyarə klubunda yetişib, 1936-cı ildə Bataysk təyyarəçilik məktəbini bitirib, Azərbaycan Mülki Aviasiya İdarəsinin təyyarəçisi olub. Böyük Vətən müharibəsində iştirak etmiş, döyüş tapşırıqlarını nümunəvi yerinə yetirdiyinə görə 1944-cü ildə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Müharibədən sonrakı həyatını Azərbaycan mülki aviasiyasına həsr etmişdir.

Züleyxa Seyidməmmədova ilk azərbaycanlı qadın hərbi təyyarəçi kimi adını tarixə yazmışdır. O, 1934-1938-ci illərdə Azərbaycan Sənaye institutunda təhsil almaqla yanaşı, Bakı aeroklubunda ilkin uçuş vərdişləri qazanmışdır. 1941-ci ildə isə Jukovski adına Moskva Hərbi-Hava Akademiyasını bitirib. Böyük Vətən müharibəsi illərində düşmənin "gecə əcinnələri" adlandırdığı qırıcı qadın aviapolkunun komandir müavini olmuş, 500-ə qədər döyüş əməliyyatlarında iştirak etmişdir. İkinci dərəcəli "Böyük Vətən müharibəsi" ordeni və "Almaniya üzərində qələbəyə görə" medalı ilə təltif edilmişdir. Ordudan aviasiya kapitanı rütbəsi ilə tərxis olunan Z.Seyidməmmədova ömrünün qalan hissəsini doğma Azərbaycanın inkişafına sərf etmişdir.

Cəsur qadın təyyarəçilərimiz haqqında danışarkən Ziba Dadaşovanın və Zərifə Qasımovanın adlarını çəkməmək olmur. Böyük Vətən müharibəsi illərində Bakını mühafizə edən xüsusi aviadəstənin tərkibində bu qızlar da sücaət göstərmişlər.

Dürrə Məmmədova Böyük Vətən müharibəsi iştirakçisi, baş leytenent, SSRİ tibb xidməti əlaçısı olub. 1981-ci ildə Azərbaycan SSR əməkdar səhiyyə işçisi adını alıb. Müharibənin ilk günlərindən könüllü cəbhəyə gedib, Qara Dəniz Donanmasında hərbi hospitalda çalışıb, Novorossiysk uğrunda gedən döyüşlərdə 18-ci ordunun tərkibində tibb işçisi kimi iştirak edib. 1948-ci ildə ordudan tərxis olunub, 1949-51-ci illərdə Leninqradda (Sankt-Peterburqda), 1951-61-ci illərdə Uzaq Şərqdə hərbi hospitallarda işləyib, orden və medallarla təltif olunmuşdur.

Aliyə Rüstəmbəyova Böyük Vətən müharibəsi qəhrəmanı, partizan hərəkatının iştirakçısı olub. 1935-ci ildə 1-ci Leninqrad Tibb İnstitutunu bitirəndən sonra Özbəkistanda işləmişdir. 1938-ci ildən isə Moskvada Həkimləri Təkmilləşdirmə İnstitutunda çalışıb. Müharibənin ilk günlərindən Moskva, sonra Smolensk yaxınlığında tibb-sanitar batalyonunda xidmət edib. 1941-ci ildə əsir düşüb, 1942-ci ilin əvvəllərində əsirlikdən qaçıb, Smolensk meşələrində fəaliyyət göstərən "Deduşka" partizan dəstəsinə qoşulub. Tibb-sanitar batalyonunun rəisi işləyib. Döyüşlərin birində həlak olub.

Müharibə illərinin digər bir qadın qəhrəmanımız gəmi kapitanı Şövkət Səlimova 1940-cı ildə Bakı Dənizçilik Məktəbini bitirib. O, Xəzər Dəniz Gəmiçiliyi İdarəsində gəmi kapitanı müavini və daha sonra gəmi kapitanı vəzifəsində çalışmışdır. Şövkət xanım müharibə illərində gəmi ilə neft, silah daşınmasında böyük əməyi keçən şəxslərdəndir. Müharibə dövründə dünyada iki qadın gəmi kapitanından biri olub. "Qırmızı Ulduz" və 2-ci dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif edilmişdir.

Dəhşətli günlərdən illər keçsə də, ölüm saçan güllələrdən həyatını xilas edə bilmiş və bu gün aramızda olan qadınlarımızdan Fatma Səttarova, Tacirə Qazıyeva, Mariya Rzayeva, Adilə Ağakişiyeva, İrina Qədimova, İbrahimova Vera İvanovnanın adlarını çəkə bilərik.

Fatma Səttarova 20 yaşında tibb bacısı olaraq Azərbaycan oğulları ilə bərabər könüllü surətdə cəbhəyə getmişdir. Müxtəlif hospitallarda xidmət etmiş, həmçinin Leninqrad blokadasında və Moskva ətraflı döyüşlərdə iştirak etmişdir. Müharibə qurtardıqdan sonra Vətənə qayıdaraq ali təhsil almış və dövlət idarələrində müxtəlif vəzifələrdə çalışmışdır.

Mariya Rzayeva da 18 yaşında cəbhəyə könüllü getmiş və döyüşlərdə iştirak etmişdir. Stalinqrad uğrunda döyüşlərdə Mariya Rzayevanı, eşitmə və görmə qabiliyyətinin yüksək olduğundan, zenit artilleriyası üçün kəşfiyyatçı işinə cəlb edirlər. Eşitmə və görmə bu işdə vacibdir. Belə ki, tank istehsal edən zavodun damından gələnin sovet, yoxsa düşmən təyyarəsi olduğunu ancaq səslə müəyyən etmək mümkün idi. Müharibədən sonra azərbaycanlı həyat yoldaşı Həsən Rzayev ilə Bakıya gəlirlər.

Hal-hazırda bu qadınlar Respublikanın veteran hərəkatında öz fəal iştiraklarını davam etdirirlər.

Azərbaycan anaları Böyük Vətən müharibəsində tarixi qələbənin qazanılmasında 700 mindən çox igid oğullarını, qeyrətli qızlarını düşmənə qarşı döyüşə yola salmışlar.

Böyük Vətən müharibəsində Azərbaycan oğul və qızlarının faşizmin məhv edilməsində göstərdikləri qəhrəmanlıqlar, onların həyat tərzi və fəaliyyəti gənclərimiz üçün əsl nümunə, vətənpərvərlik məktəbidir.

Böyük Vətən Müharibəsinin gedişatında Azərbaycanın kənd təsərrüfatının idarə edilməsində, bol məhsul istehsal olunmasında zəhmətkeş qadınlarımızın əməyi danılmazdır. Məsələn, Xaçmaz rayonundakı Alekseyevka kəndində «Путь Ильича» kolxozunun sədri Aleksandra Kopeyko, Qasım İsmayılov (Göranboy) rayonunda ilk dəfə iki əl ilə pambıq yığan iki dəfə Sosialist Əməyi Qəhrəmanı Bəsti Bağırova, Fizuli rayonundakı «1 May» kolxozunun sədri Şamama Həsənova, Biləsuvar (Puşkin) rayonundakı «Telman adına» kolxozun sədri, Sosialist Əməyi Qəhrəmanı Qızqayıt Həsənova, Ağdam rayonundakı «Lenin adına» kolxozun sədri, Sosialist Əməyi Qəhrəmanı Xuraman Abbasova, Şabran (Dəvəçi) rayon Dəmir Yolu stansiyasının dispetçeri, Qəhrəman Ana Mozqolik Tina Yefimovna və başqalarının adları Azərbaycan Qadınlar Ensiklopediyasına daxil edilmişdir.

Bəsti Bağırovanın portreti Rüstəm Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyinin salonda gələn qonaqların diqqətini cəlb edir.

Müharibə illərində yazıçı və şairlərimizlə bərabər respublikanın incəsənət işçiləri, o cümlədən sevimli müğənnilərimiz Şövkət Ələkbərova, Rəhilə Həsənova, Sara Qədimova, Rübaba Muradova, Tükəzban İsmayılova, Fatma Mehrəliyeva, Leyla Bədəlbəyli, Həqiqət Rzayeva, bəstəkar Şəfiqə Axundova və qeyriləri cəbhə bölgələrinə gedərək, orada əsgərlər qarşısında söhbətlər aparmış, konsertlər vermiş və onları mənəvi cəhətdən ruhlandırmışlar.

Müharibənin sonrakı quruculuq illərində də qadınlarımız öz bilik və bacarıqlarını Azərbaycan dövlətinin inkişafına sərf etmişlər. Məsələn, tibb elmləri üzrə akademik Zərifə Əliyeva, tibb elmləri doktoru Ədilə Namazova, Azərbaycan Dövlət Tibb Universitetinin keçmiş rektoru, professor Zəhra Quliyeva, yazıçı Əzizə Cəfərzadə, şairə, jurnalist, "Vəfa" jurnalının baş redaktoru Xuraman Vəfa, dövlət və ictimai xadim Zemfira Verdiyeva, tarixçi, alim, akademik Nailə Vəlixanlı, Yevlax rayonunda pambıqçılıq briqadiri, Sosialist Əməyi Qəhrəmanı Şamama Əliyeva, hüquq fakültəsinin professoru Bilqeyis Haşımzadə, SSRİ Xalq artisti, Milli Məclisin deputatı Zeynəb Xanlarova, böyük alim Sara xanım Aşurbəyli, tarix üzrə fəlsəfə doktoru, kafedra müdiri Firdovsiyyə Əhmədova, rabitəçi, Sosialist Əməyi Qəhrəmanı Həcər İsababayeva, ictimai və dövlət xadimi Fatma Abdullazadə və qeyriləri Azərbaycan xalqının fəxridirlər.



*Şəklin ortasında, soldan sağa: milis rəisinin müavini Mehralı Bayramov, jurnalist Salatın Əsgərova, Qazax rayon prokuroru Cahangir Nəsirov, Qazax rayon prokurorunun müavini Xanlar Vəliyev, rayon prokurorluğunun baş müstəntiqi İsmayıl Hüseynov.*

Dünyalarını dəyişənlərə rəhmət diləyirik və salamat qalanlara uzun ömür, cansağlığı arzulayırıq.

Çox təəssüflər olsun ki, tarixdə bəzi xoşagəlməz hadisələr təkrar olunur. Azərbaycan qadını müasir dövrdə də yenidən müharibə şəraitində yaşayır, vuruşur və mübarizə aparır. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması

nəticəsində yüzlərlə qadınlarımız şəhid olmuşlar.

Torpaqlarımızın bütövlüyü uğrunda mübarizə aparıb, şəhid olanlar barədə danışmamaq olmur.

Salatın Əsgərova 1961-ci il dekabrın 16-da Bakıda ziyalı ailəsində anadan olmuşdur. 1979-cu ildə M.Müşfiq adına 18 nömrəli orta məktəbi bitirib, elə həmin il Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft Akademiyası) daxil olub. Sonralar jurnalist kimi fəaliyyət göstərib.

Qeyd etmək lazımdır ki, 1988-1992-ci illərdə erməni silahlı birləşmələri Qazax rayonunun sərhəd kəndlərini işğal etməyə can atırdılar. Yerli əhalini qorxudaraq onların öz kəndlərini tərk etməyə çalışırdılar. Qazax rayonun rəhbərləri, ziyalıları, inzibati orqan işçiləri ermənilərin planlarını pozmaq üçün mütəmadi olaraq kəndlərə gedərək sərhədləri qoruyan əsgərlərimizə dayaq dururdular.

1990-cı il oktyabr ayında jurnalist Salatın Əsgərova da Qazax rayonuna gələrək inzibati orqan işçiləri ilə sərhəd kəndlərə getməyi qərara alınmışdı. Təqdim etdiyimiz fotoda Salatın Əsgərova əsgərlərlə görüşərkən təsvir olunmuşdur.

1991-ci il yanvarın 9-da Laçın-Şuşa yolunun 6-cı kilometrliyindəki Qaladərəsi kəndi yaxınlığında azğınlaşmış erməni silahlı qüvvələrinin mühasirəsinə düşüb, oturduğu maşın yaxın məsafədən şiddətli atəşə tutulub. Nəticədə istedadlı jurnalist, "Molodyoj Azerbaydjana" qəzetinin əməkdaşı və ən nəhayət Azərbaycanın qeyrətli qızı Salatın Əsgərova amansızcasına qətlə yetirilib. O, Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

Gültəkin Əsgərova 1960–cı il noyabrın 20-də Bakıda anadan olub. Azərbaycan Dövlət Tibb Universitetini bitirib. Əmək fəaliyyətinə 8 nömrəli təcili tibbi yardım stansiyasında başlayıb, 1991-ci ildən Uroloji Kliniki Xəstəxanada işləyib. 1992-ci ilin aprelindən könüllü olaraq cəbhəyə yollanıb, Turşsu, Şuşa xəstəxanalarında, Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərib. 1992-ci il iyulun 19-da Aranzəmin yüksəkliyi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub. Ölümündən sonra, 1993-cü ildə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Qaratel Hacımahmudova 1948-ci ildə Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olub. Bakı Ticarət Texnikumunu və Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. Azərbaycan Respublikası Dövlət Neft Şirkətində çalışıb. 1991-ci ildə doğma yurdu Qazaxa qayıdıb, könüllü olaraq ana torpağın müdafiəsinə qalxıb. 1993-cü ildə Aşağı Əskipara kəndində mühasirəyə düşüb, güclü atışmada əsgərlərimizə kömək edib, "Kalaşnikov" markalı avtomatla çoxlu erməni quldurlarını öldürdükdən sonra düşmən əlinə keçməmək üçün axırıncı gülləni özünə vurub. Ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub.

Torpaqlarımızın işğalı nəticəsində 400 mindən çox qadın və 300 mindən çox uşaq qaçqın və məcburi köçkün düşmüşdür. Onlardan yüz minlərlə qadın və qızlarımız öz evlərini itirmiş, ailələri dağılmışdır. Bu gün qaçqın və məcburi köçkün, həmçinin şəhid ailəsi olan və müharibənin ağırlığını çiyinlərində daşıyan qadınlarımızın fədakarlığını xüsusi qeyd edirik. Bütün bu çətinliklərə baxmayaraq, köçkün qadınlarımız özlərində güc tapmağı bacardılar, başlarına gələn faciələri ürəklərində yaşadaraq gələcəyə ümidlə baxdılar. Azərbaycan Hökuməti həmin qadınların ictimai-siyasi həyata inteqrasiya edilməsi üçün bütün qüvvəsini səfərbər etmişdir. Hazırda bu qadınlar arasında millət vəkili, müəllimlər, həkimlər, dövlət qulluqçuları, kənd təsərrüfatında çalışanlar vardır.

Azərbaycanda hələ də müharibə vəziyyəti davam edir. Belə bir dövrdə vəzifəmiz Ali Baş Komandanımızın rəhbərliyi ilə ölkəmizin hərbi qüdrətinin daha da artırılmasına kömək etməkdir.

Ağılda, yaraşıqda, gözəllikdə, etibarda, vəfada, mərdlikdə qadınlarımız dünya qadınlarına nümunə ola bilər.

**Cahangir Nəsirov,**
**Azərbaycan Respublikası Yazıçılar Birliyinin üzvü, Prokurorluğun fəxri işçisi, baş ədliyyə müşaviri**

**Salman Babayev,**
**İradə İbrahimova,**
**Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının əməkdaşları**
30 mart 2016-cı il

# Baş Prokurorluqda korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı mətbuat konfransı keçirilmişdir

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2015-ci il ərzində görülmüş işlərə dair hesabatla çıxış etmişdir**




Yanvarın 15-də Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2015-ci il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökümət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev görülmüş işlər barədə ətraflı məlumat vermişdir.

Bildirilmişdir ki, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi strateji kursun mükəmməl konseptual əsaslarla davam etdirilməsi nəticəsində ötən dövrlərdə olduğu kimi 2015-ci ildə də bütün sahələrdə mühüm nailiyyətlər qazanılmaqla irimiqyaslı uğurlara imza atılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına davamlı iqtisadi tərəqqi, xalqın rifahının yüksəldilməsi, müasir dünyada mövcud olan siyasi-iqtisadi vəziyyət, qlobal maraqlar sistemi nəzərə alınmaqla ölkəmizin inkişafı, korrupsiya və rüşvətxorluğa qarşı kəsərli mübarizə tədbirləri inamla həyata keçirilməkdədir.

Ötən dövr ərzində dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri daha intensiv xarakter almış, mütərəqqi institusional tədbirlər həyata keçirilmişdir.

Hesabat dövründə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi, işçi heyətin yeni kadrlarla komplektləşdirilməsi məqsədi ilə müxtəlif vəzifələrə 45 kadr təyinatı aparılmışdır.



2015-ci il ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 460 cinayət işinin ibtidai istintaqı aparılmış, bunlardan 145 cinayət işi Baş İdarə rəisi tərəfindən başlanmış, 90 cinayət işi digər işlərdən ayrılmış, 62 cinayət işinin icraatı təzələnmiş, 47 cinayət işi Baş Prokurorluq vasitəsi ilə aidiyyəti orqanlardan daxil olmaqla icraata qəbul edilmiş, 116 cinayət işi isə 2014-cü ildən qalıq qalmışdır.

Həmin cinayət işləri əsasən qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, dələduzluq, vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, rüşvət alma, rüşvət vermə, nüfuz alveri, saxta sənədlərdən istifadə etmə, vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, vəzifə saxtakarlığı, cinayət yolu ilə əldə edilmiş pul vəsaitinin leqallaşdırılması və digər faktlarla əlaqədar olmuşdur.

Hesabat dövründə 301 şəxs barəsində 207 cinayət işinin istintaqı tamamlanaraq, onlardan 295 şəxs barəsində 200 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmişdir.

İstintaqı tamamlanmış cinayət işlərindən ümumilikdə 206 şəxs barəsində 119 iş Ağır Cinayətlər Məhkəmələrinə, 89 şəxs barəsində 81 iş isə rayon (şəhər) məhkəmələrinə göndərilmişdir.

2015-ci il ərzində məhkəmələrə göndərilmiş 200 cinayət işindən 107 şəxs barəsində 73 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 64 şəxs barəsində 52 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 41 şəxs barəsində 24 iş vəzifə səlahiyyətlərindən sui-istifadə, 34 şəxs barəsində 14 iş rüşvət alma, 13 şəxs barəsində 9 iş rüşvət vermə, 1 şəxs barəsində 1 iş nüfuz alveri, 12 şəxs barəsində 12 iş saxta sənədlərdən istifadə etmə, 7 şəxs barəsində 4 iş vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, 9 şəxs barəsində 6 iş vəzifə saxtakarlığı, 3 şəxs barəsində 2 iş hədə-qorxu ilə tələb etmə, 1 şəxs barəsində 1 iş qanunsuz sahibkarlıq, 2 şəxs barəsində 1 iş cinayət yolu ilə əldə edilmiş pul vəsaitinin leqallaşdırılması və 1 şəxs barəsində 1 iş isə digər faktla əlaqədar olmuşdur.

İstintaqı başa çatdırılmış işlər üzrə cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması məqsədilə aidiyyəti müəssisə və təşkilatlara 49 təqdimat verilmiş, həmin təqdimatlara əsasən bir sıra əməkdaşlar intizam qaydasında cəzalandırılmış, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

2015-ci il ərzində məhkəmələrə göndərilmiş 200 cinayət işindən 165 iş maddi ziyanla əlaqədar olmuşdur.

Həmin işlər üzrə vurulmuş 143 milyon 883 min manat ziyandan istintaq zamanı 36 milyon 101 min manat və ya 25,1 % ödənilmişdir.

Belə ki, dövlət mülkiyyətinə vurulmuş 27 milyon 561 min manat ziyandan ibtidai araşdırma mərhələsində 4 milyon 805 min manat və ya 17,5 %, xüsusi mülkiyyətə vurulmuş 116 milyon 313 min manat ziyandan ibtidai araşdırma mərhələsində 31 milyon 296 min manat və ya 27,0 %, bələdiyyə mülkiyyətinə dəymiş 9 min 811 manat ziyandan ibtidai araşdırma mərhələsində 900 manat və ya 9,2 % ödənilməsi təmin edilmişdir.

Əməliyyat qurumları tərəfindən 31 şəxs barəsində 27 cinayət işi başlanmışdır. Keçirilmiş 14 əməliyyat tədbiri nəticəsində korrupsiya cinayəti törədən 16 vəzifəli şəxs cinayət başında yaxalanmış, araşdırmalar nəticəsində isə 15 şəxs barəsində 13 cinayət işi başlanmışdır.

Hesabat dövründə Baş İdarədə 190 müraciət və digər məlumatlara cinayət xarakterli material kimi baxılmış, 138 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, 51

material üzrə cinayət işinin başlanılmasının rədd edilməsi haqqında qərar qəbul edilmiş, 1 material isə aidiyyəti üzrə göndərilmişdir.

Bunlardan 23-ü rüşvət, 35-i vəzifədən sui-istifadə, 66-ı dələduzluq, 32-i mənimsəmə, 12-i saxta sənəddən istifadə, 4-ü saxta müflisləşmə, 4-ü qanunsuz sahibkarlıq, 14-ü isə digərləri ilə əlaqədar olmuşdur.

Aparılmış araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və qanun pozuntularına şərait yaradan halların gələcəkdə bir daha təkrar törədilməməsi üçün müxtəlif dövlət qurumları və vəzifəli şəxslərə 22 təqdimat göndərilmişdir.

Ümumilikdə 2015-ci il ərzində Baş İdarədə müraciətlərə baxılması nəticəsində 169 vəzifəli şəxs intizam məsuliyyətinə cəlb edilmişdir.

İntizam məsuliyyətinə cəlb edilmiş 169 vəzifəli şəxs – Səhiyyə Nazirliyi üzrə 42, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 28, Təhsil Nazirliyi üzrə 13, Daxili İşlər Nazirliyi üzrə 48, Müdafiə Nazirliyi üzrə 1, Fövqəladə Hallar Nazirliyi üzrə 1, Gömrük Komitəsi üzrə 1 və digər dövlət qurumları üzrə 35 nəfər olmuşdur.

Hesabat dövründə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə 7266 müraciət daxil olmuş, bunlardan 5820-si ilkin, 1446-sı təkrar olmuşdur.

Daxil olmuş 7266 müraciətin 5954-ü aidiyyəti üzrə nazirlik, komitə və təşkilatlara göndərilməklə 2100 müraciət üzrə qabaqlayıcı və digər müvafiq tədbirlərin görülməsi təmin edilmiş, 449-u Baş İdarədə, 833-ü isə prokurorluğun müvafiq struktur qurumlarında araşdırılmışdır.

2015-ci il ərzində "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş 30 müraciət üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmışdır.

Baş İdarədə 2614 vətəndaşın qəbul edilməsi təmin edilmişdir ki, bunlardan 422-i Baş İdarə rəisi, 171-i Baş İdarənin idarə və şöbə rəisləri, 2021-i növbətçi prokurorlar tərəfindən qəbul edilmişdir.

Qeyd olunmuşdur ki, istehlak bazarında baş verə biləcək süni qiymət artımı, inhisarçılıq və sui-istifadə hallarına qarşı 29 dekabr 2015-ci il tarixdə İqtisadiyyat və Sənaye Nazirliyinin Antiinhisar Siyasəti və Dövlət Xidməti ilə birgə təsdiq edilmiş tədbirlər planının icrası ilə əlaqədar Baş İdarə tərəfindən zəruri qabaqlayıcı və inzibati, o cümlədən cinayət təqibi tədbirləri ardıcıl olaraq davam etdirilir.

Belə ki, tədbirlər planının icrası ilə əlaqədar İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti ilə birgə un, çörək, yumurta və sair kimi istehlak məhsullarının, habelə dərman vasitələrinin qiymətlərinin süni şəkildə artırılması, mal qıtlığı yaradılması və digər sui-istifadə hallarının qarşısının alınması məqsədilə həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində 6 cinayət işi başlanılmış, 7 nəfər şəxs təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Həmçinin hesabat dövrü ərzində ölkə başçısı cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyətini nəzərə almaqla bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla, habelə müxtəlif ölkələrin antikorrupsiya orqanları ilə qarşılıqlı əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə böyük önəm verilmişdir.

Belə ki, Baş İdarə Birləşmiş Millətlər Təşkilatının (BMT) Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan dövlətlər qrupu (GRECO), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA) kimi nüfuzlu beynəlxalq təşkilatlarla, habelə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı və bir sıra digər beynəlxalq təşəbbüslər çərçivəsində səmərəli qarşılıqlı əməkdaşlıq həyata keçirmişdir. 2015-ci il ərzində Baş prokuror Zakir Qaralovun Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) kimi nüfuzlu beynəlxalq qurumun ali idarəetmə orqanına – Assambleyasına sədrlik etmiş, habelə qarşılıqlı əlaqələrin uğurla inkişaf etdirilməsinin məntiqi nəticəsi kimi Milli Məclisin deputatı Vüsal Hüseynov 6 il müddətinə adıçəkilən təşkilatın İdarə Heyətinə üzv seçilmişdir.

Bundan başqa, hesabat dövrü ərzində Azərbaycan Respublikası Baş Prokurorluğunun, o cümlədən Baş İdarənin Korrupsiyaya qarşı Avropa Tərəfdaşları (EPAC) şəbəkəsinə üzv qəbul olunması, Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) yeni yaradılmış anti-korrupsiya veb-saytının aparılmasının Azərbaycan Respublikası Prokurorluğuna həvalə olunması,

BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına Tərəf Dövlətlərin Konfransının “Korrupsiyanın prevensiyası və əmlakın bərpası” mövzusunda 6-cı sessiyası zamanı Azərbaycanın müəllifi olduğu “Qabaqcıl təcrübələrin və texnoloji innovasiyaların tətbiqi vasitəsilə şəffaf, məsuliyyətli və səmərəli ictimai xidmətlərin göstərilməsinin təşviq edilməsi ilə korrupsiyanın qarşısının alınması” adlı qətnamənin qəbul olunması, beynəlxalq səviyyədə ölkəmizə, o cümlədən ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdiyi kompleks, ardıcıl və sistemli tədbirlərə verilən yüksək qiymətin təcəssümü kimi qiymətləndirilməlidir.

Həmçinin qeyd olunmuşdur ki, cari ilin fevralında Malayziyanın Antikorrupsiya Komissiyası ilə Baş İdarə arasında imzalanması nəzərdə tutulan Anlaşma Memorandumu ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığa vermiş olduğu əhəmiyyətin göstəricisidir.

Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqan olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə Komissiyası və digər əlaqəli dövlət orqanları ilə birgə bundan sonra da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən etimada layiq, ən yüksək tələblər səviyyəsində ölkəmizdə korrupsiyaya qarşı mübarizə strategiyasını eyni intensivliklə və daha da səmərəli şəkildə davam etdirəcək, ona həvalə edilmiş səlahiyyətlər çərçivəsində bütün neqativ hallara qarşı qətiyyətli tədbirlərin görülməsini təmin edəcəkdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Tabe rayon (şəhər) prokurorluqlarında “Elektron Sənəd Dövriyyəsi” və “Elektron Cinayət” proqramlarından istifadə qaydalarına dair seminarlar keçirilmişdir



Azərbaycan Respublikasının prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsinin yüksəldilməsi, bu texnologiyalardan daha geniş və səmərəli istifadə edilməsi, yeni proqramların hazırlanması, istifadədə olan proqramların funksionallıqlarının artırılması, texniki strukturunun təkmilləşdirilməsi və texnoloji imkanlarının genişləndirilməsi istiqamətində zəruri işlərin həyata keçirilməsi təmin edilmişdir. Görülmüş işlərin nəticəsi olaraq, bütün prokurorluq orqanlarını əhatə edən vahid daxili informasiya-kommunikasiya şəbəkəsi yaradılmış, prokurorluq orqanları arasında video-konfrans sistemi qurulmuş, Baş Prokurorluqda hazırlanmış “Elektron Sənəd Dövriyyəsi” və “Elektron Cinayət” proqramlarının prokurorluğun bütün struktur qurumları və tabe prokurorluqlarda tətbiqi təmin edilmiş, proqramların funksional imkanları və texniki parametrləri barəsində ətraflı məlumatların verilməsi, prokurorluq işçilərində müvafiq vərdişlərin yaranması məqsədilə proq-

ramlardan istifadə qaydalarına dair kitabçalar hazırlanmış, xüsusi hazırlıq kursları keçirilmişdir.



Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin İnformasiya texnologiyalarının tətbiqi xidmətinin rəhbəri Murad Dadaşov, xidmətin baş mütəxəssisləri Xalid Baxşəliyev, Amal Fərəcov və mütəxəssisi Ayxan Ağazadə tərəfindən fevral ayında bütün tabe şəhər və rayon prokurorluqlarında xüsusi hazırlıq kursları keçirilmişdir.

Kurslarda işçilərin "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" proqramından istifadə etmənin təmin olunması, proqramların tətbiqi qaydalarının mənimsənilməsi və bu sahədə tələbkarlığın artırılması sahəsində müvafiq vərdişlər aşılanmışdır.

**Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi**

## Şərur rayon prokurorluğunda "Cinayət prosesində dindirmənin proqramlaşdırılması" mövzusunda seminar keçirilmişdir

Martın 28-də Şərur rayon prokurorluğunda Şərur, Kəngərli və Sədərək rayon prokurorluqlarının müstəntiqlərinin iştirakı ilə "Cinayət prosesində dindirmənin proqramlaşdırılması" mövzusunda seminar keçirilmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun İstintaq şöbəsinin rəisi Elşad Ağayev qeyd etmişdir ki, dindirmə cinayət prosesində ən geniş yayılmış sübut toplama üsuludur. Digər sübut növlərindən istifadə etməməklə icraatı başa çatdırmaq mümkün olsa da, dindirməsiz cinayət mühakimə icraatı aparmaq mümkün deyil. Dindirmə zamanı cinayət prosesi iştirakçılarının hüquqları, onların reallaşdırılması ilə bağlı məlumatlar toplanır və qiymətləndirilir.

Dindirmənin mərhələləri üzrə müstəntiqin vəzifələrindən danışılaraq qeyd edilmişdir ki, cinayət işinin istintaqı zamanı dindirmənin proqramlaşdırılması və düzgün təşkili müstəntiqin əsas vəzifələrindən biridir. Dindirməyə başlamazdan əvvəl müstəntiq ifadələrinin alınması zəruri olan şəxslərin dairəsini və onların dindirməyə çağırılma ardıcıllığını müəyyən etməlidir.

Dindirmənin hazırlıq, başlanğıc və yekun mərhələlərində müstəntiqin vəzifələri, ayrı-ayrı cinayət işlərinin istintaqı zamanı nümunəvi dindirmə proqramları, rüşvət alma (passiv rüşvətxorluq) və rüşvət vermə (aktiv rüşvətxorluq), səhlənkarlıq, vəzifə səlahiyyətlərindən sui-istifadə, qəsdən adam öldürmə və sairə barədə məlumat verilmişdir.

Sonda tədbir iştirakçılarına Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərəkzi tərəfindən hazırlanmış "Cinayət prosesində dindirmənin proqramlaşdırılması"na dair metodiki vəsaitdən istifadə olunması tövsiyə olunmuş və suallar cavablandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Azərbaycan ilə Malayziya arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır

Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin başçılıq etdiyi nümayəndə heyəti fevralın 3-dən 5-dək Malayziyada səfərdə olmuşdur.

Kamran Əliyev səfər çərçivəsində Malayziya Baş nazirinin ofisində şəffaflıq məsələləri üzrə nazir və parlamentin üzvü Paul Lou Seng Kuan, Malayziya Antikorrupsiya Komissiyasının (MACC) rəisi Datuk Abu Kassim bin Mohamed, MACC-ın rəis müavini Dato Sri Mohd Şukri Bin Abdullah ilə görüşmüşdür. Görüşdə hər iki ölkənin korrupsiyaya qarşı mübarizə qurumları arasında əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparılmışdır.

Fevralın 4-də Azərbaycanın Malayziyadakı səfiri Qaley Allahverdiyev və Antikorrupsiya Komissiyası rəhbərliyinin iştirakı ilə Malayziya Antikorrupsiya Komissiyasının Putracaya şəhərində yerləşən baş qərargahında “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Malayziyanın Antikorrupsiya Komissiyası arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu” imzalanmışdır.

Mərasimdə çıxış edən Kamran Əliyev sənədin Azərbaycan və Malayziyanın eyni adlı qurumları arasında antikorrupsiya sahəsində qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi, təcrübə və informasiya mübadiləsinin aparılması, peşəkar kadrların hazırlanması istiqamətində əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli rol oynayacağına əminliyini bildirmişdir.

Həmin gün MACC-ın baş qərargahında qurumun rəis müavini Dato Sri Mohd Şukri Bin Abdullahın sədrliyi ilə Azərbaycan və Malayziya Korrupsiyaya qarşı Mübarizə qurumları arasında ikitərəfli görüşlərin birinci raundu keçirilib. İclas zamanı Kamran Əliyev Azərbaycanın Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti və strukturu, beynəlxalq əməkdaşlıq əlaqələri, ölkəmizdə antikorrupsiya sahəsində aparılan işlər haqqında ətraflı məlumat vermişdir.

Malayziya Antikorrupsiya Komissiyasının nəzdində fəaliyyət göstərən “MACC FM” radiosuna baş çəkən Kamran Əliyev radioya canlı müsahibə də vermişdir. Müsahibə zamanı Kamran Əliyev malayziyalı dinləyicilərə rəhbərlik etdiyi qurumun fəaliyyəti və ölkəmizin uğurları haqqında danışmışdır.

Səfər çərçivəsində Kamran Əliyev Kuala Lumpurda yerləşən Malayziya Antikorrupsiya Akademiyasının (MACA) rəhbərliyi ilə görüşmüşdür. Görüşdə Azərbaycan nümayəndə heyətinə Akademiya barədə geniş məlumat verilmiş və MACA-nın fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilmişdir. Nümayəndə heyəti, həmçinin Akademiyanın kitabxanası və burada təşkil olunan qısamüddətli təlim kurslarında iştirak edən xarici ölkə nümayəndələri üçün yaradılmış şəraitlə tanış olmuşdur.

Azərbaycan nümayəndə heyətinin Malayziyaya səfəri fevralın 5-də başa çatmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

***

# Azərbaycan Respublikasının Prokurorluğu beynəlxalq əməkdaşlığa xüsusi önəm verir

Martın 15-16-da Finlandiyanın paytaxtı Helsinkidə Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) İcraiyyə Komitəsinin 41-ci iclası keçirilmişdir. Tədbirdə Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Respublikası Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev iştirak etmişdir.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmaqla Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilən müdrik dövlət siyasətinin məntiqi nəticəsi kimi Azərbaycan Respublikasının prokurorluq orqanları bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən IAP-la səmərəli qarşılıqlı əməkdaşlığı bu gün də uğurla davam etdirir.

Assosiasiyanın İcraiyyə Komitəsinin iclasının 2002-ci ildə Bakı şəhərində keçirilməsi təşkilatla ölkəmiz arasında qarşılıqlı əməkdaşlığı yeni müstəviyə qaldırmışdır.

Beynəlxalq Prokurorlar Assosiasiyası yarandığı gündən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Baş Prokurorluq qeyd olunan qurumla sıx işgüzar əlaqələr yaratmış və həyata keçirilmiş səmərəli qarşılıqlı əməkdaşlığın nəticəsi kimi Azərbaycan Respublikası uzun müddət ərzində Assosiasiyanın ali idarəetmə orqanı olan İcraiyyə Komitəsində təmsil olunmaqdadır.

Ötən müddət ərzində Assosiasiyanın rəhbər nümayəndələri mütəmadi olaraq Azərbaycanda rəsmi və işgüzar səfərlərdə olmaqla Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, korrupsiyaya qarşı mübarizə sahəsində institusional və cinayət təqibi tədbirləri, o cümlədən “Asan xidmət” mərkəzlərinin fəaliyyəti ilə yaxından tanış olmuş və əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirməklə qurumun internet səhifəsinin rus versiyası ilə yanaşı Assosiasiyanın antikorrupsiya şəbəkəsinin təsis edilməsi

haqqında razılıq əldə edilmişdir. Qeyd olunan şəbəkənin saytının idarə olunmasının Azərbaycan Respublikasının prokurorluq orqanlarına həvalə olunması və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən uğurla aparılması qurumla Azərbaycan Respublikası arasında yaradılmış səmərəli qarşılıqlı əməkdaşlığın bariz nümunəsidir.

Assosiasiyanın İcraiyyə Komitəsinin iclasında qurumun fəaliyyəti ilə bağlı bir sıra mühüm əhəmiyyət kəsb edən təşkilati məsələlər, o cümlədən Assosiasiyanın Konstitusiyası və fəaliyyətini tənzimləyən digər normativ sənədlərə əlavə və dəyişikliklər, quruma yeni təşkilati üzvlərin qəbulu məsələləri müzakirə edilmiş, habelə qurumun ali orqanlarına, o cümlədən Assosiasiyanın idarəetmə orqanı olan İcraiyyə Komitəsinə seçkilər keçirilmişdir.

Əlamətdar haldır ki, dünyanın aparıcı dövlətlərinin prokurorluq orqanlarının rəhbər şəxslərinin təmsil olunduğu İcraiyyə Komitəsinin 41-ci yaz iclasında ölkəmizin ədliyyə və prokurorluq orqanlarının qurumun fəaliyyətinə vermiş olduğu töhfələr, fəal iştirakçılıq və yüksək səviyyəli işgüzar əlaqələr nəzərə alınmaqla Azərbaycan Respublikasının nümayəndəsi K.Əliyevin növbəti müddətə üzv seçilməsi məsələsi ilə əlaqədar ilkin qərar qəbul edilmişdir.

Bundan başqa, iclasda Assosiasiyanın 21-ci İllik Konfrans və Ümumi Yığıncağının cari ilin sentyabrın 11-15-də İrlandiyanın paytaxtı Dublin şəhərində keçirilməsi qərara alınmışdır.

Azərbaycan Respublikasının Prokurorluğu bundan sonra da beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığını uğurla davam etdirəcəkdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

***

# Almaniyada "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" proqramlarının tətbiqi sahəsində təcrübə öyrənilmişdir

Yanvarın 25-26-da "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" proqramlarının tətbiqi ilə əlaqədar Almaniya Federativ Respublikasının təcrübəsinin öyrənilməsi məqsədilə Azərbaycan Respublikasının Baş prokurorunun göstərişinə əsasən Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin İnformasiya texnologiyalarının tətbiqi xidmətinin rəhbəri Murad Dadaşov və Beynəlxalq əlaqələr idarəsinin Beynəlxalq hüquqi əməkdaşlıq və protokol xidmətinin prokuroru Elnur Eyvazov həmin ölkəyə səfər etmişlər.

Səfər çərçivəsində nümayəndə heyəti yanvarın 25-də Ədliyyə Nazirliyi Məlumat və rabitə şöbəsinin prokuroru Yan Şpölne və birinci instansiya məhkəməsinin hakimi Yan Martin Bornşeuer ilə nazirliyin yerləşdiyi Baden-Vürtemberq torpağının Ştutqart şəhərində görüşmüşlər. Y.Şpölne "eJustice" (eƏdliyyə) proqramı, iş prinsipləri, istifadə qaydaları və "BİTBW" (Baden-Vürtenberq IT Qurumu) adlı qurumun fəaliyyəti barədə məlumat vermişdir. Bildirilmişdir ki, "eJustuce" proqramının əsas məqsədi bütün sənədləşmə işlərinin elektronlaşdırılaraq məhkəmələrə təqdim olunması, hökm və qərarların qanuni qüvvəyə minməsindən sonra da onun icra vəziyyətini trayektoriya üzrə izləmək və nəzarət etmək, eyni zamanda işçilərə rahat iş şəraitinin yaradılması və gələcəkdə onlara evdən də həmin proqrama daxil olaraq işləmə imkanının yaradılmasıdır. Proqramda sənədləşmələr bütün dünya üzrə qəbul olunmuş "PDF/A" formatı ilə aparılır və sənədləri skan etmək üçün "OCR Software" proqramından istifadə olunur.

Ədliyyə Nazirliyində təqdimatlar yekunlaşdıqdan sonra nümayəndə heyəti Y.Spölnenin müşayiəti ilə Ştutqart Əmək Məhkəməsinin inzibati binasına getmişdir. Orada onlar "eJustice" proqramının pilot layihə kimi işə salındığı işçi laboratoriyada olaraq fəaliyyəti, işçilərin iş masalarının və hakimlər üçün nəzərdə tutulmuş iclas zalı masasının nümunələri ilə tanış olmuşlar.

Daha sonra Yan Martin Bornşeuerin müşayiəti ilə Kornvesthaym şəhərində yerləşən Mərkəzi arxiv ilə tanış olunmuşdur. Yan Martin arxivləşmə işinin elektronlaşması barədə danışmışdır. Ədliyyə Nazirliyinin arxivi üzrə direktoru Anita Şvarz və Mərkəzi arxivin direktor müavini Andreas Gross tərəfindən "Web-Scan" proqramı barədə məlumat verilmiş və həmin proqram vasitəsilə sənədin dörd mərhələli skan olunması və müraciətçiyə göndərilməsi nümayiş olunmuşdur. Mərkəzi arxivdə 16 milyon sənədin arxivləşdiriləcəyi və bu sənədlərin 98 otaqda yerləşdiriləcəyi bildirilmişdir.

Yanvarın 26-da nümayəndə heyəti Frankfurt/Mayn şəhərinin yaxınlığındakı Bad Vilbel şəhərində yerləşən Hessen torpağının Ədliyyə Nazirliyinin İT (İnformasiya texnologiyaları) departamentin rəhbəri Manfred Beck və onun müavini Patrik Vagner ilə görüşmüşdür. Görüşdə "eJustice" proqramının əsas aspektləri və daha sonra "ayaq qandalı" proqramı barədə ətraflı məlumat verilmişdir. Elektron ayaq qandalı üzrə nəzarət idarəsinin əməkdaşı Sebastyan Rebayn tərəfindən qandalın işləmə prinsipi barədə danışılmışdır.

Nümayəndə heyəti Almaniya üzrə elektron "ayaq qandal"larına nəzarət idarəsində olmuşdur. İdarədə elektron "ayaq qandalı"nın Bad Vilbel şəhəri üzrə iş prinsipi elektron formada monitorlar vasitəsilə əyani nümayiş etdirilmişdir.

**Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**

№ 10/42-11/126-k

Bakı şəhəri 6 may 2015-ci il

**“Prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası prokurorluq işçilərinin xidməti fəaliyyətinin obyektiv meyarlar və şəffaf prosedurlar əsasında qiymətləndirilməsinin təmin olunması məqsədi ilə “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 2 və 14-cü, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 2.3 və 30-1-ci maddələrini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** «Prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları» təsdiq edilsin *(əlavə olunur).*

**2.** Prokurorluq orqanlarında “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş inzibati vəzifələrin üçüncü – yeddinci təsnifatları üzrə inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyasının 10 fevral 2014-cü il tarixli 021-Q nömrəli qərarı ilə təsdiq edilmiş “Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları”na uyğun olaraq aparılsın.

**3.** Azərbaycan Respublikası Baş Prokurorluğunun struktur qurumlarının rəhbərləri, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi, Bakı şəhər, rayon (şəhər) və ərazi hərbi prokurorları müvafiq prokurorluq işçilərinin xidməti fəaliyyətinin bu Qaydaların tələblərinə uyğun olaraq qiymətləndirilməsini təmin etsinlər.

**4.** Baş Prokurorluq üzrə “Prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydalarının təsdiq edilməsi barədə” 16 noyabr 2011-ci il tarixli 10/97-11/375-k nömrəli əmr və həmin əmrlə təsdiq edilmiş Qaydalar ləğv edilsin.

**5.** Əmrin icrasına nəzarət Baş Prokurorluğun Kadrlar idarəsinə həvalə edilsin.

**6.** Əmr “Azərbaycan Prokurorluğu” jurnalında dərc edilsin.

**7.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun bütün struktur qurumlarına və tabe prokurorluqlara göndərilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Zakir Qaralov**

*Azərbaycan Respublikası Baş prokurorunun 06.05.2015-ci il tarixli 10/42-11/126-k nömrəli əmri ilə təsdiq edilmişdir.*

**Prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi**

**Q A Y D A L A R I**

**Ümumi müddəalar**

**1.** «Prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları» (bundan sonra Qaydalar) “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 30–1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində göstərilmiş vəzifələrin üçüncü – doqquzuncu təsnifatlarına uyğun vəzifə tutan prokurorluq işçlərinin (bundan sonra – işçi) xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarını müəyyən edir.

**2.** Qaydaların məqsədi işçinin təqvim ili ərzində xidməti vəzifəsinin öhdəsindən gəlməsini, tutduğu vəzifəyə dair tələbləri yerinə yetirməsini qiymətləndirməkdən və gələcək inkişaf perspektivlərini müəyyən etməkdən ibarətdir.

**3.** Bu Qaydalarda aşağıdakı əsas anlayışlardan istifadə olunur:

**3.1.** bilavasitə rəhbər — işçinin birbaşa tabe olduğu vəzifəli şəxsdir;

**3.2.** qiymətləndirilmə forması — bilavasitə rəhbər tərəfindən tərtib edilmiş və işçi tərəfindən icra edilməli olan tapşırıqların müəyyən edildiyi, işçinin xidməti fəaliyyətinin qiymətləndirilməsi üçün əsas olan meyarların nəzərdə tutulduğu, onlar tərəfindən imzalanmış rəsmi sənəddir;

**3.3.** tapşırıqlar — bilavasitə rəhbər tərəfindən müəyyən edilən və işçinin təqvim ili ərzində icra etməli olduğu işlərdir;

**3.4.** meyarlar — işçi tərəfindən xidməti vəzifə və öhdəliklərinin yerinə yetirilməsi keyfiyyətini və potensialını, verilən tapşırıqların icra edilməsi səviyyəsini, peşə fəaliyyəti zamanı və iş prosesində davranış qaydalarına əməl edilməsi vəziyyətini dəyərləndirmək üçün əsas götürülən əlamətlərdir;

**3.5.** xidməti fəaliyyət — işçinin qanunvericiliklə ona verilmiş hüquqların həyata keçirilməsi və xidməti vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar peşəkar fəaliyyətidir;

**3.6.** yuxarı prokurorluq — Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarıdır;

**3.7.** struktur qurum — Baş Prokurorluğun, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi, Bakı şəhər prokurorluqlarının idarə və şöbələri, eləcə də prokurorluq sistemini təşkil edən digər qurumlarıdır.

**4.** Xidməti fəaliyyətin qiymətləndirilməsi "Prokurorluq işçisinin xidməti fəaliyyətinin qiymətləndirilməsi Forması" (bundan sonra – Forma) əsasında aparılır *(1 nömrəli Əlavə).*

**5.** Müvafiq vəzifədə altı aydan az müddətdə qulluq keçən işçinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə və qiymətləndirmə dövründə üç aydan az rəhbərlik etmiş bilavasitə rəhbərin qiymətləndirmə aparmasına yol verilmir. Bu halda qiymətləndirməni işçinin fəaliyyətini istiqamətləndirmiş rəhbər vəzifəli şəxs və ya müvafiq kadrlar idarəsi (şöbəsi) keçirir.

**6.** İşçinin xidməti fəaliyyətinin qiymətləndirilməsi, bununla bağlı məlumat və hesabatların təqdim edilməsi müasir informasiya texnologiyalarından istifadə edilməklə avtomatlaşdırılmış sistemlə elektron formada da həyata keçirilə bilər.

### Qiymətləndirmənin təşkili

**7.** İşçinin təqvim ilinin yanvar ayının 1-dən dekabr ayının 31-dək olan xidməti fəaliyyət dövrü (bundan sonra – qiymətləndirmə dövrü) həmin ilin sonunda onun tabe olduğu rəhbəri tərəfindən qiymətləndirilir.

**8.** İşçinin xidməti fəaliyyətinin qiymətləndirilməsi onun bilavasitə rəhbəri tərəfindən aşağıdakı tabeçilik üzrə aparılır:

**8.1.** Azərbaycan Respublikası Baş Prokurorluğunun (bundan sonra – Baş Prokurorluq) Təşkilat-analitik, Kadrlar, Beynəlxalq əlaqələr idarələri, Elm-Tədris Mərkəzi rəislərinin, Bakı şəhər prokuroru, həmçinin Baş prokurorun böyük köməkçiləri və köməkçilərinin xidməti fəaliyyəti Azərbaycan Respublikasının Baş prokuroru (bundan sonra – Baş prokuror);

**8.2.** Baş Prokurorluğun digər idarə, müstəqil şöbə rəislərinin xidməti fəaliyyəti vəzifə bölgüsünə uyğun olaraq Azərbaycan Respublikası Baş prokurorunun müvafiq müavini;

**8.3.** Baş Prokurorluğun idarə rəisinin müavinlərinin, habelə idarə tərkibində olan şöbə (xidmət) rəislərinin xidməti fəaliyyəti həmin idarənin rəisi;

**8.4.** Baş Prokurorluğun idarə və müstəqil şöbə işçilərinin xidməti fəaliyyəti müvafiq idarə və şöbə rəisi, idarə tərkibində olan şöbə (xidmət) işçilərinin xidməti fəaliyyəti isə müvafiq şöbə (xidmət) rəisi;

**8.5.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavinlərinin, idarə və şöbə rəislərinin xidməti fəaliyyəti Azərbaycan Respublikası Baş prokurorunun müavini – Baş İdarənin rəisi;

**8.6.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin idarə və şöbə işçilərinin xidməti fəaliyyəti müvafiq idarə və şöbə rəisi;

**8.7.** Qiymətləndirmənin nəticələri Baş prokuror tərəfindən təsdiq olunmaqla, Naxçıvan Muxtar Respublikası Hərbi və ərazi hərbi prokurorlarının fəaliyyəti Azərbaycan Respublikasının Hərbi prokuroru, Naxçıvan Muxtar Respublikasının şəhər və rayon prokurorlarının fəaliyyəti Naxçıvan Muxtar Respublikasının prokuroru, Bakı şəhərinin rayon prokurorlarının fəaliyyəti Bakı şəhər prokuroru tərəfindən, digər rayon (şəhər) prokurorlarının fəaliyyəti isə Baş Prokurorluğun Təşkilat-analitik və Kadrlar idarələrinin rəisləri tərəfindən birgə *(2 nömrəli Əlavə);*

**8.8.** Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi və Bakı şəhər prokurorunun müavinləri və köməkçilərinin, habelə həmin prokurorluqların idarə və şöbə rəislərinin xidməti fəaliyyəti həmin prokurorluqların rəhbərləri;

**8.9.** Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi və Bakı şəhər prokurorluqlarının idarə və müstəqil şöbə işçilərinin xidməti fəaliyyəti müvafiq idarə və şöbə rəisi, idarə tərkibində olan şöbə (xidmət) işçilərinin fəaliyyəti isə müvafiq şöbə (xidmət) rəisi;

**8.10.** rayon (şəhər) və ərazi hərbi prokurorluqlarının işçilərinin xidməti fəaliyyəti müvafiq prokuror tərəfindən qiymətləndirilir.

**9.** Rayon (şəhər) və ərazi hərbi prokurorlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi zamanı Baş prokurorun 06.05.2015-ci il tarixli 10/40 nömrəli əmri ilə təsdiq edilmiş "Rayon (şəhər) və ərazi hərbi prokurorlarının fəaliyyətinin yoxlanılması Qaydaları"nın tələbləri nəzərə alınır.

**10.** İşçinin xidməti fəaliyyətinin qiymətləndirilməsi aşağıdakı ardıcıllıqla və mərhələlərlə həyata keçirilir:

**10.1.** Təqvim ilinin yanvar ayının 30-dək tapşırıqlar və qiymətləndirmə meyarlarının mühümlük dərəcəsi müəyyən edilir və Formada qeyd olunur;

**10.2.** İşçinin illik ximdəti fəaliyyətinin qiymətləndirilməsi hər ilin dekabr ayının 1-dən gec olmayaraq başlanılır və növbəti ilin yanvar ayının 10-dək başa çatdırılır;

**10.3.** Struktur qurumun nəzdində fəaliyyət göstərən bilavasitə rəhbər işçisinin qiymətləndirilməsini həyata keçirdikdən sonra Formanı təsdiq edilməsi üçün həmin qurumun rəhbərinə təqdim edir. Struktur qurumun rəhbəri tərəfindən təsdiq edilmiş Formalar əsasında yuxarı prokurorluğun rəhbəri hesabat hazırlayır *(3 nömrəli Əlavə).* Həmin hesabat Formalarla birlikdə fevral ayının 1-dək Baş Prokurorluğun Kadrlar idarəsinə (bundan sonra – Kadrlar idarəsi) təqdim edilir.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu, Baş Prokurorluğun struktur qurumlarının rəhbərləri və bilavasitə Baş Prokurorluğun tabeliyində olan rayon (şəhər) prokurorları hesabat və formaları yuxarıda müəyyən olunmuş müddətdə birbaşa Kadrlar idarəsinə təqdim edir. Forma işçinin şəxsi işinə əlavə edilir.

**10.4.** Kadrlar idarəsi qiymətləndirmənin nəticələrini təhlil etməklə prokurorluq üzrə yekun hesabat hazırlayır və fevral ayının 20-dək Baş prokurora təqdim edir *(4 nömrəli Əlavə).*

**10.5.** Baş prokuror yekun hesabatı təsdiq etdikdən sonra Kadrlar idarəsi qiymətləndirmənin nəticəsindən asılı olaraq işçi barəsində bu Qaydalarda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi ilə bağlı Baş prokurora təkliflər verir.

### Meyarlar üzrə qiymətləndirilmə

**11.** İşçinin xidməti fəaliyyətinin meyarlara görə qiymətləndirilməsi məqsədi ilə rəhbər tərəfindən hər ilin yanvar ayında işçi qarşısında təqvim ili ərzində icra etməli olduğu 2-dən 6-dək tapşırıqlar qoyulur. Tapşırıqlar Formanın 1-ci bölməsində qeyd olunur, bilavasitə rəhbər və işçi tərəfindən imzalanır.

**12.** Tapşırıqlar işçinin qulluq keçdiyi müvafiq prokurorluğun fəaliyyət istiqamətlərinə uyğun və işçinin qulluq funksiyaları çərçivəsində olmalıdır. Tapşırıqların icra müddəti dəqiq müəyyən edilməli, yerinə yetirilə bilən olmalı, onların icra edilməsindən gözlənilən nəticə müəyyən edilməlidir.

**13.** Qoyulan tapşırıqların, xidməti vəzifə və öhdəliklərin yerinə yetirilməsi keyfiyyəti, tapşırıqların icra edilməsi səviyyəsi və peşə fəaliyyəti zamanı işçinin davranış qaydalarına əməl etməsi vəziyyəti meyarlar üzrə qiymətləndirilir. Qoyulmuş tapşırıqlara uyğun olaraq meyarların mühümlük dərəcəsi müəyyənləşdirilməklə Formada qeyd edilir.

**14.** Forma mütəmadi olaraq bilavasitə rəhbər tərəfindən nəzərdən keçirilir. İlin əvvəlində qoyulmuş tapşırıqlarda, tapşırıqların icra müddətlərində və meyarların mühümlük dərəcəsində hər hansı bir dəyişiklik olduğu halda onlar Formada qeyd edilir, işçi və onun bilavasitə rəhbəri tərəfindən imzalanır.

**15.** Qiymətləndirmə dövrü ərzində bilavasitə rəhbər dəyişdikdə və ya işçi yeni vəzifəyə keçirildikdə onun əvvəlki rəhbəri işlədiyi müddət üçün Formanı doldurur və müvafiq kadrlar idarəsinə (şöbəsinə) təqdim edir. Yeni rəhbər qiymətləndirmə dövrü üzrə əvvəlki rəhbərin qeydlərini nəzərə alır.

**16.1.** İşçinin xidməti fəaliyyəti aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

**16.1.1.** Peşə bilikləri – işçinin tutduğu vəzifə üzrə qanunvericiliyin düzgün tətbiq edilməsi, habelə Baş prokurorun 07.10.2010-cu il tarixli 10/90 nömrəli əmri ilə təsdiq edilmiş "Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması Qaydaları"nın tələblərinə uyğun olaraq biliklərinin qiymətləndirilməsi nəzərdə tutulur;

**16.1.2.** Xidməti vəzifələrə münasibət – işçinin vəzifəsini, rəhbərlərin öz səlahiyyəti daxilində verdikləri əmr və tapşırıqları sərbəst, tələb edilən səviyyədə və vaxtında yerinə yetirmək, sənədləri keyfiyyətlə tərtib etmək, fəal olmaq, tələb olunandan da artıq nailiyyətlər əldə etmək üçün çalışmaq bacarığının qiymətləndirilməsi nəzərdə tutulur;

**16.1.3.** Təhlil aparmaq, çətinlikləri həll etmək və qərar vermək bacarığı – xidməti sənəd və faktları diqqətlə təhlil etmək, cari tapşırıqları və çətinlikləri aşkar etmək, düzgün nəticəyə gəlmək üçün müxtəlif mənbələrdən olan məlumatları müqayisə etmək və çətinliklərin həlli yollarını müəyyənləşdirmək, qanunauyğun və məntiqi qərarlar qəbul etmək bacarığının qiymətləndirilməsi nəzərdə tutulur;

**16.1.4.** Yaradıcılıq və təşəbbüskarlıq – çalışdığı sahənin inkişafı ilə bağlı yaradıcı və səmərəli təkliflər irəli sürmək, işdəki çətinliklər və faktlarla bağlı müxtəlif və qeyri-standart həll etmə üsullarını sınaqdan keçirmək, təşəbbüs göstərməkdə sərbəstliyinin qiymətləndirilməsi nəzərdə tutulur;

**16.1.5.** Əmək intizamı – işçinin intizama və etik davranış qaydalarına riayət etməsinin qiymətləndirilməsi nəzərdə tutulur;

**16.1.6.** İş təcrübəsi və onu bölüşmə – qulluq keçdiyi sahədə əmək vərdişlərinin formalaşması, onları kollektiv üzvləri ilə bölüşməsi və yeni təcrübəyə yiyələnmək bacarığının qiymətləndirilməsi nəzərdə tutulur;

**16.1.7.** Kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər – komanda tərkibində və iş yoldaşları ilə sıx əlaqədə işləmək, rəhbərlərlə və iş yoldaşları ilə ünsiyyət, xoş və işgüzar münasibətlər qurmaq, iş yoldaşlarına dəstək olmaq və lazım gəldikdə onlardan dəstək ala bilmək, qrupun fəal üzvü olaraq hədəflərin gerçəkləşməsinə çalışmaq, iş üzrə hədəflərə nail olmaq üçün digər qurumlar, şöbələr, xidmətlər və əməkdaşlarla əlaqələr qurmaq bacarığının qiymətləndirilməsi nəzərdə tutulur.

**16.2.** Rəhbər işçilərin qiymətləndirilməsi əlavə olaraq aşağıdakı meyarlar əsasında aparılır:

**16.2.1.** Təhlil və proqnozlaşdırma – müvafiq prokurorluğun fəaliyyətinin analitik təhlilini aparmaq, fəaliyyət istiqamətlərinə, hazırlanan layihələrə dair təkliflər vermək və prokurorluğun gələcək planları ilə əlaqədar verdiyi təkliflər üzrə əldə edilən nəticələrin qiymətləndirilməsi nəzərdə tutulur;

**16.2.2.** İdarəetmə – işçilərə rəhbərlik etmək, onlara mənəvi dəstək olmaq, işçilərinin bilik və bacarıqlarının inkişafını dəstəkləmək, işçilərin hədəflərə

çatmasına yardım etmək üçün vaxtında öz rəyini bildirmək, onları istiqamətləndirmək, kadr potensialından düzgün istifadə etməklə daim işin səmərəli təşkilinə nail olmaq, təşkilatçılıq, tabeliyindəki işçiləri vəzifələri üzrə təlimatlandırmaq, vaxtında həvəsləndirmək və yaxud həvəsləndirmə tədbirlərinin görülməsi üçün təkliflər vermək, müvafiq prokurorluğun fəaliyyət istiqamətlərinə uyğun olaraq təyinatını optimal surətdə təmin etmək, həmçinin qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda qərarların qəbul edilməsi bacarıqlarının qiymətləndirilməsi nəzərdə tutulur;

**16.2.3.** Kollektiv daxilində nüfuz və ruhlandırmaq bacarığı – rəhbər nüfuzunu saxlamaq, tabeliyindəki işçiləri ruhlandırmaq, onlarla xoş, qarşılıqlı işgüzar münasibətlər qura bilmək, çətinliklərin həllində dəstək olmaq, onları düzgün istiqamətləndirmək və təşəbbüskarlığını dəstəkləmək bacarıqlarının qiymətləndirilməsi nəzərdə tutulur;

**16.2.4.** Komanda qurmaq bacarığı – verilmiş tapşırıqların müvəffəqiyyətlə həllinə nail olmaq və yaranan çətinliklərin aradan qaldırılması üçün tabeliyindəki işçiləri səfərbər etmək və kollektiv üzvləri arasında qarşılıqlı etimada əsaslanan münasibətlər yarada bilmək bacarığının qiymətləndirilməsi nəzərdə tutulur.

**17.** Qiymətləndirmə dövrü ərzində bilavasitə rəhbər işçinin fəaliyyətini istiqamətləndirir, ona nəzarət edir və müvafiq məsləhətlər verir. Rəhbər tabeliyində olan işçilərin rüblük fəaliyyətini təhlil etməli, onun nəticəsi barədə xüsusi qeydlər aparmalı, hər rübün nəticələri ilə bağlı işçilərlə görüşməli (müvafiq olaraq mart, iyun, sentyabr aylarının sonuncu həftəsi və dekabr ayının əvvəlində), onların güclü və zəif cəhətlərini müzakirə etməli, çatışmazlıqların aradan qaldırılması üçün növbəti rüblərdə müvafiq tədbirlər görməlidir.

**18.** İşçilərin illik fəaliyyətini qiymətləndirərkən bilavasitə rəhbər hər bir tapşırığın yerinə yetirilib-yetirilməməsi haqqında işçidən məlumat alır, il ərzində apardığı müşahidələr, rüblük qeydlər əsasında ümumiləşdirmə aparır, icra müddətinə nəzarət edir və hər bir tapşırığın tələb olunan səviyyədə (gözlənilən nəticəyə uyğun olaraq) yerinə yetirilib-yetirilməməsini müəyyən edir.

Göstərilənləri nəzərə almaqla, qoyulan tapşırıqların işçi tərəfindən yerinə yetirilməsi keyfiyyətini, tapşırıqların icra edilməsi səviyyəsini, tapşırıqlar icra edilərkən xidməti vəzifələrinə münasibətini və peşə fəaliyyəti zamanı davranış qaydalarına əməl edilməsi vəziyyətini meyarlar üzrə qiymətləndirir. Qiymətləndirmə balları müəyyən olunan zaman "Meyarlar üzrə qiymətləndirmə ballarının açıqlanması"ndan istifadə edilir *(5 nömrəli Əlavə).*

**19.** İşçinin xidməti fəaliyyəti meyarlar üzrə qiymətləndirilərkən ona aşağıdakı qiymətlərdən biri verilir:

**19.1.** əla (5) – bacarığı tələb ediləndən yüksək səviyyədə nümayiş etdirib, vəzifəsini tələb ediləndən yüksək səviyyədə icra edib;

**19.2.** yaxşı (4) – bacarığı tələb edilən səviyyədə nümayiş etdirib, vəzifəsini tələb edilən səviyyədə icra edib;

**19.3.** kafi (3) – qənaətbəxşdir, bacarığı əsasən nümayiş etdirib, vəzifəsini əsasən icra edib, inkişafa ehtiyacı var;

**19.4.** qeyri-kafi (2) – qənaətbəxş deyildir, bacarığı nadir hallarda nümayiş etdirib və ya nümayiş etdirməyib, vəzifəsini qismən icra edib və ya icra etməyib.

**20.** Bilavasitə rəhbər meyarları qiymətləndirərkən qiyməti şərh etməli və yazılı olaraq əsaslandırmalıdır.

**21.** Hər bir meyar üzrə bu Qaydaların 19-cu bəndində nəzərdə tutulmuş qiymətlərdən biri verilir. Verilmiş qiymət meyarın mühümlük dərəcəsinə vurularaq hər bir meyar üzrə fərdi qiymət müəyyən edilir və bu qiymətlər toplanaraq işçinin xidməti fəaliyyəti üzrə ümumi qiymət çıxarılır.

**22.** İşçinin xidməti fəaliyyəti üzrə qiymət müəyyən edildikdən sonra onunla müsahibə keçirilir. Müsahibə işçinin öz fikrini ifadə etməkdə hər hansı bir təsir və ya təzyiq göstərilmədən müzakirə formasında, qiymətləndirilən işçinin fikrinə hörmət və qarşılıqlı anlaşma şəraitində aparılır.

**23.** Müsahibə prosesində işçinin xidməti fəaliyyətinə verilən qiymət və şərhlər müzakirə olunur. Gözlənilən nəticələr və işçinin arzuları barədə fikir mübadiləsi aparılmaqla onun xidməti fəaliyyəti üzrə növbəti qiymətləndirilmə ili üçün tapşırıqlar və tapşırıqlar üzrə meyarların mühümlük dərəcəsi müəyyən edilə bilər.

**24.** Müsahibə müddətində işçi qiymətləndirmə ilə razı olmadıqda, narazılığını əsaslandırmalıdır. İşçinin narazılığı əsaslı olduqda təklif olunan qiymətdə dəyişiklik edilir. İşçi qiymətləndirilmənin sonunda Formada qiymətləndirilmənin nəticələri barədə öz rəyini bildirir. Forma bütün qiymətlər və qeydlər edilməsi şərti ilə işçi və onun bilavasitə rəhbəri tərəfindən imzalanır.

**25.** Bilavasitə rəhbərin və ya işçinin səhhəti, psixoloji və mənəvi durumu müsahibənin aparılmasına imkan vermədiyi hallarda, müsahibə qeyd edilən hallar aradan qaldırılanadək təxirə salınır.

**26.** Müsahibənin qiyabi aparılmasına yol verilmir. Hər hansı bir səbəbdən iş yerində olmayan işçinin xidməti fəaliyyətinin qiymətləndirilməsi bu səbəb aradan qaldırıldıqdan sonra həyata keçirilir.

**27.** Qiymətləndirmə ilə bağlı işçi və rəhbəri arasında fikir ayrılığı yaranarsa, işçi bu barədə rəhbərin fəaliyyətinə nəzarət edən vəzifəli şəxsə və ya Kadrlar idarəsinə müraciət edə bilər. Onlar qiymətləndirmənin nəticələri ilə razı olmadıqda yenidən qiymətləndirmənin aparılmasını təklif edə bilər və bunun əsasında yenidən qiymətləndirilmə keçirilə bilər. İşçi yekun qərarla razılaşmadıqda 5 gün ərzində Baş prokurora şikayət verə bilər. Şikayətə 7 gün müddətində baxılır. Baş prokuror şikayət üzrə araşdırma nəticəsində qiymətləndirmənin nəticəsinin qüvvədə saxlanılması və ya ləğv edilərək yenidən qiymətləndirilmənin keçirilməsi barədə qərar qəbul edir. İşçi Baş prokurorun qərarından qanunla müəyyən edilmiş qaydada məhkəməyə şikayət verə bilər.

### Xidməti fəaliyyətin qiymətləndirilməsi üzrə hüquq və vəzifələr

**28.** Qaydaların tətbiqi üzrə Baş prokuror, yuxarı prokurorluğun (struktur qurumun) rəhbəri, bilavasitə

rəhbər, işçi və Kadrlar idarəsi müvafiq olaraq aşağıdakı hüquq və vəzifələrə malikdir:

**28.1.1.** Baş prokuror:

**28.1.2.** qiymətləndirmənin vaxtında, obyektiv və qərəzsiz aparılmasına nəzarət edir;

**28.1.3.** qiymətləndirmənin nəticəsinə əsasən işçinin rəhbər vəzifələrin tutulması üçün ehtiyat kadrlar siyahısına daxil edilməsinə nəzarət edir;

**28.1.4.** qiymətləndirmənin nəticəsinə uyğun olaraq Qaydaların 29-cu bəndində nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin edir.

**28.2.** Yuxarı prokurorluğun və ya struktur qurumun rəhbəri:

**28.2.1.** qiymətləndirmənin vaxtında, obyektiv və qərəzsiz aparılmasını təmin edir;

**28.2.2.** bilavasitə rəhbər və xidməti fəaliyyəti qiymətləndirilən işçi arasında yaranan mübahisələri qarşılıqlı müzakirələr yolu ilə həll edir;

**28.2.3.** tabeçiliyində olan bilavasitə rəhbər tərəfindən həyata keçirilmiş qiymətləndirilmənin nəticələri ilə razı olmadıqda, onun yenidən aparılmasını təklif edir;

**28.2.4.** işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri barədə hesabatı imzalayır;

**28.2.5.** təsdiq edilmiş Formanı bu Qaydalarla müəyyən edilmiş vaxtdan gec olmayaraq Kadrlar idarəsinə göndərilməsini təmin edir;

**28.2.6.** yuxarı prokurorluq və ya struktur qurum daxilində Qaydalara dürüst riayət olunması, habelə qiymətləndirmənin obyektiv və qərəzsiz aparılması üçün məsuliyyət daşıyır;

**28.2.7.** işçinin xidməti fəaliyyətinin qiymətləndirilməsi yuxarı prokurorluq və ya struktur qurumun rəhbəri tərəfindən həyata keçirildikdə Qaydaların 28.3-cü bəndində nəzərdə tutulmuş vəzifələr də onun tərəfindən icra edilir.

**28.3.** Bilavasitə rəhbər:

**28.3.1.** işçinin qarşısında qoyulan tapşırıqların qiymətləndirmə dövrü ərzində hansı səviyyədə yerinə yetirilməsi vəziyyətini müəyyənləşdirir;

**28.3.2.** növbəti qiymətləndirmə dövrü üçün işçinin tapşırıqlarını müəyyən edir, onların yerinə yetirilməsi üçün məsləhətlər verir;

**28.3.3.** işçinin xidməti fəaliyyətini qiymətləndirmə meyarları əsasında qiymətləndirir;

**28.3.4.** işçinin ximdəti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri barədə forma və hesabat hazırlayır, təsdiq olunması üçün rəhbərinə təqdim edir;

**28.3.5.** işçinin fəaliyyətini, təlimlərə olan tələbatını və gələcək inkişaf perspektivlərini onunla müzakirə edir;

**28.3.6.** qiymətləndirmənin dürüst, obyektiv və qərəzsiz keçirilməsinə görə bilavasitə məsuliyyət daşıyır.

**28.4.** İşçi:

**28.4.1.** qiymətləndirilmə dövrü ərzində gördüyü işləri nəzərdən keçirir və qiymətləndirməyə hazırlaşır (əldə etdiyi nailiyyətlər, üzləşdiyi çətinliklər və s.);

**28.4.2.** qiymətləndirmə zamanı müzakirə etmək istədiyi məsələlər haqqında qeydlər edir (təlimə olan tələbatlar, vəzifədə irəliləyiş arzusu və s.);

**28.4.3.** qiymətləndirmə dövrü ərzində əldə etdiyi nailiyyətləri qiymətləndirənə (bilavasitə rəhbərə) təqdim edir;

**28.4.4.** qiymətləndirənlə əldə etdiyi nailiyyətləri, qarşılaşdığı çətinlikləri, həmçinin bilik və bacarıqlarından daha səmərəli istifadə edilməsi yollarını açıq və konstruktiv şəkildə müzakirə edir;

**28.4.5.** qiymətləndirmənin nəticəsi ilə razılaşmadıqda Qaydaların 27-ci bəndinin tələblərinə uyğun olaraq yazılı şəkildə müraciət edir.

**28.5.** Kadrlar idarəsi:

**28.5.1.** zərurət olduqda işçinin xidməti fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı təlim kursları təşkil edir;

**28.5.2.** formaların hazırlanmasına nəzarət edir;

**28.5.3.** qiymətləndirmə prosesində müvafiq prokurorluqlara, prokurorluqların struktur qurumlarına metodoloji köməklik göstərir;

**28.5.4.** işçinin xidməti fəaliyyətinin qiymətləndirilməsinin təkmilləşdirilməsi ilə bağlı təkliflər verir;

**28.5.5.** işçilərin xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarına dürüst riayət olunmasına, qiymətləndirmənin obyektiv, qərəzsiz, bərabərlik prinsipi əsasında və bu Qaydalarla müəyyən olunmuş vaxt ərzində aparılmasına nəzarət edir;

**28.5.6.** qiymətləndirmənin qeyri-obyektiv aparılması müəyyən olunduqda onun yenidən aparılmasını struktur qurumun rəhbərinə tövsiyə edir;

**28.5.7.** qiymətləndirmənin nəticələri barədə məlumatı toplayır və həmin məlumatlar əsasında yekun hesabat hazırlayaraq təsdiq edilməsi üçün Baş prokurora təqdim edir.

**28.6.** Struktur qurum vahid tərkibdən ibarət olduqda, struktur qurumun rəhbəri bilavasitə rəhbərin vəzifələrini icra edir.

### Qiymətləndirilmənin nəticəsinə əsasən tətbiq edilən tədbirlər

**29.** Xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticəsinə əsasən işçi barəsində aşağıdakı tədbirlərdən biri tətbiq edilə bilər:

**29.1.** qiymət 5 və 4.6 arasında (əla) olduqda və işçi bu qiymətlə iki il ardıcıl olaraq qiymətləndirildikdə onun yuxarı vəzifəyə keçirilməsi, rəhbər vəzifələrin tutulması üçün ehtiyat kadrlar siyahısına daxil edilməsi, digər həvəsləndirmə tədbirləri;

**29.2.** qiymət 4.5 və 3.6 arasında (yaxşı) olduqda və işçi bu qiymətlə üç il ardıcıl olaraq qiymətləndirildikdə onun yuxarı vəzifəyə keçirilməsi və ya barəsində həvəsləndirmə tədbirləri;

**29.3.** qiymət 3.5 və 2.6 arasında (kafi) olduqda işçinin iş fəaliyyətinin yaxşılaşdırılması və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə müvafiq tədbirlər;

**29.4.** qiymət 2.5 və daha aşağı (qeyri-kafi) olduqda bu qiymət növbəti qiymətləndirilmə zamanı dəyişməzsə, işçinin digər analoji vəzifəyə keçirilməsi və bu qiymət yenidən növbəti qiymətləndirilmə zamanı dəyişməzsə, onun aşağı vəzifəyə keçirilməsi.

**Baş Prokurorluğun Kadrlar idarəsi**

**Prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydalarına 1 nömrəli Əlavə**

| | |
|---|---|
| prokurorluq orqanının adı | **İşçinin xidməti fəaliyyətinin qiymətləndirilməsi forması**<br>___________ il |

| | | |
|---|---|---|
| İşçinin soyadı, adı, atasının adı: | Qulluq keçdiyi şöbə *(olduğu halda):* | Qulluq keçdiyi idarə *(olduğu halda):* |
| Vəzifəsi və rütbəsi: | Bu vəzifəyə təyin olunduğu tarix: | Formanın hazırlanma tarixi: |
| Bilavasitə rəhbərinin adı, soyadı, vəzifəsi və rütbəsi: | İdarə rəisinin adı, soyadı, vəzifəsi və rütbəsi *(olduğu halda):* | Qiymətləndirilmə dövrü: |

**Tapşırıqlar**
(Qaydaların 11-ci bəndinə uyğun olaraq tapşırıqlar və həmin tapşırıqlara uyğun olaraq meyarların mühümlük dərəcəsi qiymətləndirmə dövrünün əvvəlində qarşılıqlı razılıq əsasında müəyyən edilir)

| Tapşırıqların adı (2-dən 6-dək mühüm əhəmiyyətli tapşırıqları sadalayın) | İcra müddəti | Qeydlər |
|---|---|---|
| 1. | | |
| 2. | | |
| 3. | | |

**Tarix** **Bilavasitə rəhbərin imzası** **İşçinin imzası**

**Formanın nəzərdən keçirilməsi** (Qaydaların 14-cü bəndinə uyğun olaraq)
Nəzərdən keçirilmə tarixi:
Yeni tapşırıqlar:

**Tarix** **Bilavasitə rəhbərin imzası** **İşçinin imzası**

**Bilavasitə rəhbərin dəyişməsi və işçinin digər vəzifəyə keçirilməsinə dair qeydlər**
(Qaydaların 15-ci bəndinə uyğun olaraq)

| |
|---|
| Aşağıda adı göstərilən rəhbərin qiymətləndirmə ilə bağlı qeydləri nəzərə alınmışdır:<br>adı, soyadı: ……………………………. qulluq keçdiyi prokurorluq orqanı: ………………………………….… |
| Səbəb<br>☐ işçi digər vəzifəyə keçirilmişdir<br>☐ rəhbər dəyişmişdir |

**Rəhbərin dəyişməsi və işçinin digər vəzifəyə keçirilməsi ilə bağlı yeni tapşırıqlar müəyyən edilərsə, müvafiq tapşırıqlar və həmin tapşırıqlar üzrə meyarların mühümlük dərəcəsi müzakirə olunur və təsdiq olunur.**

| |
|---|
| (2-dən 6-dək mühüm əhəmiyyətli tapşırıqları sadalayın) |
| |

**Tarix** **Bilavasitə rəhbərin imzası** **İşçinin imzası**

| Xidməti fəaliyyətin qiymətləndirilməsi<br>(müəyyən edilmiş mühüm tapşırıqlar üzrə) | | | |
|---|---|---|---|
| **Xidməti fəaliyyətin qiymətləndirilməsi meyarları** | **Meyarın mühümlüyü**<br><br>(Mühümlük faizlə göstərilir. Meyarların mühümlük dərəcəsinin məcmusu 100 faiz olmalıdır) | **Meyar üzrə verilən qiymət:**<br>*5= vəzifəsini tələb ediləndən yüksək səviyyədə icra edib*<br>*4 = vəzifəsini tələb edilən səviyyədə icra edib;*<br>*3 = qənaətbəxşdir, vəzifəsini əsasən icra edib, inkişafa ehtiyacı var;*<br>*2 = vəzifəsini qismən icra edib və ya icra etməyib.* | **Meyar üzrə fərdi qiymət:**<br><br>(Mühümlük faizi x qiymətə) |
| **1. Peşə bilikləri**<br>*işçinin tutduğu vəzifə üzrə qanunvericiliyin düzgün tətbiq edilməsi, habelə Baş prokurorun 07.10.2010-cu il tarixli 10/90 nömrəli əmri ilə təsdiq edilmiş "Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması Qaydaları"nın tələblərinə uyğun olaraq biliklərinin qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **2. Xidməti vəzifələrə münasibət**<br>*işçinin vəzifəsini, rəhbərlərin öz səlahiyyəti daxilində verdikləri əmr və tapşırıqları sərbəst, tələb edilən səviyyədə və vaxtında yerinə yetirmək, sənədləri keyfiyyətlə tərtib etmək, fəal olmaq, tələb olunandan da artıq nailiyyətlər əldə etmək üçün çalışmaq bacarığının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **3. Təhlil aparmaq, çətinlikləri həll etmək və qərar vermək bacarığı**<br>*xidməti sənəd və faktları diqqətlə təhlil etmək, cari tapşırıqları və çətinlikləri aşkar etmək, düzgün nəticəyə gəlmək üçün müxtəlif mənbələrdən olan məlumatları müqayisə etmək və çətinliklərin həlli yollarını müəyyənləşdirmək, qanunauyğun və məntiqi qərarlar qəbul etmək bacarığının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **4. Yaradıcılıq və təşəbbüskarlıq**<br>*çalışdığı sahənin inkişafı ilə bağlı yaradıcı və səmərəli təkliflər irəli sürmək, işdəki çətinliklər və faktlarla bağlı müxtəlif və qeyri-standart həll etmə üsullarını sınaqdan keçirmək, təşəbbüs göstərməkdə sərbəstliyinin qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| ***5. Əmək intizamı***<br>*işçinin intizama və etik davranış qaydalarına riayət etməsinin qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| ***6. İş təcrübəsi və onu bölüşmə***<br>*qulluq keçdiyi sahədə əmək vərdişlərinin formalaşması, onları kollektiv üzvləri ilə bölüşməsi və yeni təcrübəyə yiyələnmək bacarığının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |

| | | | |
|---|---|---|---|
| **7. Kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər**<br>*komanda tərkibində və iş yoldaşları ilə sıx əlaqədə işləmək, rəhbərlərlə və iş yoldaşları ilə ünsiyyət, xoş və işgüzar münasibətlər qurmaq, iş yoldaşlarına dəstək olmaq və lazım gəldikdə onlardan dəstək ala bilmək, qrupun fəal üzvü olaraq qrup hədəflərinin gerçəkləşməsinə çalışmaq, iş üzrə hədəflərə nail olmaq üçün digər qurumlar, şöbələr, sektorlar və əməkdaşlarla əlaqələr qurmaq bacarığının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **Rəhbər işçilərin qiymətləndirilməsi** | | | |
| **1. Təhlil və proqnozlaşdırma**<br>*struktur qurumun, rayon (şəhər) və ya ərazi hərbi prokurorluğun fəaliyyətinin analitik təhlilini aparmaq, fəaliyyət istiqamətlərinə, hazırlanan layihələrə dair təkliflər vermək və prokurorluğun gələcək planları ilə əlaqədar verdiyi təkliflər üzrə əldə edilən nəticələrin qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **2. İdarəetmə**<br>*işçilərə rəhbərlik etmək, onlara mənəvi dəstək olmaq, işçilərinin bilik və bacarıqlarının inkişafını dəstəkləmək, işçilərin hədəflərə çatmasına yardım etmək üçün vaxtında öz rəyini bildirmək, onları istiqamətləndirmək, kadr potensialından düzgün istifadə etməklə daim işin səmərəli təşkilinə nail olmaq, təşkilatçılıq, tabeliyindəki işçiləri vəzifələri üzrə təlimatlandırmaq, vaxtında həvəsləndirmək və yaxud həvəsləndirmə tədbirlərinin görülməsi üçün təkliflər vermək, müvafiq prokurorluğun fəaliyyət istiqamətlərinə uyğun olaraq təyinatını optimal surətdə təmin etmək, həmçinin qanunvercilikla müəyyən edilmiş qaydada və hallarda qərarların qəbul edilməsi bacarıqlarının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **3. Kollektiv daxilində nüfuz və ruhlandırmaq bacarığı**<br>*rəhbər nüfuzunu saxlamaq, tabeliyindəki işçiləri ruhlandırmaq, onlarla xoş, qarşılıqlı işgüzar münasibətlər qura bilmək, çətinliklərin həllində dəstək olmaq, onları düzgün istiqamətləndirmək və təşəbbüskarlığını dəstəkləmək bacarıqlarının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **4. Komanda qurmaq bacarığı**<br>*verilmiş tapşırıqların müvəffəqiyyətlə həllinə nail olmaq və yaranan çətinliklərin aradan qaldırılması üçün tabeliyindəki işçiləri səfərbər etmək və kollektiv üzvləri arasında qarşılıqlı etimada əsaslanan münasibətlər yarada bilmək bacarığının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **Xidməti fəaliyyət üzrə qiymət**<br>*(meyarlar üzrə fərdi qiymətlər toplanır)* | *100%* | | |

**İşçinin fəaliyyətinin təkmilləşdirilməsinə və təlimlərə olan tələbatlarına dair təkliflər:**

| |
|---|
| Təkmilləşdirilməli olan bacarıqlar: (təkmilləşdirilməli olan bacarıqlar qeyd olunmalı)<br><br>Tələb olunan təlimlər: (tələb olunan ixtisasartırma kursları, təlimlər, o cümlədən idarəetmə, xarici dil, kompüter biliyi və s. üzrə təlimlər qeyd olunmalı) |
| Bilavasitə rəhbərin əlavə qeydləri: |

| **Qiymətləndirilmə barədə işçinin rəyi:**<br>(mütləq qiymətləndirilən tərəfindən doldurulmalıdır) | | |
|---|---|---|
| **İşçi:** | **Bilavasitə rəhbər:** | **Struktur qurumun rəhbəri:** |
| Soyadı, adı, atasının adı | Soyadı, adı, atasının adı | Soyadı, adı, atasının adı |
| Vəzifəsi | Vəzifəsi | Vəzifəsi |
| Rütbəsi | Rütbəsi | Rütbəsi |
| İmza | İmza | İmza |
| Tarix | Tarix | Tarix |

**Prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydalarına 2 nömrəli Əlavə**

**Təsdiq edirəm**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

**____________________ Zakir Qaralov**

| |
|---|
| **Rayon (şəhər) və ya ərazi hərbi prokurorluqlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi forması**<br>**__________ il** |

| Prokurorun soyadı, adı, atasının adı: | | |
|---|---|---|
| Vəzifəsi və rütbəsi: | Bu vəzifəyə təyin olunduğu tarix: | Formanın hazırlanma tarixi: |
| Qiymətləndirilmə dövrü: | | |

**Tapşırıqlar**
(Qaydaların 11-ci bəndinə uyğun olaraq tapşırıqlar və həmin tapşırıqlara uyğun olaraq meyarların mühümlük dərəcəsi qiymətləndirmə dövrünün əvvəlində qarşılıqlı razılıq əsasında müəyyən edilir)

| Tapşırıqların adı (2-dən 6-dək mühüm əhəmiyyətli tapşırıqları sadalayın) | İcra müddəti | Qeydlər |
|---|---|---|
| 1. | | |
| 2. | | |
| 3. | | |

**Tarix** **Yuxarı prokurorun imzası** **Prokurorun imzası**

**Formanın nəzərdən keçirilməsi** (Qaydaların 14-cü bəndinə uyğun olaraq)
Nəzərdən keçirilmə tarixi:
Yeni tapşırıqlar:

**Tarix** **Yuxarı prokurorun imzası** **Prokurorun imzası**

**Yuxarı prokurorun dəyişməsi və prokurorun digər vəzifəyə keçirilməsinə dair qeydlər**
(Qaydaların 15-ci bəndinə uyğun olaraq)

| |
|---|
| Aşağıda adı göstərilən yuxarı prokurorun qiymətləndirmə ilə bağlı qeydləri nəzərə alınmışdır:<br>adı, soyadı: ……………………….. vəzifəsi: ……………………………………… |
| Səbəb<br>☐ prokuror digər vəzifəyə keçirilmişdir<br>☐ yuxarı prokuror dəyişmişdir |

**Yuxarı prokurorun dəyişməsi və prokurorun digər vəzifəyə keçirilməsi ilə bağlı yeni tapşırıqlar müəyyən edilərsə, müvafiq tapşırıqlar və həmin tapşırıqlar üzrə meyarların mühümlük dərəcəsi müzakirə olunur və təsdiq olunur.**

| |
|---|
| (2-dən 6-dək mühüm əhəmiyyətli tapşırıqları sadalayın) |

**Tarix** **Yuxarı prokurorun imzası** **Prokurorun imzası**

| **Xidməti fəaliyyətin qiymətləndirilməsi** (müəyyən edilmiş mühüm tapşırıqlar üzrə) | | | |
|---|---|---|---|
| **Xidməti fəaliyyətin qiymətləndirilməsi meyarları** | **Meyarın mühümlüyü**<br>(Mühümlük faizlə göstərilir. Meyarların mühümlük dərəcəsinin məcmusu 100 faiz olmalıdır) | **Meyar üzrə verilən qiymət:**<br>*5= vəzifəsini tələb ediləndən yüksək səviyyədə icra edib*<br>*4 = vəzifəsini tələb edilən səviyyədə icra edib;*<br>*3 = qənaətbəxşdir, vəzifəsini əsasən icra edib, inkişafa ehtiyacı var;*<br>*2 = vəzifəsini qismən icra edib və ya icra etməyib.* | **Meyar üzrə fərdi qiymət:**<br>(Mühümlük faizi x qiymətə) |
| **1. Peşə bilikləri**<br>*prokurorun tutduğu vəzifə üzrə qanunvericiliyin düzgün tətbiq edilməsi, habelə Baş prokurorun 07.10.2010-cu il tarixli 10/90 nömrəli əmri ilə təsdiq edilmiş "Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması Qaydaları"nın tələblərinə uyğun olaraq biliklərinin qiymətləndirilməsi nəzərdə tutulur* | | | |

| | | | |
|---|---|---|---|
| **2. Xidməti vəzifələrə münasibət**<br>*prokuror vəzifəsini, rəhbərlərin öz səlahiyyəti daxilində verdikləri əmr və tapşırıqları sərbəst, tələb edilən səviyyədə və vaxtında yerinə yetirmək, sənədləri keyfiyyətlə tərtib etmək, fəal olmaq, tələb olunandan da artıq nailiyyətlər əldə etmək üçün çalışmaq bacarığının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **3. Təhlil aparmaq, çətinlikləri həll etmək və qərar vermək bacarığı**<br>*xidməti sənəd və faktları diqqətlə təhlil etmək, cari tapşırıqları və çətinlikləri aşkar etmək, düzgün nəticəyə gəlmək üçün müxtəlif mənbələrdən olan məlumatları müqayisə etmək və çətinliklərin həlli yollarını müəyyənləşdirmək, qanunauyğun və məntiqi qərarlar qəbul etmək bacarığının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **4. Yaradıcılıq və təşəbbüskarlıq**<br>*çalışdığı sahənin inkişafı ilə bağlı yaradıcı və səmərəli təkliflər irəli sürmək, işdəki çətinliklər və faktlarla bağlı müxtəlif və qeyri-standart həll etmə üsullarını sınaqdan keçirmək, təşəbbüs göstərməkdə sərbəstliyinin qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **5. Əmək intizamı**<br>*prokurorun intizama və etik davranış qaydalarına riayət etməsinin qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **6. İş təcrübəsi və onu bölüşmə**<br>*qulluq keçdiyi sahədə əmək vərdişlərinin formalaşması, onları kollektiv üzvləri ilə bölüşməsi və yeni təcrübəyə yiyələnmək bacarığının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **7. Kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər**<br>*komanda tərkibində və iş yoldaşları ilə sıx əlaqədə işləmək, rəhbərlərlə və iş yoldaşları ilə ünsiyyət, xoş və işgüzar münasibətlər qurmaq, iş yoldaşlarına dəstək olmaq və lazım gəldikdə onlardan dəstək ala bilmək, qrupun fəal üzvü olaraq qrup hədəflərinin gerçəkləşməsinə çalışmaq, iş üzrə hədəflərə nail olmaq üçün digər qurumlar, şöbələr, sektorlar və əməkdaşlarla əlaqələr qurmaq bacarığının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **8. Təhlil və proqnozlaşdırma**<br>*Rayon (şəhər və ya ərazi hərbi prokurorluğun fəaliyyətinin analitik təhlilini aparmaq, fəaliyyət istiqamətlərinə, hazırlanan layihələrə dair təkliflər vermək və prokurorluğun gələcək planları ilə əlaqədar verdiyi təkliflər üzrə əldə edilən nəticələrin qiymətləndirilməsi nəzərdə tutulur* | | | |

| | | | |
|---|---|---|---|
| **9. İdarəetmə**<br>*işçilərə rəhbərlik etmək, onlara mənəvi dəstək olmaq, işçilərinin bilik və bacarıqlarının inkişafını dəstəkləmək, işçilərin hədəflərə çatmasına yardım etmək üçün vaxtında öz rəyini bildirmək, onları istiqamətləndirmək, kadr potensialından düzgün istifadə etməklə daim işin səmərəli təşkilinə nail olmaq, təşkilatçılıq, tabeliyindəki işçiləri vəzifələri üzrə təlimatlandırmaq, vaxtında həvəsləndirmək və yaxud həvəsləndirmə tədbirlərinin görülməsi üçün təkliflər vermək, rayon (şəhər) və ya ərazi hərbi prokurorluğun fəaliyyət istiqamətlərinə uyğun olaraq təyinatını optimal surətdə təmin etmək, həmçinin qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda qərarların qəbul edilməsi bacarıqlarının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **10. Kollektiv daxilində nüfuz və ruhlandırmaq bacarığı**<br>*rəhbər nüfuzunu saxlamaq, tabeliyindəki işçiləri ruhlandırmaq, onlarla xoş, qarşılıqlı işgüzar münasibətlər qura bilmək, çətinliklərin həllində dəstək olmaq, onları düzgün istiqamətləndirmək və təşəbbüskarlığını dəstəkləmək bacarıqlarının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **11. Komanda qurmaq bacarığı**<br>*verilmiş tapşırıqların müvəffəqiyyətlə həllinə nail olmaq və yaranan çətinliklərin aradan qaldırılması üçün tabeliyindəki işçiləri səfərbər etmək və kollektiv üzvləri arasında qarşılıqlı etimada əsaslanan münasibətlər yarada bilmək bacarığının qiymətləndirilməsi nəzərdə tutulur* | | | |
| **Xidməti fəaliyyət üzrə qiymət**<br>*(meyarlar üzrə fərdi qiymətlər toplanır)* | *100%* | | |

**İşçinin fəaliyyətinin təkmilləşdirilməsinə və təlimlərə olan tələbatlarına dair təkliflər:**

| |
|---|
| Təkmilləşdirilməli olan bacarıqlar: (təkmilləşdirilməli olan bacarıqlar qeyd olunmalı)<br><br>Tələb olunan təlimlər: (tələb olunan ixtisasartırma kursları, təlimlər, o cümlədən idarəetmə, xarici dil, kompüter biliyi və s. üzrə təlimlər qeyd olunmalı) |
| Bilavasitə rəhbərin əlavə qeydləri: |

| **Qiymətləndirilmə barədə prokurorun rəyi:**<br>(mütləq qiymətləndirilən tərəfindən doldurulmalıdır) | | |
|---|---|---|
| **Prokuror:** | | **Yuxarı prokuror:** |
| *Soyadı, adı, atasının adı*<br>*Vəzifəsi*<br>*Rütbəsi*<br>*İmza*<br>*Tarix* | *Soyadı, adı, atasının adı*<br>*Vəzifəsi*<br>*Rütbəsi*<br>*İmza*<br>*Tarix* | *Soyadı, adı, atasının adı*<br>*Vəzifəsi*<br>*Rütbəsi*<br>*İmza*<br>*Tarix* |

**Prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydalarına 3 nömrəli Əlavə**

***QİYMƏTLƏNDİRMƏNİN NƏTİCƏLƏRİ HAQQINDA***
***H E S A B A T***

| Sıra N-si | İşçinin adı, soyadı, atasının adı | İşçinin vəzifəsi və rütbəsi | Bilavasitə rəhbərin adı, soyadı, vəzifəsi və rütbəsi | Qiymətləndirmə balı | Narazılıq* | Ümumi qiymətləndirməyə dair qeydlər və şərhlər |
|---|---|---|---|---|---|---|
| 1. | | | | | | |
| 2. | | | | | | |
| 3. | | | | | | |
| 4. | | | | | | |

*Qiymətləndirilənin narazılıqları göstərilir.
Müvafiq prokurorluğun rəhbəri :
İmza: _____________ Tarix:___________

Kadr şöbəsinin rəhbəri (olduğu halda):

İmza:_____________ Tarix:__________

**Prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydalarına 4 nömrəli Əlavə**

***Azərbaycan Respublikası Prokurorluğu üzrə işçilərin xidməti fəaliyyətinin qiymətləndirilməsinin ümumiləşdirilmiş nəticələrinə dair***
***H E S A B A T***

| Sıra N-si | Müvafiq prokurorluğun adı | İşçinin soyadı, adı, atasının adı | İşçinin vəzifəsi və rütbəsi | Qiymətləndirilmənin keçirilmə tarixi | Qiymət verən vəzifəli şəxsin soyadı, adı, vəzifəsi və rütbəsi | Qiymətləndirmə balı | Narazılıq | Ümumi qiymətləndirməyə dair qeydlər və şərhlər |
|---|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | | |
| 2. | | | | | | | | |
| 3. | | | | | | | | |
| 4. | | | | | | | | |

**Prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydalarına 5 nömrəli Əlavə**

Qiymətləndirmə zamanı aşağıdakı açıqlamalardan istifadə edilir:

**"Peşə bilikləri" bacarığı üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) Bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Həm öz sahəsi, həm də prokurorluğun ümumi fəaliyyəti üzrə geniş nəzəri biliklərə, işi ilə bağlı yüksək vərdişlərə (praktiki biliklərə) malikdir, daim onları uğurla işində tətbiq edir və öz bilik səviyyəsini artırmaqla yanaşı iş yoldaşlarının ümumi bilik səviyyəsinin artırılmasına çalışır.<br>Baş prokurorun 07.10.2010-cu il tarixli 10/90 nömrəli əmri ilə təsdiq edilmiş "Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması" Qaydalarına uyğun olaraq "İmtihan" informasiya sistemi vasitəsilə nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması zamanı sualların 90% –100%-ni düzgün cavablandırmışdır.<br>Müvafiq qanunvericilik üzrə bilikləri yüksək səviyyədədir. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Vəzifələrini yerinə yetirmək üçün kifayət qədər nəzəri bilik və vərdişlərə (praktiki biliklərə) malikdir, öyrənməyə həvəslidir, bilik və bacarıqlarını işində tətbiq edir.<br>Baş prokurorun 07.10.2010-cu il tarixli 10/90 nömrəli əmri ilə təsdiq edilmiş "Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması" Qaydalarına uyğun olaraq "İmtihan" informasiya sistemi vasitəsilə nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması zamanı sualların 80%–90%-ni düzgün cavablandırmışdır.<br>Tutduğu vəzifənin tələblərinə uyğun olaraq müvafiq qanunvericilik üzrə bilikləri var. |
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Vəzifələrini yerinə yetirmək üçün bilik və vərdişləri qənaətbəxşdir, malik olduğu bilik və bacarıqlarını işində əsasən tətbiq edir, öyrənməyə bir o qədər də həvəsli deyil, amma öyrənmə bacarığı qənaətbəxşdir və öyrənə bilər.<br>Baş prokurorun 07.10.2010-cu il tarixli 10/90 nömrəli əmri ilə təsdiq edilmiş "Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması" Qaydalarına uyğun olaraq "İmtihan" informasiya sistemi vasitəsilə nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması zamanı sualların 70%–80%-ni düzgün cavablandırmışdır.<br>Müvafiq qanunvericilik üzrə bilikləri tutduğu vəzifənin tələblərinə tam uyğun deyil. |
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Vəzifələrini yerinə yetirmək üçün nəzəri bilik və vərdişləri çox zəifdir, öyrənməyə heç də həvəsli deyil, öyrənmə qabiliyyəti zəifdir.<br>Baş prokurorun 07.10.2010-cu il tarixli 10/90 nömrəli əmri ilə təsdiq edilmiş "Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması" Qaydalarına uyğun olaraq "İmtihan" informasiya sistemi vasitəsilə nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması zamanı sualların 70% müvəffəqiyyət həddini aşmamışdır.<br>Müvafiq qanunvericilik üzrə bilikləri tutduğu vəzifənin tələblərinə uyğun deyil. |

**“Xidməti vəzifələrə münasibət” bacarığı üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) Bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Heç bir nəzarət olmadan verilmiş tapşırıqları və vəzifəsini sərbəst yerinə yetirir, verilmiş tapşırıqlara və vəzifəsinə vicdanla və ciddi məsuliyyətlə yanaşır, iş məhsuldarlığı yüksəkdir, çox işgüzardır, həmişə işini yüksək keyfiyyətlə və vaxtından əvvəl yerinə yetirir, işin icra prosesində vaxta daim qənaət edir, işinin heç vaxt tamamlanmağına və düzəlişlər edilməsinə ehtiyac olmur, bir sözlə, işə münasibəti əladır. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Nəzarət olmadan vəzifəsini və verilmiş tapşırıqları yerinə yetirir, vəzifəsinə və tapşırıqlara vicdanla və məsuliyyətlə yanaşır, iş məhsuldarlığı yaxşıdır, işgüzardır, qoyulan tapşırıqları həmişə vaxtında və keyfiyyətlə icra edərək, tələb olunan səviyyədə nəticələr əldə edir, işin icra prosesində vaxta qənaət edir, rəhbərin tapşırığından əlavə cari işlər də yerinə yetirir, bir sözlə, işə münasibəti yaxşıdır. |
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Tapşırıqları vaxtında və tələb olunan səviyyədə icra etməyə çalışır, işin keyfiyyətində və ya icra vaxtında bəzən çətinliklər yaranır, bəzən fəaliyyətinin nəticəsinə düzəlişlər etmək tələb olunur, işin icra prosesində vaxta əsasən qənaət edir, iş məhsuldarlığı tam qane etmir, inkişafa ehtiyacı var. |
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Tapşırıqları vaxtında yerinə yetirmir, məsuliyyətsizdir, iş məhsuldarlığı aşağıdır, işin icra prosesində vaxta çox az hallarda qənaət edir, işə maraq göstərmir, fəaliyyəti üzrə daim ciddi nəzarət tələb olunur. |

**“Təhlil aparmaq, çətinliklər həll etmək, qərar vermək” bacarığı üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) Bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Cari tapşırıqları, xidməti sənəd və faktları diqqətlə təhlil edir, əhəmiyyətli çətinlikləri müəyyən edir və bu çətinliklərin qarşısını almaq üçün effektiv həlli yollarını axtarır və qabaqlayıcı tədbirlər görür, çətinliklər olduqda belə onları yüksək səviyyədə operativliklə həll edir. Səlahiyyətləri çərçivəsində həmişə sərbəst qərar qəbul edir, qeyri-müəyyən vəziyyətdə belə çox operativ, düzgün və əsaslandırılmış qərar qəbul edir, hər hansı məsələ ilə bağlı qərar qəbul etməmişdən əvvəl onu çox ətraflı öyrənir, həmkarlarının fikrini öyrənir, qərarın gələcək təsirini düzgün qiymətləndirməyi bacarır. Rəhbər tərəfindən nəzarətə ehtiyac duyulmur və qərarların yerinə yetirilməsinə çox ciddi nəzarət edir, qərarların nəticələri gözləniləndən çox uğurlu olur və yüksək nəticələrin əldə olunmasına gətirib çıxarır. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Cari tapşırıqları, xidməti sənəd və faktları təhlil edir, işində yaranan çətinlikləri müəyyən edir və bu çətinliklərin qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görür, çətinliklər olduqda belə onları sərbəst və optimal şəkildə, operativliklə həll edir.<br>Səlahiyyətləri çərçivəsində adətən sərbəst qərar qəbul edir, mövcud məsələ ilə bağlı qərar qəbul etməmişdən əvvəl onu ətraflı öyrənir, |

| | |
|---|---|
| | qərarın gələcək təsirini qiymətləndirməyi bacarır, həmkarlarının fikrini öyrənir, adətən vaxtında, əsaslandırılmış, dəqiq qərarlar qəbul edir, nadir hallarda bəzi xırda səhvlərə yol versə də, həmin qərarlar gözlənilən nəticəni verir, qərarların yerinə yetirilməsinə nəzarət edir, bəzi hallarda rəhbər tərəfindən nəzarətə ehtiyac duyulur. |
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Cari tapşırıqları, xidməti sənəd və faktları təhlil etməyə çalışır, işində yaranan çətinlikləri əsasən sərbəst, operativ həll edir, özü bir sıra hallarda fəaliyyətində çətinlik yaradır.<br>Səlahiyyətləri çərçivəsində sərbəst qərar qəbul etməkdə bəzən çətinlik çəkir. Həmkarlarının fikrini bəzən öyrənir, bəzi hallarda səhv qərarlar qəbul edir, qərarların yerinə yetirilməsinə əsasən nəzarət edir, qərarlar bəzi hallarda gözlənilən nəticəni vermir, bəzən rəhbər tərəfindən fəaliyyətinə nəzarət tələb olunur. |
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Daim öz işində çətinlik yaradır, xırda bir məsələ üçün rəhbərə müraciət edir, çətinliyin həlli üzrə rəhbərinin tapşırıqlarını yerinə yetirə bilmir, qərarlar qəbul etməyi bacarmır, öz işinə aid olmayan çətinliklərə çox biganədir.<br>Sərbəst şəkildə qərar qəbul edə bilmir, həmkarlarının fikrini öyrənmir, həmişə səhv qərarlar qəbul edir, verdiyi qərarların nəticəsində böyük risklər ortaya çıxır və qəbul etdiyi qərarların yerinə yetirilməsinə nəzarət etmir, daim rəhbər tərəfindən fəaliyyətinə nəzarət tələb olunur. |

**“Yaradıcılıq və təşəbbüskarlıq” bacarığı üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) Bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Yaradıcılıq – vəzifə öhdəlikləri, fəaliyyətin təkmilləşdirilməsi, habelə prokurorluq orqanlarının imicinin daha da yüksəldilməsi məqsədilə yeni ideya və təkliflər irəli sürür, daim yenilik axtarışındadır, səlahiyyətləri çərçivəsində yenilikləri uğurla tətbiq edir.<br>Təşəbbüskarlıq – göstəriş verilmədən daim təşəbbüs irəli sürür. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Yaradıcılıq – vəzifə öhdəlikləri, yeni ideya və təkliflər irəli sürür, yenilik axtarışındadır, səlahiyyətləri çərçivəsində yeniliklərin uğurla tətbiq olunması üçün mütəmadi olaraq səy göstərir.<br>Təşəbbüskarlıq – göstəriş verilmədən təşəbbüs irəli sürür. |
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Yaradıcılıq – fəaliyyət sahəsi, vəzifə öhdəlikləri ilə bağlı yeni ideya və təkliflər irəli sürür, yeniliyin tərəfdarıdır və səlahiyyətləri çərçivəsində yeniliklərin tətbiq olunması üçün səy göstərir.<br>Təşəbbüskarlıq – əsasən göstəriş verilmədən təşəbbüs irəli sürür. |
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Yaradıcılıq – Yaradıcılığı yoxdur, yeni ideya və təkliflər irəli sürmür, yenilikləri qəbul etmir (yeniliyə meylli deyil), yeniliklərin tətbiq olunmasına səy göstərmir.<br>Təşəbbüskarlıq – təşəbbüs göstərmir. |

**"Əmək intizamı" üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Daxili nizam-intizam qaydalarına və etik qaydalara çox ciddi və yüksək səviyyədə riayət edir, bu sahədə ən nümunəvi işçidir. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Daxili nizam-intizam qaydalarına və etik qaydalara ciddi riayət edir. |
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Daxili nizam-intizam qaydalarına və etik qaydalara əsasən riayət edir və iş qrafikini bəzi hallarda pozur. |
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Daxili nizam-intizam qaydalarını, etik qaydaları və iş qrafikini tez-tez pozur və bu barədə ona tutulan iradlar nəticə vermir. |

**"İş təcrübəsi və onu bölüşmə" bacarığı üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) Bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Qulluq keçdiyi sahədə bilik və iş təcrübəsini kollektiv üzvləri ilə daim və sərbəst bölüşür və işdə digər iş yoldaşlarından daim yüksək səviyyədə dəstək alır. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Qulluq keçdiyi sahədə bilik və iş təcrübəsini kollektiv üzvləri ilə bölüşür və işdə digər iş yoldaşlarından dəstək ala bilir. |
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Qulluq keçdiyi sahədə bilik və iş təcrübəsini əsasən kollektiv üzvləri ilə bölüşür və bəzən işdə digər iş yoldaşlarından dəstək alır. |
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Qulluq keçdiyi sahədə bilik və iş təcrübəsini kollektiv üzvləri ilə bölüşmür və işdə digər iş yoldaşlarından dəstək ala bilmir. |

**"Kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər" bacarığı üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Komanda ruhu çox yüksəkdir, daim iş yoldaşları ilə sıx əlaqədə işləyir, onlarla ünsiyyət, xoş və işgüzar münasibətlər qurur, məlumat mübadiləsi aparır, onlara yaxından kömək göstərir, kollektivdaxili münasibət¬lərin yüksək səviyyədə olması qayğısına qalır. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Komanda ruhu yaxşıdır, iş yoldaşları ilə əlaqədə işləyir, onlarla ünsiyyət, xoş və işgüzar münasibətlər qurur, iş yoldaşları ilə məlumat mübadiləsi aparır, komanda üzvlərinə kömək edir, kollektiv daxili münasibətlərin yüksək səviyyədə olması qayğısına qalır, həmkarları ilə münasibətdə çətinlik yaratmır. |

| | |
|---|---|
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Komanda ruhu zəifdir, amma iş yoldaşları ilə əlaqədə işləməyə, onlarla ünsiyyət, xoş və işgüzar münasibətlər qurmağa çalışır, Komanda üzvləri ilə bəzən çətinlik yaradır, komandaya tam qarışmır. |
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Komanda üzvləri ilə tez-tez çətinliklər yaradır, komandaya qarışmır, komanda formasında işləyə bilmir, münaqişələr törədir. |

**Rəhbər işçilər üçün əlavə olaraq:**
**"Təhlil və proqnozlaşdırma" bacarığı üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Tələb olunan səviyyədə müvafiq qurumun fəaliyyətinin analitik təhlilini aparır, onun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflər verir, həvalə edilmiş sahəyə aid olan məsələlər üzrə danışıqlar aparır. Fəaliyyət üzrə zəif və güclü tərəfləri, riskləri, imkanları həmişə vaxtında tələb olunan səviyyədə qiymətləndirməyi, hədəfləri prioritetliyinə, spesifikliyinə, nailolma və ölçüləbilmə dərəcəsinə, habelə icra vaxtına görə düzgün müəyyənləşdirməyi bacarır. Rəhbərlik etdiyi komandanın hədəflərini prokurorluq orqanlarının ümumi hədəfləri ilə çox tələb olunan səviyyədə uzlaşdırır, komanda üzvləri arasında hədəflərin bölgüsünü ən optimal şəkildə aparır və bu hədəflərin yerinə yetirilməsini təşkil edir. Uzun, orta və qısa müddətli hədəflərin planlaşdırılmasında çox effektivdir, bu sahədə digər rəhbərlərə yaxşı örnəkdir. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Rəhbərlik etdiyi qurumun fəaliyyətinin analitik təhlilinin aparır, onun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflər verir, həvalə edilmiş sahəyə aid olan məsələlər üzrə danışıqlar aparır.<br>Fəaliyyət üzrə zəif və güclü tərəfləri, riskləri, imkanları tələb olunan səviyyədə qiymətləndirməyi, hədəfləri prioritetliyinə, spesifikliyinə, nailolma və ölçüləbilmə dərəcəsinə, habelə icra vaxtına görə düzgün müəyyənləşdirməyi bacarır. Rəhbərlik etdiyi komandanın hədəflərini prokurorluq orqanlarının ümumi hədəfləri ilə uzlaşdırır, komanda üzvləri arasında hədəflərin bölgüsünü adətən düzgün aparır və yerinə yetirilməsini təşkil edir. Daha çox qısa və orta müddətli hədəflərin planlaşdırmasında effektivdir. |
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Əsasən rəhbərlik etdiyi qurumun fəaliyyətinin analitik təhlilini aparır, onun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində bəzi hallarda təkliflər verir, həvalə edilmiş sahəyə aid olan məsələlər üzrə danışıqlar apara bilir, amma müəyyən çətinliklər çəkir.<br>Fəaliyyət üzrə zəif və güclü tərəfləri, riskləri, imkanları tələb olunan səviyyədə qiymətləndirməklə hədəfləri prioritetliyinə, spesifikliyinə, nailolma və ölçüləbilmə dərəcəsinə, habelə icra vaxtına görə düzgün müəyyənləşdirməsində bəzi hallarda çətinlik çəkir. Rəhbərlik etdiyi komandanın hədəflərini prokurorluq orqanlarının ümumi hədəfləri ilə uzlaşdırmaqda çətinlik çəkir, komanda üzvləri arasında hədəflərin bölüşdürülməsində çətinliklər ortaya çıxır, bəzi hallarda işçinin səviyyəsini nəzərə almır, bəzi hallarda işçiyə onun bilik və vəzifəsinə uyğun olmayan tapşırıqlar verir, bu isə bəzən işin keyfiyyətinə və vaxtında icra olunmasına mənfi təsir göstərir. |

| | |
|---|---|
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Fəaliyyət üzrə zəif və güclü tərəfləri, riskləri, imkanları düzgün qiymətləndirə, hədəfləri prioritetliyinə, spesifikliyinə, nailolma və ölçülə-bilmə dərəcəsinə, habelə icra vaxtına görə nadir hallarda düzgün müəyyənləşdirə bilir. Rəhbərlik etdiyi komandanın hədəflərini prokurorluq orqanlarının ümumi hədəfləri ilə uzlaşdırmağı bacarmır, komanda üzvləri arasında hədəflərin bölüşdürülməsində ciddi çətinliklər yaranır. |

**"İdarəetmə" bacarığı üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Ünsiyyət bacarıqlarından istifadə edərək işçilərini ruhlandıra bilir və onların işinə yüksək səviyyədə rəhbərlik edir, onlara daim mənəvi dəstək olur, işçilərinin bilik və bacarıqlarının inkişafını daim dəstəkləyir, işçilərinin hədəflərə çatmasına yardım etmək üçün vaxtında öz rəyini bildirir, onların fəaliyyətini daim istiqamətləndirir.<br>Kadr potensialından düzgün istifadə etməklə daim işin səmərəli təşkilinə nail olur, tabeliyindəki işçiləri vəzifələri ilə bağlı daim təlimatlandırır.<br>Tabeliyində olan işçiləri mütəmadi olaraq vaxtında həvəsləndirir və yaxud həvəsləndirmə tədbirlərinin görülməsi üçün təkliflər verir, qurumun fəaliyyət istiqamətlərinə uyğun olaraq təyinatını səmərəli təmin edir, qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda qərarlar qəbul edir.<br>İşçilərinin fəaliyyətini monitorinq edir, qərarların yerinə yetirilməsinə ciddi nəzarət edir, heç vaxt subyektivliyə yol vermir, düzgün və ədalətli qiymətləndirir. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Ünsiyyət bacarıqlarından istifadə edərək adətən işçilərini ruhlandıra bilir. Onlara mənəvi dəstək olur, onların bilik və bacarıqlarının inkişafını dəstəkləyir, onların hədəflərə çatmasına yardım etmək üçün vaxtında öz rəyini bildirir onların fəaliyyətini istiqamətləndirir.<br>Tabeliyində olan işçiləri vaxtında həvəsləndirir və yaxud həvəsləndirmə tədbirlərinin görülməsi üçün təkliflər verir, qurumun fəaliyyət istiqamətlərinə uyğun olaraq təyinatını optimal surətdə təmin edir, qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda qərarlar qəbul edir.<br>Kadr potensialından düzgün istifadə etməklə işin səmərəli təşkilinə nail olur, tabeliyindəki işçiləri vəzifələri üzrə təlimatlandırır.<br>İşçilərinin fəaliyyətini monitorinq edir, qərarların yerinə yetirilməsinə nəzarət edir, subyektivliyə yol vermir, düzgün və ədalətli qiymətləndirir. |
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Ünsiyyət bacarıqlarından istifadə edərək bəzi hallarda işçilərini ruhlandıra bilir. Lakin rəhbərliyi zəifdir, bəzi hallarda işçilərinə mənəvi dəstək olur, işçilərinin bilik və bacarıqlarının inkişafını bəzi hallarda dəstəkləyir, işçilərinin hədəflərə çatmasına yardım etmək üçün rəyini bəzi hallarda bildirir.<br>Tabeliyində olan işçiləri bəzi hallarda həvəsləndirir və yaxud həvəsləndirmə tədbirlərinin görülməsi üçün təkliflər verir, qurumun fəaliyyət istiqamətlərinə uyğun olaraq təyinatını əsasən optimal surətdə təmin edir, əsasən qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda qərarlar qəbul edir.<br>Əsasən işin səmərəli təşkilinə nail olur, tabeliyindəki işçiləri vəzifələri üzrə təlimatlandırır.<br>İşçilərinin fəaliyyətini monitorinq edir, bəzi hallarda subyektivliyə yol verir. |

| | |
|---|---|
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Nadir hallarda işçilərini ruhlandıra bilir və rəhbərliyi zəifdir, işçilərinin bilik və bacarıqlarının inkişafını çox az hallarda dəstəkləyir, mənəvi dəstək göstərmir, işçilərinin hədəflərə çatmasına yardım etmək üçün adətən rəyini bildirmir,<br>Tabeliyində olan işçiləri vaxtında həvəsləndirmir və yaxud həvəsləndirmə tədbirlərinin görülməsi üçün təkliflər vermir, qurumun fəaliyyət istiqamətlərinə uyğun olaraq təyinatını optimal surətdə təmin edə bilmir, əksər halda qərarlar qəbul edərkən qanunvericiliklə müəyyən edilmiş qaydaların tələbini pozur.<br>Kadr potensialından düzgün istifadə edə bilmir, nadir hallarda işin səmərəli təşkilinə nail olur.<br>Komanda üzvlərinin fəaliyyətini az hallarda monitorinq edir, qiymətləndirmədə subyektivliyə yol verir. |

**“Kollektiv daxilində nüfuz və ruhlandırmaq” bacarığı üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Nəinki komanda üzvləri, həmçinin başqa rəhbərlər arasında yüksək nüfuza və hörmətə malikdir, rəhbər nüfuzunu daim qoruyub saxlaya bilir. Tabeliyindəki işçiləri ruhlandırır və onlarda yüksək nəticələr əldə edilməsi üçün güclü maraq oyada bilir, işçilərlə xoş, qarşılıqlı işgüzar münasibətlər qurmağı bacarır, çətinliklərin həllində onlara yaxından kömək edir, öz təcrübəsini, biliyini bölüşür, məsləhətlər və düzgün istiqamətlər verir, işçiləri daim fəaliyyətlərinin nəticələri və icra səviyyəsi barədə məlumatlandırır, daim onların inkişafını və təşəbbüskarlıqlarını dəstəkləyir. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Komanda üzvləri arasında nüfuza və hörmətə malikdir, rəhbər nüfuzunu qoruyub saxlayır, tabeliyindəki işçiləri ruhlandırır və onlarda tələb olunan səviyyədə nəticələr əldə etmək üçün maraq oyada bilir, onlara kömək edir, öz təcrübəsini, biliyini bölüşmək və məsləhətlər verməklə, onların inkişafını və təşəbbüskarlığını dəstəkləyir, işçilərini fəaliyyətlərinin nəticələri və icra səviyyəsi barədə məlumatlandırır. |
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Komanda üzvləri arasında hörmətə malikdir, çalışır ki, rəhbər nüfuzunu saxlasın, bəzi hallarda tabeliyindəki işçiləri ruhlandırır və onlarda nəticələr əldə edilməsi üçün maraq oyada bilir, onlara bəzi hallarda köməklik edir, öz təcrübəsini, biliyini əsasən bölüşür. Bəzi hallarda işçiləri fəaliyyətlərinin nəticələri və icra səviyyəsi barədə məlumatlandırır, onların inkişafını və təşəbbüskarlığını bəzi hallarda dəstəkləyir, bəzi hallarda idarəetmədə inzibati metodlardan istifadə edir. |
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Komanda üzvləri arasında nüfuz və hörmət qazana bilməmişdir, rəhbər nüfuzunu qoruyub saxlaya bilmir, tabeliyindəki işçiləri ruhlandırmır və onlarda tələb olunan səviyyədə nəticələr əldə etmək üçün maraq oyatmır, onlara köməklik etmir, öz təcrübəsini, biliyini bölüşmür və məsləhətlər vermir, onların inkişafını və təşəbbüskarlığını dəstəkləmir, idarəetmədə yalnız inzibati metodlardan istifadə edir. |

**“Komanda qurmaq” bacarığı üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Çox yüksək səviyyədə komanda formalaşdırır, tabeliyindəki işçiləri daim düzgün istiqamətləndirir, komandanı qurumun hədəflərini yerinə yetirməyə asanlıqla səfərbər etməklə yüksək nəticələrin əldə olunmasına nail ola bilir.<br>Komandadaxili münasibətləri yüksək səviyyədə saxlamağı bacarır, münaqişələrin yaranmaması üçün daim qabaqlayıcı tədbirlər görür, yaranan münaqişələri operativ olaraq, ədalətlə və ən optimal qaydada həll edir. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Normal komanda formalaşdıra bilir, komanda üzvlərini düzgün istiqamətləndirir, komandanı qurumun hədəflərini yerinə yetirməyə səfərbər edə bilir.<br>Komandadaxili münasibətləri tənzimləmə bacarığı normaldır, yaranan münaqişələri operativ sürətdə, ədalətlə həll edir. |
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Normal komanda formalaşdırmaqda, komandanı qurumun hədəflərini yerinə yetirməyə tam səfərbər etməkdə çətinlik çəkir.<br>Komandadaxili münasibətləri tənzimləmə bacarığı var amma zəifdir, yaranan münaqişələri həll etməyə çalışır, lakin təsiretmə bacarığı zəifdir, buna görə də bəzi hallarda bölmə daxilində çətinliklər yaranır. |
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Komanda formalaşdıra bilmir, komandada ciddi çətinlik yaradır, komanda üzvlərini düzgün istiqamətləndirə və qurumun hədəflərini yerinə yetirməyə səfərbər edə bilmir.<br>Komandadaxili münasibətləri tənzimləyə bilmir, özü münaqişələri yaradır, komandadaxili münasibətlərə mənfi təsir göstərir. |

**Kəmiyyət meyarı üzrə açıqlama:**

| | |
|---|---|
| 5 (əla) bacarığı tələb olunandan yüksək səviyyədə nümayiş etdirir | Tapşırıqları vaxtından əvvəl, çox yüksək keyfiyyətlə yerinə yetirmişdir. |
| 4 (yaxşı) bacarığı tələb olunan səviyyədədir | Tapşırıqları vaxtında və tələb olunan keyfiyyətdə yerinə yetirmişdir. |
| 3 (kafi) qənaətbəxşdir, inkişafa ehtiyacı var | Tapşırıqları əsasən yerinə yetirmişdir. |
| 2 (qeyri-kafi) qənaətbəxş deyil, bacarığı nadir hallarda nümayiş etdirir və ya nümayiş etdirmir | Tapşırıqları qismən yerinə yetirmiş və yaxud yerinə yetirməmişdir. |

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**

№ 10/03

Bakı şəhəri 8 yanvar 2016-cı il

**Azərbaycan Respublikası Baş prokurorunun 01.11.2010-cu il tarixli, 10/100 nömrəli əmrinə dəyişikliklər edilməsi barədə**

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf konsepsiyasına uyğun olaraq dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi müdrik dövlət siyasəti nəticəsində Azərbaycan Respublikasında iqtisadi tərəqqinin sürətləndirilməsi, ölkənin müdafiə qüdrətinin artırılması, demokratik təsisatların möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiə olunması, insanların ərizə və şikayətlərinə qayğılı münasibət göstərilməsi, vətəndaşların müraciətlərinə diqqətlə yanaşılmasının təmin edilməsi istiqamətində sistemli və ardıcıl işlər görülür.

Dövlət başçısının göstəriş və tövsiyələrinə uyğun olaraq vətəndaşlara qayğı və diqqət gündən-günə artırılır, onların konstitusion hüquqlarının daha mükəmməl təmin edilməsi üçün müstəqillik illərində formalaşmış qanunvericilik bazası mütəmadi olaraq təkmilləşdirilir.

Bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsi olaraq, 2015-ci il noyabr ayının 14-də qüvvəyə minmiş "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının yeni Qanunu xüsusi əhəmiyyətə malikdir.

"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" 10 iyun 1997-ci il tarixli Qanun 18 il ərzində qüvvədə olmaqla bu sahədə ictimai münasibətləri tənzimləyən əsas normativ hüquqi akt olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə əsasən vətəndaşların müraciət etmək hüququnun həyata keçirilməsi və müraciətlərə baxılması qaydalarını müəyyən edirdi. Lakin ictimai münasibətlərin inkişafı yeni qanunun qəbul edilməsini zəruri etmişdir. Bununla əlaqədar yeni qəbul edilmiş "Vətəndaşların müraciətləri haqqında" Qanun müasir dövrün tələblərinə və beynəlxalq hüququn normalarına uyğun olaraq bir çox yeni müddəalarla zənginləşdirilərək, vətəndaşların müraciətlərinə baxılması işinə tələbkarlıq artırılmış, dövlət orqanlarının bu sahədə vəzifələri daha dəqiq müəyyən edilməklə vətəndaşların müraciət etmək hüququnun təminatları gücləndirilmişdir.

"Vətəndaşların müraciətləri haqqında" Qanunun qüvvəyə minməsi ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Baş prokurorunun «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli, 10/100 nömrəli əmrinə müvafiq dəyişikliklərin edilməsi zərurəti yaranmışdır.

Qeyd olunanları nəzərə alaraq, prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılmasının, bu sahədə vəzifələrin daha dəqiq və ardıcıl surətdə yerinə yetirilməsinin, habelə effektiv nəzarət mexanizminin yaradılmasının təmin edilməsi məqsədilə, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutub,

**Ə M R E D İ R Ə M :**

**1.** «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» Azərbaycan Respublikası Baş prokurorunun 01.11.2010-cu il tarixli, 10/100 nömrəli əmrinə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Əmrin 1-ci bəndində «müraciət formasında» sözlərindən sonra «(o cümlədən prokurorluğun nümayəndəsinin iştirakı ilə canlı yayımlanan teleradio proqramları zamanı, habelə telefon müraciət xidməti vasitəsilə)» sözləri əlavə edilsin;

**1.2.** Əmrin 2-ci bəndində «"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında"» sözləri «"Vətəndaşların müraciətləri haqqında"» sözləri ilə, «müraciət etmək, fərdi və ya kollektiv yazılı müraciətlər göndərmək» sözləri «və ya nümayəndə vasitəsilə yazılı və ya şifahi formada, fərdi və ya kollektiv şəkildə müraciət etmək» sözləri ilə əvəz edilsin;

**1.3.** Əmrin 3-cü bəndində «"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında"» sözləri «"Və-

təndaşların müraciətləri haqqında"» sözləri ilə əvəz edilsin;

**1.4.** Əmrin 7-ci bəndində «"Azərbaycan Respublikasının prokurorluq orqanlarında kargüzarlığın aparılması qaydaları haqqında Təlimat"la» sözləri «"Azərbaycan Respublikasının prokurorluq orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"la» sözləri ilə əvəz edilsin;

**1.5.** Əmrin 10-cu bəndinin birinci abzasında «tabe prokurorluqların» sözlərindən sonra «(onların vəzifəli şəxslərinin)» sözləri, «elektron ünvanlarına» sözlərindən sonra «və ya prokurorluğun rəsmi internet saytı vasitəsilə» sözləri, «görülməsi və» sözlərindən sonra isə «qanunvericiliklə nəzərdə tutulmuş qaydada» sözləri əlavə edilsin;

**1.6.** Əmrə aşağıdakı məzmunda 10-1-ci bənd əlavə edilsin:

**«10-1.** Prokurorluğun rəsmi nümayəndəsinin iştirakı ilə canlı yayımlanan teleradio proqramı zamanı edilən şifahi müraciət üzrə əlavə araşdırma aparmadan izah verilməsi mümkün olduqda, həmin müraciətin qeydiyyatı aparılmadan prokurorluğun rəsmi nümayəndəsi tərəfindən canlı yayımda cavablandırılması təmin olunsun.

Bu qəbildən olan müraciətlərin dərhal cavablandırılması mümkün olmadıqda, onların qəbul edilməsi, qeydiyyatı və baxılması bu əmrlə müəyyən edilmiş ümumi qaydada həyata keçirilsin.»;

**1.7.** Əmrin 11-ci bəndinin 1-ci abzasında «Baş Prokurorluğun "Qaynar xətt" əlaqə mərkəzinə» sözləri «Baş Prokurorluğun, habelə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "Qaynar xətt" əlaqə mərkəzlərinə» sözləri ilə əvəz edilsin, «09/55 nömrəli» sözlərindən sonra «və "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "Qaynar xətt" əlaqə mərkəzinin yaradılması haqqında" 02.03.2011-ci il tarixli 10/26 nömrəli» sözləri əlavə edilsin, «əmrin» sözü «əmrlərin» sözü ilə, 2-ci abzasda «mərkəzinə» sözü «mərkəzlərinə» sözü ilə, «əmrin» sözü «əmrlərin» sözü ilə əvəz edilsin;

**1.8.** Əmrin 12-ci bəndində «Baş Prokurorluğun "Qaynar xətt" əlaqə mərkəzinin» sözləri «Baş Prokurorluğun, habelə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "Qaynar xətt" əlaqə mərkəzlərinin» sözləri ilə, «"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikası Qanununun və bu əmrin 1,2,13,15,32,41 və 42-ci bəndləri, 44-cü bəndinin birinci hissəsi, 45,51 və 53-cü bəndləri, 55-ci bəndinin birinci hissəsi, 61,62,63 və 64-cü» sözləri «"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu əmrin 1, 2, 13, 15, 32, 41, 41-1, 42, 45, 51 və 53-cü bəndləri, 55-ci bəndinin birinci hissəsi, 61, 62, 62-1, 63 və 64-cü» sözləri ilə əvəz edilsin;

**1.9.** Əmrin 13-cü bəndinin birinci abzasında «Müraciəti» sözü «"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq verilən müraciəti» sözləri ilə əvəz edilsin, həmin bəndə aşağıdakı məzmunda 3-cü abzas əlavə edilsin:

«Bu qadağaya görə müraciəti aidiyyəti üzrə göndərmək mümkün olmadıqda, müraciət müəllifinə qanunla müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüququ izah olunsun.»;

**1.10.** Əmrə aşağıdakı məzmunda 13-1, 13-2, 13-3, 13-4, 13-5, 13-6, 13-7-ci bəndlər əlavə edilsin:

**«13-1.** Dövlət orqanlarının (və ya onların vəzifəli şəxslərinin) qanunazidd hərəkətləri (hərəkətsizliyi) barədə prokurorluq orqanlarına daxil olmuş müraciətlərə "Vətəndaşların müraciətləri haqqında" və "Prokurorluq haqqında" Azərbaycan Respublikası qanunlarının, digər qanunvericilik aktlarının və Baş Prokurorluq üzrə müvafiq əmrlərin tələblərinə uyğun olaraq baxılması təmin edilsin.

Bu cür müraciətlər prokurorluq orqanlarının səlahiyyətlərinə aid olmadıqda, onlar "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 12.6-cı maddəsinin tələblərinə əsasən 5 iş günü müddətində müraciət edən şəxsə qaytarılsın.

**13-2.** Nəzərə alınsın ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci maddəsinə müvafiq olaraq "dövlət orqanı" dedikdə, Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış və dövlət büdcəsindən maliyyələşdirilən dövlət qulluqçularının qurumu nəzərdə tutulur.

**13-3.** Rayon, şəhər və şəhər rayonu inzibati ərazi vahidlərinin hüdudlarında fəaliyyət göstərən dövlət orqanlarının (və ya onların vəzifəli şəxslərinin) qanunazidd hərəkətləri (hərəkətsizliyi) barədə ilkin müraciətlərə aidiyyəti üzrə rayon (şəhər) və ərazi hərbi prokurorluqlarında baxılması təmin edilsin.

Həmin orqanların (və ya onların vəzifəli şəxslərinin) qanunazidd hərəkətləri (hərəkətsizliyi) barədə təkrar müraciətlərə aidiyyəti üzrə Baş Prokurorluğun, Azərbaycan Respublikası Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının prokurorluqda istintaqa nəzarət qurumlarında baxılmaqla nəticələri müvafiq olaraq Azərbaycan Respublikasının Baş prokuroruna, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikasının və Bakı şəhər prokurorlarına məruzə edilsin.

Göstərilən təkrar müraciətlər ilkin müraciətlərə baxmış rayon (şəhər) və ya ərazi hərbi prokurorluqlarına birbaşa daxil olduqda, onların zəruri materiallarla (prosessual qərardan şikayət edildikdə və həmin qərar qanuni və əsaslı sayıldıqda isə həmçinin müvafiq rəy ilə) birlikdə aidiyyəti yuxarı prokurorluqlara göndərilməsi və həmin prokurorluqların prokurorluqda istintaqa nəzarət qurumlarında öyrənilməklə müvafiq olaraq Azərbaycan Respublikasının Baş prokuroruna, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar

Respublikasının və Bakı şəhər prokurorlarına məruzə edilməsi təmin olunsun.

**13-4.** Yurisdiksiyası Bakı şəhərinin inzibati ərazisini əhatə edən dövlət orqanları və ya onların vəzifəli şəxslərinin qanunazidd hərəkətləri (hərəkətsizliyi) barədə müraciətlərə Bakı şəhər prokurorluğunda baxılmaqla nəticələrinin Bakı şəhər prokuroruna məruzə edilməsi təmin edilsin.

**13-5.** Respublika və regional dövlət orqanlarının (və ya onların vəzifəli şəxslərinin) qanunazidd hərəkətləri (hərəkətsizliyi) barədə müraciətlərə aidiyyəti üzrə Baş Prokurorluqda, Azərbaycan Respublikasının Hərbi və Naxçıvan Muxtar Respublikasının prokurorluqlarında baxılmaqla müvafiq olaraq Azərbaycan Respublikasının Baş prokuroruna, Azərbaycan Respublikasının Hərbi və Naxçıvan Muxtar Respublikasının prokurorlarına məruzə olunması təmin edilsin.

**13-6.** Həlli Naxçıvan Muxtar Respublikası, Bakı şəhər və ya hərbi prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan bu əmrin 13-1-ci bəndində göstərilən müraciətlər Baş Prokurorluğa daxil olduqda, onların aidiyyəti üzrə göndərilməsi və baxılması ilə bağlı prosedur məsələlər bu əmrin 36-cı bəndində nəzərdə tutulmuş qaydada həll edilsin, həmin müraciətlərə baxmış struktur qurumlar nəticələrin müvafiq prokurorluq orqanının rəhbərliyinə məruzə olunmasını təmin etsinlər.

**13-7.** "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 12.7-ci maddəsində nəzərdə tutulmuş məlumatın hazırlanmasının təmin edilməsi məqsədi ilə Baş Prokurorluğun struktur qurumları və bütün tabe prokurorluqlar tərəfindən bu əmrin 13-1-ci bəndində göstərilən müraciətlərə baxılmasının nəticələri barədə zəruri məlumatların hər rübdə bir dəfə, növbəti rübün ilk ayının 5-dən gec olmayaraq Baş Prokurorluğun Təşkilat-analitik idarəsinə verilməsi təmin edilsin.

Baş Prokurorluğun Təşkilat-analitik idarəsi "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli, 1308-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 12 noyabr 2015-ci il tarixli Fərmanının 3-cü bəndinin tələblərinə riayət etməklə altı ayda bir dəfədən az olmayaraq 13-1-ci bəndində göstərilən müraciətlərə baxılmasının nəticələri barədə məlumatın hazırlanmasını və onun Azərbaycan Respublikasının Baş prokuroruna təqdim olunmasını təmin etsin.»;

**1.11.** Əmrin 14-cü bəndinin birinci abzasında «Anonim müraciətlərə» sözləri «Anonim müraciətlər qəbul edilməsin və onlara» sözləri ilə əvəz edilsin;

**1.12.** Əmrə aşağıdakı məzmunda 14-1, 14-2, 14-3 və 14-4-cü bəndlər əlavə edilsin:

**«14-1.** Prokurorluq orqanlarına daxil olmuş müraciətlər aşağıdakı hallarda baxılmamış saxlanılsın:

**14-1.1.** "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq müraciətin edilməsi və ona baxılması üçün başqa qayda nəzərdə tutulduqda;

**14-1.2.** Müraciət "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 6.4-6.9-cu maddələrində göstərilən tələblərə cavab vermədikdə;

**14-1.3.** Müraciətdə göstərilən məsələ ilə əlaqədar məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

**14-1.4.** Eyni prokurorluq orqanına daxil olmuş şəxsin təkrar müraciətlərinə bir il ərzində həmin orqanın rəhbər vəzifəli şəxsləri (rayon (şəhər) və ərazi hərbi prokurorluqlarında prokuror müavinləri və prokurorlar, struktur qurumları olan prokurorluq orqanlarında isə struktur qurumların rəisləri, prokurorluq orqanı rəhbərinin müavinləri (orqan rəhbərinin bilavasitə tabeliyində olan struktur qurumlarda həmin qurumların rəis müavinləri və rəisləri) və orqanın rəhbəri) tərəfindən 3 dəfə mahiyyəti üzrə əsaslandırılmış cavab verildikdə (üçüncü dəfə mütləq müvafiq prokurorluq orqanının rəhbəri tərəfindən) və təkrar müraciətdə məsələnin həlli üçün yeni məlumatlar olmadıqda;

**14-1.5.** "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 7.9-cu maddəsində göstərilən hallarda müraciətin aidiyyəti üzrə göndərilməsi mümkün olmadıqda və ya müraciətdə olan məlumatlar onun həlli və ya aidiyyəti üzrə göndərilməsi üçün kifayət etmədikdə;

**14-1.6.** Müraciət etmiş şəxs müraciətinə baxılmasının dayandırılması barədə ərizə ilə müraciət etdikdə.

**14-2.** Müraciət baxılmamış saxlanıldıqda müraciət müəllifinə (anonim müraciət istisna olmaqla) bunun səbəbləri göstərilməklə bu barədə 5 iş günündən gec olmayaraq, şifahi müraciətin baxılmamış saxlanılması üçün əsas olduqda isə dərhal məlumat verilməsi təmin edilsin.

Müraciətin baxılmamış saxlanmasına əsas verən hallar aradan qaldırıldıqda, ona bu əmr ilə müəyyən edilmiş qaydada baxılması təmin olunsun.

**14-3.** Müraciəti baxılmamış saxlamağa əsas verən hal müəyyən edildikdə, bilavasitə icraçı tərəfindən buna dair müvafiq arayışın tərtib edilməsi və həmin arayışın müvafiq struktur qurumun rəhbəri (idarənin (şöbənin) rəisi, rayon (şəhər) və ya ərazi hərbi prokuroru) ilə razılaşdırılması təmin edilsin.

**14-4.** Struktur qurumları olan prokurorluq orqanlarında müraciətlərin bu əmrin 14-1.4-cü bəndində göstərilən əsasa görə baxılmamış saxlanılması hallarında, müraciətə baxmış müvafiq struktur qurum tərəfindən bu barədə həmin prokurorluğun müraciətlərə baxılması qurumuna (belə qurum olmadıqda, bu sahəyə cavabdeh olan prokurorluğun müvafiq vəzifəli şəxsinə) məlumat verilməsi, həmin məlumatın müvafiq kartoteka və elektron məlumat bazasında qeydiyyata alınması təmin olunsun.

Təkrar müraciətdə məsələnin həlli üçün yeni məlumatlar olduqda və bununla da əmrin 14-1.4-cü bəndində göstərilən hal aradan qaldırıldıqda, müraciətə baxan struktur qurum tərəfindən bu barədə prokurorluğun müraciətlərə baxılması qurumunun (belə qurum olmadıqda, bu sahəyə cavabdeh olan prokurorluğun müvafiq vəzifəli şəxsinin) məlumatlandırılması və həmin məlumatın müvafiq kartoteka və elektron məlumat bazasında qeydiyyata alınması təmin edilsin.»;

**1.13.** Əmrin 15-ci bəndinin 1-ci abzasında «ən geci 5 gün müddətində» sözləri «3 iş günündən gec olmayaraq» sözləri ilə əvəz edilsin;

**1.14.** Əmrin 18-ci bəndində «"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci» sözləri «"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu» sözləri ilə əvəz edilsin;

**1.15.** Əmrin 19-cu bəndinin birinci abzasında «digər sirlərin» sözlərindən sonra «(məlumatların) yayılmasına, müraciətlərin həlli ilə bağlı olmayan fərdi məlumatların, o cümlədən xüsusi kateqoriyalı fərdi məlumatların toplanılması, saxlanılması, istifadəsi və» sözləri əlavə edilsin;

**1.16.** Əmrin 26-cı bəndinin 1-ci abzasında «1 ay,» sözləri «ən geci 15 iş günü,» sözləri ilə, «olunmadığı» sözü «olunduğu» sözü ilə, «15 gün ərzində» sözləri «30 iş günü müddətində» sözləri ilə, 2-ci abzasında «xüsusi yoxlama keçirmək, əlavə materiallar tələb etmək, yaxud» sözləri «əlavə məlumatları əldə etmək, aidiyyəti üzrə sorğu göndərmək və ya» sözləri ilə, «1 ayadək» sözləri «30 iş gününədək» sözləri ilə əvəz edilsin, həmin bəndə aşağıdakı məzmunda 4-cü abzas əlavə edilsin:

«Əgər məlumatın verilməsi barədə müraciətə yuxarıda göstərilən müddətlərdə baxılması nəticəsində lazım olan məlumat öz əhəmiyyətini itirə bilərsə, həmin müraciətə dərhal, bu mümkün olmadıqda, müraciətin daxil olduğu andan 24 saat keçənədək baxılması təmin edilsin.»;

**1.17.** Əmrin 27-ci bəndində «ən geci 15 gün» sözləri «daxil olduğu gündən etibarən ən geci 15 iş günü» sözləri ilə əvəz edilsin;

**1.18.** Əmrə aşağıdakı məzmunda 30-1-ci bənd əlavə edilsin:

**«30-1.** Müraciətə baxan subyektlərin və ya onların vəzifəli şəxslərinin müraciətlərdə göstərilən məsələlərin həlli ilə əlaqədar əlavə məlumatların öyrənilməsi üçün göndərilən sorğularının 7 iş günündən gec olmayaraq cavablandırılması təmin edilsin.»;

**1.19.** Əmrin 32-ci bəndinin birinci abzasında «şikayət təmin edilmədikdə» sözləri «müraciət baxılmamış saxlanıldıqda, qismən təmin edildikdə və ya rədd edildikdə» sözləri ilə əvəz edilsin, həmin bənddə aşağıdakı məzmunda 2-ci abzas əlavə edilsin, 2-ci abzas 3-cü abzas hesab edilsin:

«Müraciətdə göstərilən məsələlər "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edildikdə, müraciətin bu səbəbdən mahiyyəti üzrə cavablandırılmasının mümkünsüzlüyü barədə müraciət edənə məlumat verilsin.»;

**1.20.** Əmrin 34-cü bəndinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

«Müraciətin təkrarlığının müəyyən edilməsi zamanı nəzərə alınsın ki, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 3.0.14-cü maddəsinə əsasən, müraciətin bu Qanunla müəyyən edilmiş baxılması müddəti ötdükdə və ya həmin müraciət cavablandırıldıqda eyni şəxsin eyni məsələ ilə bağlı eyni müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə göndərdiyi növbəti müraciət təkrar müraciət hesab edilir.»;

3-cü abzasda «Təlimatın» sözü «Qanunun» sözü ilə əvəz edilsin;

**1.21.** Əmrin 40.2-ci bəndində «Azərbaycan Respublikasının dövlət müşavirləri,» sözlərindən əvvəl «Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri,» sözləri, «köməkçiləri» sözündən sonra «, Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavinləri» sözləri əlavə edilsin;

**1.22.** Əmrin 40.4-cü bəndində «Ali Məclisinin rəhbərliyi,» sözləri « Ali Məclisi sədrinin müavinləri,» sözləri ilə əvəz edilsin;

**1.23.** Əmrin 42-ci bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«Prokurorluqda müraciət üzrə son qərar Baş prokuror tərəfindən qəbul edilir.»;

**1.24.** Əmrin 44-cü bəndi çıxarılsın;

**1.25.** Əmrin 53-cü bəndinə aşağıdakı məzmunda 4-cü abzas əlavə edilsin, 4-cü abzas 5-ci abzas hesab edilsin:

«Vətəndaşların müraciətləri ilə əlaqədar təxirəsalınmaz tədbirlərin görülməsi tələb edildikdə, onların dərhal qəbul edilməsi təmin edilsin.»;

**1.26.** Əmrin 54-cü bəndinin birinci abzasında «tətbiq edilməsi,» sözlərindən sonra «vətəndaşların qəbula yazılmasında, həmin qəbulların təşkili və keçirilməsində elektron kommunikasiya vasitələrindən istifadə edilməsi, » sözləri əlavə edilsin.

**2.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin və «Azərbaycan Prokurorluğu» jurnalında dərc edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Zakir Qaralov**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**
№ 10/07

Bakı şəhəri 4 fevral 2016-cı il

**Baş Prokurorluq üzrə «Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyən edilmiş məsələlərin icrası və beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılması ilə əlaqədar prokurorluq orqanlarının vəzifələri barədə» 14 fevral 2007-ci il tarixli, 10/13 nömrəli əmrə dəyişikliklər edilməsi barədə**

«Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli, 1395-IVQD nömrəli Qanunu ilə Cinayət-Prosessual Məcəlləsinə bir sıra dəyişikliklər edilmişdir.

Qeyd olunan dəyişikliklərə əsasən Baş Prokurorluq üzrə 14 fevral 2007-ci il tarixli, 10/13 nömrəli əmrə müvafiq dəyişikliklərin edilməsi zərurətinin yaranması və prokurorluğun beynəlxalq əməkdaşlıq sahəsində işinin səmərəliliyinin artırılmasının təmin olunması məqsədi ilə «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 6 və 10-cu maddələrini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Əmrin 12-ci bəndinin birinci abzasında «tələblərinə əsasən müvafiq» sözləri «495-ci maddəsində nəzərdə tutulmuş» sözləri ilə əvəz edilsin.

**1.1.** Əmrin 12-ci bəndinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

«Şəxsin gələcəkdə cinayət mühakimə icraatında iştirakının və ya barəsində olan hökmün icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası CPM-nin tələblərinə müvafiq tədbirlərin görülməsi təmin edilsin.»

**2.** Əmrin 14-cü bəndinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

«Şikayətlərə məhkəmələrdə baxılarkən proseslərdə İdarə prokurorlarının iştirakı təmin edilsin.»

**3.** Əmr elan və icra olunması üçün Azərbaycan Respublikası Prokurorluğunun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin və «Azərbaycan Prokurorluğu» jurnalında dərc edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Zakir Qaralov**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1213-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 82; 2001, № 12, maddə 736; 2002, № 3, maddə 116, № 5, maddə 245; 2004, № 2, maddələr 57, 58; 2005, № 4, maddə 278; 2007, № 8, maddə 752, № 11, maddə 1079; 2009, № 4, maddə 212, № 8, maddə 611; 2010, № 3, maddə 172; 2015, № 2, maddə 82; Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1351-IVQD nömrəli, 20 oktyabr tarixli 1399-IVQD nömrəli qanunları) 19-cu maddəsində "təsisçinin və ya məhkəmənin" sözləri "təsisçinin, məhkəmənin və ya "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda teleradio yayımı sahəsində müvafiq dövlət orqanının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 dekabr 2015-ci il
№ 93-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12, I kitab, maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1381-IVQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.0.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"2.0.7.** lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsi;".

**2.** 22-ci maddə üzrə:

**2.1.** maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti növlərinə

lisenziya verilməsinə görə dövlət rüsumunun dərəcələri";

**2.2.** 22.1-ci və 22.2-ci maddələrdə "Xüsusi razılıq (lisenziya) alınması tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya)" sözləri "Lisenziya" sözü ilə əvəz edilsin.

**3.** 23-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 23.** Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinə görə dövlət rüsumunun ödənilməsindən azadolmalar və ödənilməsinin xüsusiyyətləri

**23.1.** Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti yalnız Bakı şəhərində həyata keçirildikdə, habelə eyni vaxtda həm Bakı şəhərində, həm də Azərbaycan Respublikasının regionlarında həyata keçirildikdə, həmin fəaliyyət növü üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumu ödənilir.

**23.2.** Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti yalnız Azərbaycan Respublikasının regionlarında həyata keçirildikdə, həmin fəaliyyət növü üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumunun 50 faizi (regional televiziya yayımı və regional radio yayımı istisna olmaqla) ödənilir.

**23.3.** Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyətinin bir neçə alt növünün eyni vaxtda həyata keçirilməsi üçün müraciət edildikdə, həmin alt növlərdən biri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumu ödənilir. Bu zaman həmin alt növlər üçün müəyyən edilmiş rüsumlardan ən yüksək olanı ödənilir. Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyətinin müvafiq növü üzrə bir və ya bir neçə iş və xidmətlərin həyata keçirilməsi üçün müraciət edildikdə, iş və xidmətlərin sayından asılı olmayaraq həmin fəaliyyət növü üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumu ödənilir.

**23.4.** Lisenziya verildikdən sonra lisenziya sahibi lisenziyada göstərilən fəaliyyət növünü başqa obyektlərdə də həyata keçirmək və ya lisenziyanın əlavəsində göstərilməyən iş və xidmətlərlə məşğul olmaq üçün lisenziya əlavəsinin alınması məqsədi ilə müraciət etdikdə, obyektlərin və ya iş və xidmətlərin sayından asılı olmayaraq müvafiq fəaliyyət növünə lisenziya verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumunun 50 faizi ödənilir. Bu zaman bu Qanunun 23.3-cü maddəsinin müddəaları tətbiq olunur.

**23.5.** Lisenziyanın yenidən rəsmiləşdirilməsi və bərpası üçün dövlət rüsumu ödənilmir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 dekabr 2015-ci il
№ 82-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Polis haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611; 2001, № 11, maddə 699, № 12, maddə 731; 2002, № 3, maddə 118, № 6, maddə 328; 2003, № 1, maddə 22, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007, № 8, maddə 756; 2008, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696, № 10, maddə 883; 2009, № 6, maddələr 399, 401; 2010, № 2, maddə 74, № 3, maddə 171; 2014, № 2, maddə 87, № 11, maddə 1360; 2015, № 5, maddə 486) 15-1-ci maddəsinin 1-ci bəndində və 19-1-ci maddəsinin 1-ci və 3-cü bəndlərinə "öz vəzifələrini" sözlərindən sonra "üzrlü səbəblər olmadan" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 dekabr 2015-ci il
№ 85-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 88; 2001, № 11, maddələr 669, 676; 2002, № 1, maddə 2, № 5, maddələr 237, 243; 2006, № 6, maddə 478; 2007, № 8, maddə 756, № 12, maddə 1197; 2008, № 7, maddə 602, № 8, maddə 701; 2009, № 7, maddə 519; 2010, № 3, maddə 171; 2013, № 3, maddə 229, № 5, maddə 470; 2014, № 11, maddə 1336; 2015, № 5, maddə 497) 15-ci maddəsinin ikinci hissəsi üçüncü hissə hesab edilsin və aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Şəxsin iradəsi ziddinə onun yaşayış yerinə və ya olduğu yerə polis əməkdaşının daxil olması qaydası Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi və "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Polis əməkdaşı Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Polis haqqında" Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinin 1-ci və 2-ci hissələrində göstərilmiş hallar və əsaslar olmadan şəxsin iradəsi ziddinə onun yaşayış yerinə və ya olduğu yerə daxil ola bilməz.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 dekabr 2015-ci il
№ 89-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi təsdiq edilsin.

**Maddə 2.** "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080,

1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; 2015, № 2, maddələr 80, 94, 106, № 3, maddə 258, № 4, maddələr 340, 344, 349, 353, 356, 360, № 5, maddələr 505, 506, 509, № 6, maddələr 679, 691, № 10, maddələr 1087, 1099, 1106, № 11, maddələr 1267, 1269, 1274, 1283, 1293, 1295, 1299; Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1389-IVQD nömrəli, 4 dekabr tarixli 32-VQD nömrəli, 18 dekabr tarixli 41-VQD, 58-VQD, 69-VQD nömrəli, 29 dekabr tarixli 90-VQD və 92-VQD nömrəli qanunları) 2016-cı il martın 1-dən ləğv edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasında qüvvədə olan digər qanunlar və normativ hüquqi aktlar bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırılanadək həmin Məcəlləyə zidd olmayan hissədə tətbiq edilir.

**Maddə 4.** Bu Qanun 2016-cı il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 dekabr 2015-ci il
№ 96-VQ

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452, № 12, maddə 731; 2002, № 12, maddə 706; 2005, № 10, maddə 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 3, maddə 171, № 11, maddə 944; 2011, № 2, maddə 71, № 11, maddə 988; 2012, № 11, maddə 1039; 2014, № 3, maddə 238) aşağıdakı məzmunda 14.4-cü və 14.5-ci maddələr əlavə edilsin:

**"14.4.** Attestasiya olunan prokurorluq işçisinə onun xidməti fəaliyyətinə bilavasitə aid olmayan sualların verilməsi, habelə onun siyasi baxışlarına və etiqadına görə qiymətləndirilməsi yolverilməzdir.

**14.5.** Attestasiyanın nəticələri (qiymət və tövsiyələr), habelə attestasiya zamanı verilən suallar və cavablar 1 (bir) nüsxədə tərtib edilən, sədr, katib və attestasiya komissiyasının səsvermədə iştirak etmiş digər üzvləri tərəfindən imzalanan attestasiya vərəqəsinə yazılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 dekabr 2015-ci il
№ 80-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Polis haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611; 2001, № 11, maddə 699, № 12, maddə 731; 2002, № 3, maddə 118, № 6, maddə 328; 2003, № 1, maddə 22, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007, № 8, maddə 756; 2008, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696, № 10, maddə 883; 2009, № 6, maddələr 399, 401; 2010, № 2, maddə 74, № 3, maddə 171; 2014, № 2, maddə 87, № 11, maddə 1360; 2015, № 5, maddə 486, № 11, maddə 1277; Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 30-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci maddənin birinci hissəsinin yeddinci abzasında nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"yaşayış yeri – bir və ya bir neçə şəxsin yaşaması üçün müvəqqəti, yaxud daimi istifadə edilən yer, o cümlədən ev, mənzil, bağ evi, mehmanxanada, sanatoriyada, pansionatda, yataqxanada, istirahət evində, kempinqdə, turist bazasında otaq, onlara bilavasitə bitişik aynabəndlər, terraslar, qalereyalar, eyvanlar, ümumi istifadə üçün yerlər (onların istirahət, əmlak saxlamaq, yaxud insanların digər tələbatlarını təmin etmək üçün istifadə olunan digər tərkib hissələri), çoxmənzilli evdən başqa tikililərin zirzəmisi və çardağı, habelə dəniz gəmisinin kayutu və ya uzaq səfərdə olan qatarın kupesidir (bunlardan əlavə bu Qanunun məqsədləri üçün yaşayış yeri anlayışı fiziki şəxsin xidməti kabinetini, ona məxsus çəpərli torpaq sahəsini, avtomobili, çay və dəniz gəmisini əhatə edir).".

**2.** 21-ci maddə üzrə:

**2.1.** III hissənin:

**2.1.1.** 1-ci və 2-ci bəndlərindən "və ya inzibati xəta" sözləri çıxarılsın;

**2.1.2.** 3-cü bəndində "mənzilində cinayətin və ya inzibati xətanın" sözləri "yaşayış yerində, nəqliyyat vasitəsində cinayətin" sözləri ilə əvəz edilsin;

**2.2.** aşağıdakı məzmunda III-I hissə əlavə edilsin:

"III-I. Şəxsin inzibati qaydada tutulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş hallarda həyata keçirilir.".

**3.** 22-ci maddənin II hissəsində "III hissəsində" sözləri "III və III-I hissələrində" sözləri ilə əvəz edilsin.

**4.** 24-cü maddə üzrə:

**4.1.** I hissədə "mənzilə" sözü "yaşayış yerinə" sözləri ilə əvəz edilsin;

**4.2.** II hissə aşağıdakı redaksiyada verilsin:

**"II.** Hakimin qərarı olmadan polis əməkdaşı yaşayış yerinə orada yaşayanların iradəsi ziddinə aşağıdakı əsaslardan birinin olması barədə dəqiq məlumatı olduğu halda bu Qanunun 25-ci maddəsində müəyyən edilmiş qaydada daxil olur:

**1)** şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayətin törədilməsinə və ya həmin cinayətin törədilməsinə hazırlığın aparılmasına dəlalət edən əşya və ya sənədlərin yaşayış yerində gizlədilməsi;

**2)** şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayəti hazırlayan, törədən, törətmiş, azadlıqdan məhrum etmə və ya həbs yerlərindən, yaxud mühafizə altından qaçmış şəxsin yaşayış yerində gizlənməsi;

**3)** yaşayış yerində insan meyitinin (meyit hissələrinin) olması;

**4)** yaşayış yerində insanın həyat və ya səhhəti üçün real təhlükənin olması;

**5)** cinayət törətmiş şəxsin bilavasitə "isti izlərlə" təqib edilməsi.".

**5.** 25-ci maddə üzrə:

**5.1.** I hissənin:

**5.1.1.** 1-ci, 2-ci (hər iki halda) və 5-ci bəndlərində "mənzilə" sözü "yaşayış yerinə" sözləri ilə əvəz edilsin;

**5.1.2.** 3-cü (hər iki halda), 4-cü və 7-ci bəndlərində "mənzilə" və "mənzildə" sözləri müvafiq olaraq "yaşayış yerinə" və "yaşayış yerində" sözləri ilə əvəz edilsin;

**5.2.** II hissədə "qanunvericiliyində" sözü "Cinayət-Prosessual Məcəlləsində və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2016-cı il
№ 120-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 612; 2002, № 5, maddə 250, № 6, maddə 328; 2004, № 3, maddə 133; 2005, № 12, maddə 1079; 2006, № 2, maddə 64, № 11, maddə 933, № 12, maddə 1005; 2007, № 6, maddə 560; 2008, № 4, maddə 252, № 6, maddə 462; 2010, № 3, maddə 172, № 6, maddə 487; 2011, № 4, maddələr 252, 268, № 11, maddə 989; 2014, № 2, maddə 88, № 7, maddə 764) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 10-cu maddə üzrə:

**1.1.** I hissənin:

**1.1.1.** 8-ci bəndində “yaşayış binalarına, habelə digər qapalı tikililərə” sözləri “yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə” sözləri ilə əvəz edilsin;

**1.1.2.** 9-cu bəndində “yaşayış binalarının, habelə digər qapalı tikililərin” sözləri “yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərinin” sözləri ilə əvəz edilsin;

**1.2.** III hissə aşağıdakı redaksiyada verilsin:

**“III.** Bu maddənin I hissəsinin 3-5, 8, 9 (texniki vasitələrdən istifadə etməklə və ya səsyazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə yaşayış yerinə münasibətdə) və 10-cu bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri bu maddənin IV hissəsində göstərilən hallar istisna olmaqla, məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilir.”;

**1.3.** IV hissənin 2-ci bəndində “yaşayış binalarına, habelə digər qapalı tikililərə” sözləri “yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə” sözləri ilə əvəz edilsin;

**1.4.** aşağıdakı məzmunda “Qeyd” hissəsi əlavə edilsin:

**“Qeyd:** Bu Qanunun 10-cu və digər maddələrində “yaşayış yeri” dedikdə, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 7.0.34-cü maddəsində nəzərdə tutulmuş yerlər başa düşülür.”.

**2.** 12-ci maddənin III hissəsinə “8” rəqəmindən sonra “, 9 (texniki vasitələrdən istifadə etməklə və ya səsyazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə yaşayış yerinə münasibətdə)” sözləri əlavə edilsin.

**3.** 13-cü maddənin II hissəsində “mənzillərə” sözü “binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2016-cı il
№ 121-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №8, (II kitab), maddə 585; 2001, №7, maddə 455; 2002, №1, maddə 9, №5, maddə

233, №8, maddə 463; 2003, №6, maddə 276; 2004, №5, maddə 321, №7, maddə 505, №8, maddə 598, №10, maddə 761, №11, maddə 890; 2005, №1, maddə 4, №4, maddə 278, №6, maddə 462, №8, maddə 686, №10, maddə 874, №12, maddə 1079; 2006, №1, maddə 3, №2, maddə 64, №5, maddə 390, №10, maddə 847, №11, maddə 929, №12, maddə 1032; 2007, №2, maddələr 65, 68, №6, maddə 560, №7, maddə 712, №8, maddə 756, №11, maddə 1049, №12, maddə 1221; 2008, №6, maddə 462, №7, maddələr 606, 607, №12, maddələr 1045, 1049; 2009, №5, maddə 315, №7, maddə 517, №12, maddə 966; 2010, №3, maddələr 171, 173, 178, №7, maddə 593, №12, maddə 1058; 2011, №6, maddə 480, №7, maddələr 589, 599; 2012, №7, maddə 674, №11, maddə 1062, №12, maddə 1215; 2013, №2, maddə 77, №6, maddələr 616, 626, №7, maddə 786, №11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288) aşağıdakı dəyişikliklər edilsin:

1. 7.0.34-cü maddədən "mülkiyyətində olan və ya icarəyə götürülmüş" sözləri çıxarılsın və həmin maddədə "yataqxanada" sözü "sanatoriyada, pansionatda, yataqxanada, istirahət evində, kempinqdə, turist bazasında" sözləri ilə əvəz edilsin.

2. 243.3.2-ci maddədə "həbsdən və ya azadlıqdan məhrum etmə yerlərindən" sözləri "azadlıqdan məhrum etmə və ya həbs yerlərindən, yaxud mühafizə altından" sözləri ilə əvəz edilsin.

3. 445.1.5-ci maddədə "mənzilin" sözü "yaşayış yerinin" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2016-cı il
№ 122-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**"Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, "Polis haqqında" Azərbaycan Respublikası Qanununu "Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1324-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Polis haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611; 2001, № 11, maddə 699, № 12, maddə 731; 2002, № 3, maddə 118, № 6, maddə 328; 2003, № 1, maddə 22, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007, № 8, maddə 756; 2008, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696, № 10, maddə 883; 2009, № 6, maddələr 399, 401; 2010, № 2, maddə 74, № 3, maddə 171; 2014, № 2, maddə 87, № 11, maddə 1360; 2015, № 5, maddə 486, № 11, maddə 1277; Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 30-VQD nömrəli və 29 dekabr tarixli 85-VQD nömrəli qanunları) 28-ci maddəsinin VI hissəsində "mükəlləfiyyət qeydiyyatından" sözləri "qeydiyyatdan" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 fevral 2016-cı il
№ 131-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361; 2015, № 11, maddə 1294) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.0.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"1.0.5.** maliyyə monitorinqi orqanı – müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum;".

**2.** 4.0.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"4.0.3.** investisiya şirkətləri;".

**3.** 4.0.4-cü maddədə "kredit təşkilatları" sözləri "hüquqi şəxslər" sözləri ilə əvəz edilsin.

**4.** 6.1.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"6.1.1.** kredit təşkilatları, lizinq xidmətləri göstərən hüquqi şəxslər, investisiya şirkətləri, investisiya fondları, sığortaçı, təkrarsığortaçı və sığorta vasitəçiləri, pul vəsaitlərinin köçürülməsi ilə məşğul olan poçt xidməti göstərən müəssisələr, lotereya təşkilatçısı, lombardlar və daşınmaz əmlakın alğı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslər üçün – maliyyə monitorinqi orqanı;".

**5.** 6.1.2, 6.1.4 və 6.2-ci maddələr ləğv edilsin.

**6.** 6.1.3-cü maddədən "sığortaçı, təkrarsığortaçı və sığorta vasitəçiləri," sözləri çıxarılsın.

**7.** 17.1-ci maddədə "dövlət orqanını" sözləri "qurumu" sözü ilə əvəz edilsin.

**8.** 17.7-ci maddədə "Əsasnamə" sözü "Nizamnamə" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 mart 2016-cı il
№ 147-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 102.1-ci maddəyə "qaydaları əleyhinə" sözlərindən sonra "və bu Məcəllənin 602.1-ci və 602.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri əlavə edilsin.

**2.** 263-cü, 280-ci, 537.1-ci, 539.2-ci, 544.1-ci, 545-ci, 548.1-ci, 548.2-ci, 551.1-ci, 551.2-ci və 598.0.6-cı maddələrdə "görə" sözündən əvvəl "(sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan yoxlamalara münasibətdə bu Məcəllənin 602.4-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olunmaqla)" sözləri əlavə edilsin.

**3.** 494-cü maddədə "keçirməsinə" sözündən sonra "sahibkar olmayan subyekt tərəfindən" sözləri əlavə edilsin.

**4.** 548.1-ci maddədən "və ya yoxlayıcıların yoxlama yerinə buraxılmamasına" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 mart 2016-cı il
№ 171-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 40.0.3-cü maddədə "Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti" sözləri "müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum" sözləri ilə əvəz edilsin.

**2.** 416-cı maddə üzrə:

**2.1.** maddənin adında və 416.0-cı maddədə "peşəkar" sözü "lisenziyalaşdırılan" sözü ilə əvəz edilsin;

**2.2.** 416.0.1-ci maddədə "broker" sözü "investisiya şirkəti" sözləri ilə əvəz edilsin;

**2.3.** 416.0.2-ci, 416.0.4-cü və 416.0.6-cı maddələr ləğv edilsin;

**2.4.** 416.0.5-ci maddədə "depozitar" sözü "investisiya fondunun depozitarı" sözləri ilə əvəz edilsin.

**3.** 417-ci maddə ləğv edilsin.

**4.** 419-cu maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 419-cu maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.".

**5.** 421-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 421.** Qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər və emitentlər tərəfindən hesabatın və ya məlumatların verilməsindən imtina etmə və ya yayınma, yaxud təhrif edilmiş məlumatın verilməsi

Qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər və emitentlər tərəfindən "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hesabatın və ya digər məlumatların müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma təqdim edilməsindən yayınmağa və ya imtina edilməsinə, yaxud təhrif edilmiş məlumatın verilməsi və ya onların təqdim edilməsi müddətinin pozulmasına görə -

vəzifəli şəxslər altı yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.".

**6.** 422-ci maddənin adında və dispozisiyasında "bazarının iştirakçısı" sözləri "bazarında lisenziyalaşdırılan şəxslər və emitent" sözləri ilə əvəz edilsin.

**7.** 429.0.2-ci maddədə "müvafiq icra hakimiyyəti orqanının" sözlərindən sonra "yaratdığı qurumun" sözləri əlavə edilsin.

**8.** 433-cü maddədə "vəzifəli şəxslər" sözlərindən sonra "min" sözü əlavə edilsin, "min beş yüz" sözləri isə "on min" sözləri ilə əvəz edilsin.

**9.** 434-cü maddədə "beş yüz" sözləri "iki min" sözləri ilə, "min beş yüz" sözləri isə "on iki min" sözləri ilə əvəz edilsin.

**10.** 435-ci maddədə "Azərbaycan Respublikası Mərkəzi Bankının" sözləri "müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun" sözləri ilə, "min" sözü isə "iki min beş yüz" sözləri ilə əvəz edilsin.

**11.** 437-ci maddə ləğv edilsin.

**12.** 439.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"439.1.** Bank statistikası hesabatlarının müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma və Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə görə-

vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir.".

**13.** 439.2-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"439.2.** Bank və ya xarici bankın yerli filialı tərəfindən prudensial hesabatların müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma, maliyyə hesabatlarının isə müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma və Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə görə-".

**14.** 440-cı maddədə "beş yüz manatdan yeddi yüz" sözləri "min beş yüz manatdan iki min" sözləri ilə, "beş min manatdan yeddi" sözləri isə "on min manatdan on iki" sözləri ilə əvəz edilsin.

**15.** 463-cü maddədə "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri "müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum" sözləri ilə, "dörd yüz manatdan yeddi" sözləri isə "min manatdan min beş" sözləri ilə əvəz edilsin.

**16.** 548-ci maddə üzrə:

**16.1.** maddənin adında "Qiymətli kağızlar bazarında nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının" sözləri "Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun" sözləri ilə əvəz edilsin;

**16.2.** 548.1-ci maddənin:

**16.2.1.** dispozisiyasında "Qiymətli kağızlar bazarında nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanı" sözləri "Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum" sözləri ilə əvəz edilsin;

**16.2.2.** sanksiyasında "səkkiz yüz manatdan doqquz" sözləri "min manatdan min beş" sözləri ilə, "üç min manatdan dörd" sözləri isə "altı min manatdan on" sözləri ilə əvəz edilsin.

**16.3.** 548.2-ci maddədə "Qiymətli kağızlar bazarında nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının" sözləri "Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun" sözləri ilə, "qiymətli kağızlar bazarının iştirakçıları" sözləri isə "maliyyə bazarlarında nəzarət edilən subyekt və emitent" sözləri ilə əvəz edilsin;

**16.4.** aşağıdakı məzmunda 548.3-cü maddə əlavə edilsin:

**"548.3.** Bank fəaliyyətinə dair prudensial normativlərin və tələblərin pozulması aşkar edildikdə, həmin pozuntunun aradan qaldırılması barədə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun göstərişinin vaxtında icra edilməməsinə görə -

vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər on beş min manatdan iyirmi min manatadək məbləğdə cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 mart 2016-cı il
№ 137-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 890) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 13.4-cü maddə əlavə edilsin:

**"13.4.** Yoxlayıcı orqanlar sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınmış və hər hansı səbəbdən aparılmamış yoxlama barədə məlumatı həmin səbəblər göstərilməklə, yoxlamanın aparılması nəzərdə tutulan tarixdən beş iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına verməlidirlər.".

**2.** 20.7-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Yoxlayıcı tərəfindən bu Qanunun 20.1-ci, 20.5-ci və 20.9-cu maddələrində müəyyən edilmiş vəzifələrə riayət edildiyi və sahibkarın bu Qanunun 20.2-ci, 20.11-ci və 20.12-ci maddələrində nəzərdə tutulmuş hüquqlarına maneçilik törədilmədiyi halda, sahibkar yoxlama prosesində bu Qanunun 20.7-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş yerlərə (obyektlərə) baxış keçirilməsinə mane olmamalıdır.".

**3.** 34.1-ci maddədə "inzibati" sözündən sonra "(yuxarı dövlət orqanına və ya müvafiq icra hakimiyyəti orqanına)" sözləri əlavə edilsin.

**4.** Aşağıdakı məzmunda 34.5-ci maddə əlavə edilsin:

**"34.5.** Verilmiş şikayət və ya Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş digər səbəblər əsasında müvafiq icra hakimiyyəti orqanı yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınmadan yoxlama aparılması və ya qeydiyyata alınmış yoxlama barədə məlumatın verilməsi qaydalarının pozulması ilə bağlı müvafiq inzibati xətanın əlamətlərini müəyyən etdikdə, yuxarı dövlət orqanı isə yoxlayıcı orqanlar (yoxlayıcılar) tərəfindən yoxlamaların qeydiyyatı ilə bağlı tələblər və prosedurlar istisna olmaqla, bu Qanunla müəyyən edilmiş digər tələblərin və prosedurların pozulması ilə bağlı müvafiq inzibati xətanın əlamətlərini müəyyən etdikdə, inzibati xətalar haqqında işlər üzrə icraata başlamaq üçün Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun tədbirlər görməlidirlər.".

**5.** 35.1-ci maddədə "tələblərinin" sözü "yoxlamalarla bağlı müəyyən edilmiş tələblərinin və prosedurlarının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 mart 2016-cı il
№ 170-VQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun 2016-cı il martın 1-dən tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** üç ay müddətində:

**1.1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.3.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 42.2-ci maddəsinə uyğun olaraq inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.4.** həmin Məcəllənin 43.2-ci maddəsinə uyğun olaraq rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.5.** həmin Məcəllənin 45–47, 122.1 və 125-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** dörd ay müddətində:

**1.2.1.** həmin Məcəllənin 94.10 və 94.11-ci maddələrinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

**1.2.2.** həmin Məcəllənin 100.5 və 114.4-cü maddələrinə uyğun olaraq inzibati xəta haqqında protokolun və səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın (qərardadın) formalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

**1.2.3.** həmin Məcəllənin 452.1-ci maddəsinə uyğun olaraq yetkinlik yaşına çatmayanlara dərman vasitələrinin buraxılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

**1.2.4.** həmin Məcəllənin 94.9-cu maddəsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş odlu silahın, onun patronlarının, digər silahın və döyüş sursatının saxlanılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** beş ay müddətində:

**1.3.1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 25.4-cü maddəsini və həmin Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulan cərimə məbləğlərini nəzərə alaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cərimə məbləğlərinin artırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.3.2.** qüvvədə olan normativ hüquqi aktlarda nəzərdə tutulan maliyyə sanksiyalarının ləğv edilməsi və həmin sanksiyaların tətbiqinə əsas olan hüquqpozmalara görə inzibati məsuliyyətin müəyyən edilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.3.3.** siqaretin çəkilməsi qadağan olan yerləri müəyyən edən "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.3.4.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "Azərbaycan Respublikası İn-

zibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər barədə hər ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**4.** Müəyyən edilsin ki:

**4.1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 40.0.3, 42.2, 43.2, 43.3, 192.3, 421, 429.0.2, 435, 439.1, 439.2 (hər iki halda), 463-cü maddələrində, 548-ci maddəsinin adında, 548.1, 548.2 və 548.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**4.1-1.** həmin Məcəllənin 40.0.3, 421, 429.0.2, 435, 439.1, 439.2 (hər iki halda), 463-cü maddələrində, 548-ci maddəsinin adında, 548.1, 548.2 və 548.3-cü maddələrində "müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum" dedikdə, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası nəzərdə tutulur.

**4.2.** həmin Məcəllənin 115.4.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirir;

**4.3.** həmin Məcəllənin 37.6, 56.1, 56.3, 94.9, 94.10, 94.11, 100.5, 114.4, 189.2, 248.1.3, 269.0.6, 290.1.3, 290.1.9-cu maddələrində, 333-cü maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndində və 340.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

**4.4.** həmin Məcəllənin 16.4-cü maddəsində, 16-cı maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində və 114.2.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti nəzərdə tutulur;

**4.5.** həmin Məcəllənin 28.1, 57.3, 59.2, 154.1, 154.3, 168, 395.1-ci maddələrində, 395-ci maddəsinin "Qeyd" hissəsində, 454, 531.1, 531.2 və 608.1-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

**4.6.** həmin Məcəllənin 37.3, 162.3, 163, 213.0.2, 219, 428.4, 562.1 və 562.2-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

**4.7.** həmin Məcəllənin 40.0.3-cü maddəsində və 44-cü maddəsinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanları" dedikdə, bu Fərmanın 5-ci hissəsində göstərilmiş inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri və digər müvafiq icra hakimiyyəti orqanları, habelə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

**4.8.** həmin Məcəllənin 81.2, 110.3-cü maddələrində, 122.1-ci maddəsinin birinci cümləsində, 122.2, 122.5, 123.1, 123.2-ci maddələrində, 124.4-cü maddəsinin birinci və dördüncü cümlələrində, 124.5, 124.6, 125.1,125.4, 125.6, 126.3 və 339.5-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sistemi" dedikdə, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;

**4.9.** həmin Məcəllənin 87.3, 88.1.1, 96.1.6, 97.1-ci maddələrində, 97.3-cü maddəsinin birinci və üçüncü cümlələrində, 97.4, 98-ci maddələrində, 124.1-ci maddəsinin ikinci və üçüncü cümlələrində, 125.5, 152.2, 156.2, 327.3, 339.4, 345.2, 352.0.11, 354.0.8 (yol hərəkətinin təhlükəsizliyi sahəsində), 428.5, 590.1, 590.2, 592, 597.0.2 və 597.0.3-cü maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

**4.10.** həmin Məcəllənin 88.1.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti nəzərdə tutulur;

**4.11.** həmin Məcəllənin 88.1.4 və 293.6-cı maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur;

**4.12.** həmin Məcəllənin 88.1.6, 155.2, 155.3, 155.5, 578.5 və 578.6-cı maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti nəzərdə tutulur;

**4.13.** həmin Məcəllənin 92.3-cü maddəsində və 550-ci maddənin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti nəzərdə tutulur;

**4.14.** həmin Məcəllənin 122.1-ci maddəsinin ikinci cümləsində, 125.1, 125.2.1, 125.2.2, 125.6 və 339.5-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi" dedikdə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur;

**4.15.** həmin Məcəllənin 125.4-cü maddəsində (birinci halda) "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzərdə tutulur;

**4.16.** həmin Məcəllənin 150.4-cü maddəsində "müvafiq icra hakimiyyəti orqanlarının informasiya sistemləri" dedikdə, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur;

**4.17.** həmin Məcəllənin 150.11-ci maddəsinin altıncı cümləsində, 150.13-cü maddəsinin dördüncü cümləsində, 580-ci maddəsində, 581-ci maddəsinin adında və mətnində, 602.2.1, 602.2.2, 602.2.3-cü maddələrində "müvafiq icra hakimiyyəti orqanı", 549-cu maddəsində isə "bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan" dedikdə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

**4.18.** həmin Məcəllənin 152.3-cü maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (kiçik həcmli gəmilərə münasibətdə) və Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası (digər gəmilərə münasibətdə) nəzərdə tutulur;

**4.19.** həmin Məcəllənin 152.4, 234.0.1, 253.3.4, 269.0.5-ci maddələrində, 541-ci maddəsinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

**4.20.** həmin Məcəllənin 194-cü maddəsində, 539-cu maddəsinin adında, 539.1, 539.2, 540.1, 540.2 və 556.3-cü maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

**4.21.** həmin Məcəllənin 195.1 və 195.2-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanları" dedikdə, Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

**4.22.** həmin Məcəllənin 198.0.9-cu maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi nəzərdə tutulur;

**4.23.** həmin Məcəllənin 231.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində yerləşən mədəni sərvətlərə münasibətdə isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi nəzərdə tutulur;

**4.24.** həmin Məcəllənin 248.1.1 və 248.1.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi (Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və rayon (şəhər) icra hakimiyyəti orqanları ilə razılaşdırmaqla) həyata keçirir;

**4.25.** həmin Məcəllənin 276.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

**4.26.** həmin Məcəllənin 284.1 və 289.0.3-cü maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

**4.27.** həmin Məcəllənin 311 və 394.0.7-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

**4.28.** həmin Məcəllənin 342.1.9-cu maddəsində "müvafiq icra hakimiyyəti orqanları" dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

**4.29.** həmin Məcəllənin 352.0.1, 354.0.8 (yol hərəkətinin təhlükəsizliyi sahəsi istisna olmaqla) maddələrində və 552-ci maddəsinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

**4.30.** həmin Məcəllənin 394.0.4, 432.2, 515.0.1 və 516.0.1-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nəzərdə tutulur;

**4.31.** həmin Məcəllənin 403 və 405-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Vergilər Nazirliyinə bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsi nəzərdə tutulur;

**4.32.** *çıxarılmışdır;*

**4.33.** həmin Məcəllənin 428.3, 544.1 və 544.2-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

**4.34.** həmin Məcəllənin 428.7-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, rayon və şəhər icra hakimiyyəti orqanları, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi nəzərdə tutulur;

**4.35.** həmin Məcəllənin 432.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

**4.36.** həmin Məcəllənin 461.1, 461.2-ci maddələrində, 545-ci maddəsinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Vergilər Nazirliyi nəzərdə tutulur;

**4.37.** həmin Məcəllənin 465-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

**4.38.** həmin Məcəllənin 477-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulur;

**4.39.** həmin Məcəllənin 479, 481, 482.3, 484-cü maddələrində, 485-ci maddəsinin adında və mətnində, 486-cı maddəsində, 487-ci maddəsinin adında, 487.1–487.4, 488 (hər iki halda), 489, 491.2, 491.3, 492.1 və 493-cü maddələrində, 494, 495, 506 və 546-cı maddələrinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur;

**4.40.** həmin Məcəllənin 516.0.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

**4.41.** həmin Məcəllənin 537-ci maddəsinin adında, 537.1 və 537.2-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi nəzərdə tutulur;

**4.42.** həmin Məcəllənin 542-ci maddəsinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

**4.43.** həmin Məcəllənin 543-cü maddəsinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

**4.44.** həmin Məcəllənin 555.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

**4.45.** həmin Məcəllənin 557.1, 557.2 və 561-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi nəzərdə tutulur;

**4.46.** həmin Məcəllənin 558.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, rayon və şəhər icra hakimiyyəti orqanları nəzərdə tutulur;

**4.47.** həmin Məcəllənin 573.1 və 573.2-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanları" dedikdə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti nəzərdə tutulur;

**4.48.** həmin Məcəllənin 597.0.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının ərazisində xarici hüquqi şəxslər, yaxud əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş hüquqi şəxslərə, o cümlədən birbaşa və ya dolayı yolla xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, digər hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

**4.49.** həmin Məcəllənin 603.1–603.3, 604, 605, 606.2.1, 606.2.3, 606.3 və 609.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səfərbərlik

və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri həyata keçirirlər.

**5.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 40.0.3-cü maddəsinə müvafiq olaraq müəyyən edilsin ki:

**5.1.** həmin Məcəllənin 157, 209, 212.1, 227, 266.3, 266.4, 290.1.1–290.1.6, 290.2 (baxılması səlahiyyətlərinə aid edilmiş maddələr üzrə), 306, 322.0.2, 323, 327.1–327.7, 328–331, 332.1–332.3, 333.1, 334.1, 335.1–335.4, 336, 337.1–337.4, 338.1–338.6, 339.1, 342.1.1–342.1.8, 342.1.10, 342.2–342.7, 343.1, 343.4, 344–347, 352.0.1–352.0.3, 352.0.6, 352.0.11, 352.0.12, 353.1–353.3, 354.0.1, 354.0.4, 354.0.7, 355–358, 428.5, 443.2, 510, 513, 514, 517.0.1–517.0.6, 517.0.9–517.0.13, 520, 521, 523, 524, 563.1, 564, 565, 583–586, 588, 589, 590.1, 591 və 593-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi baxır;

**5.2.** həmin Məcəllənin 189.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə yerli icra hakimiyyəti başçısının şəhər, qəsəbə, kənd və ya sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri baxırlar;

**5.3.** həmin Məcəllənin 191.2 və 477-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu baxır;

**5.4.** həmin Məcəllənin 192–194, 198–203, 469.2, 539, 540, 556 və 576-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi baxır;

**5.5.** həmin Məcəllənin 195.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

**5.6.** həmin Məcəllənin 210, 211, 213–220, 225.1, 265, 428.4 və 452-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi baxır;

**5.7.** həmin Məcəllənin 212.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və ya Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi baxır;

**5.8.** həmin Məcəllənin 222-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin maddədə göstərilən məhsulların istehsalı və satışaqədər saxlanması mərhələsində Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, həmin məhsulların istehlakçılara təklif olunması mərhələsində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;

**5.9.** həmin Məcəllənin 223, 224, 225.2 və 226-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi baxır;

**5.10.** həmin Məcəllənin 228, 233, 243.0.2, 243.0.7, 243.0.8 və 243.0.9-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

**5.11.** həmin Məcəllənin 230, 234, 236–242, 243.0.3, 243.0.5, 243.0.6, 244 (meşə fondu torpaqlarına aid hissəsində), 253–261, 264.0.1, 264.0.4, 264.0.6, 264.0.7, 266.1, 266.2, 269, 271, 273, 274, 275, 291, 292 və 541-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır;

**5.12.** həmin Məcəllənin 231.1, 480–505, 507, 509 və 546-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi baxır;

**5.13.** həmin Məcəllənin 231.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, bu inzibati xətalar "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində yerləşən mədəni sərvətlərə münasibətdə törədildikdə isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi baxır;

**5.14.** həmin Məcəllənin 231.3 və 231.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə mədəni irsə münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, təbii irsə münasibətdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, bu inzibati xətalar "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində törədildikdə isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi baxır;

**5.15.** həmin Məcəllənin 232, 283, 284.1, 284.3, 285, 287–289, 290.1.7–290.1.9, 290.2 (baxılması səlahiyyətlərinə aid edilmiş maddələr üzrə) və 340.1-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi baxır;

**5.16.** həmin Məcəllənin 235, 243.0.4, 268, 276, 277, 311, 518, 519, 536 və 543-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi baxır;

**5.17.** həmin Məcəllənin 243.0.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması tələblərinin pozulması hissəsində Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların (normaların, qaydaların) tələblərinin pozulması hissəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların (normaların, qaydaların) tələblərini pozmaqla torpaq və ya qum ehtiyatlarının əldə edilməsinə münasibətdə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır;

**5.18.** həmin Məcəllənin 244 (meşə fonduna aid olan torpaqlar istisna olmaqla), 245–248, 250, 251.2 və 557-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi baxır;

**5.19.** həmin Məcəllənin 251.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerquruluşu və kadastr məqsədləri üçün daimi fəaliyyət göstərən geodeziya istinad məntəqələrinin sıradan çıxarılması ilə əlaqədar inzibati xətalar haqqında işlərə isə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi baxır;

**5.20.** həmin Məcəllənin 252-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır;

**5.21.** həmin Məcəllənin 270.0.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, xüsusi (sahəvi) təyinatlı geodeziya materiallarının və məlumatlarının, avadanlığının və cihazlarının ticarət dövriyyəsinə daxil edilməsi ilə əlaqədar inzibati xətalar haqqında işlərə isə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi baxır;

**5.22.** həmin Məcəllənin 270.0.2 və 270.0.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerquruluşu və kadastr məqsədləri üçün daimi fəaliyyət göstərən geodeziya istinad məntəqələrinin korlanması, yaxud məhv edilməsi, yerlərinin dəyişdirilməsi, habelə belə məntəqələrin yenidən qurulması, yaxud yeni məntəqələrin quraşdırılması ilə əlaqədar inzibati xətalar haqqında işlərə isə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi baxır;

**5.23.** həmin Məcəllənin 272-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır;

**5.24.** həmin Məcəllənin 278-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

**5.25.** həmin Məcəllənin 279–282-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi baxır;

**5.26.** həmin Məcəllənin 293–299, 319.6 və 320.6-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası baxır;

**5.27.** həmin Məcəllənin 300–305, 319.2–319.4, 320.2–320.4, 322.0.3–322.0.6 və 325.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi baxır;

**5.28.** həmin Məcəllənin 307–309, 312–318, 319.5 və 320.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası baxır;

**5.29.** həmin Məcəllənin 310-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə kiçik həcmli gəmilərə münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, digər gəmilərə münasibətdə isə Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası baxır;

**5.30.** həmin Məcəllənin 319.1, 320.1, 393, 395, 396, 397, 400, 455.1 və 587-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları baxırlar;

**5.31.** həmin Məcəllənin 321 və 570–572-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti baxır;

**5.32.** həmin Məcəllənin 322.0.1, 322.0.7, 350.2, 352.0.4, 352.0.5, 352.0.7–352.0.10, 354.0.2, 354.0.3, 354.0.5, 354.0.6, 354.0.8–354.0.10-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi baxır;

**5.33.** həmin Məcəllənin 342.1.9 və 348-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və ya Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi baxır;

**5.34.** həmin Məcəllənin 350.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

**5.35.** həmin Məcəllənin 359–367, 380, 459.3 və 459.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi baxır;

**5.36.** həmin Məcəllənin 384, 385 və 428.11-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Milli Televiziya və Radio Şurası baxır;

**5.37.** həmin Məcəllənin 386 və 392-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi baxır;

**5.38.** həmin Məcəllənin 389 və 390-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi baxır;

**5.39.** həmin Məcəllənin 391-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi baxır;

**5.40.** həmin Məcəllənin 394.0.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Tikinti və Arxitektura Komitəsi, 394.0.3–394.0.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, 394.0.1-ci maddəsində nəzərdə tutulmuş lisenziya olmadan tikintisinə icazə tələb olunan və ya barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi ilə əlaqədar inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Tikinti və Arxitektura Komitəsi, lisenziya olmadan tikintisinə icazə tələb edilən bina və qurğuların mühəndis-axtarış və ya tikinti-quraşdırma işlərinin aparılması ilə əlaqədar inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi baxır;

**5.41.** həmin Məcəllənin 405-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi, dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, digər qeyri-kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi baxır;

**5.42.** həmin Məcəllənin 410, 411 və 458-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır;

**5.43.** həmin Məcəllənin 414–427, 428.8, 428.9, 429, 430.3, 430.4, 433.0.2, 435, 436, 438, 440, 463, 468, 470–476, 478 və 548-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası baxır;

**5.44.** həmin Məcəllənin 428.1–428.3, 428.6, 444–446, 447.0.1, 447.0.2, 447.0.9, 453 və 544.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;

**5.45.** həmin Məcəllənin 430.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Vergilər Nazirliyi baxır;

**5.46.** həmin Məcəllənin 430.2, 450.2, 461, 467 və 545-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Vergilər Nazirliyi baxır;

**5.47.** həmin Məcəllənin 433.0.1 və 434-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Mərkəzi Bankı baxır;

**5.48.** həmin Məcəllənin 432.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə fiziki şəxslərə və dini qurumlar istisna olmaqla digər qeyri-kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, kommersiya hüquqi şəxslərinə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;

**5.49.** həmin Məcəllənin 432.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi baxır;

**5.50.** həmin Məcəllənin 432.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə qeyri-hökumət təşkilatlarına, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, banklara münasibətdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası baxır;

**5.51.** həmin Məcəllənin 447.0.3-cü maddəsində nəzərdə tutulmuş standartların və digər normativ sənədlərin tələblərinə cavab verməyən malların istehsalı ilə əlaqədar işlərə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, standartların və digər normativ sənədlərin tələblərinə cavab verməyən malların satılması, işlərin

yerinə yetirilməsi, xidmətlərin göstərilməsi ilə əlaqədar işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 447.0.4-cü maddəsində nəzərdə tutulmuş qanunvericiliyə uyğun olaraq sertifikatlaşdırılmalı olan, lakin sertifikatlaşdırılmamış malların istehsalı ilə əlaqədar işlərə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, qanunvericiliyə uyğun olaraq sertifikatlaşdırılmalı olan, lakin sertifikatlaşdırılmamış malların satılması, işlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi ilə əlaqədar işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 447.0.5-ci maddəsində nəzərdə tutulmuş standartların və digər normativ sənədlərin tələblərinin pozulması nəticəsində insanların həyatı, sağlamlığı, əmlakı və ya ətraf mühit üçün təhlükəli məhsulun istehsalı ilə əlaqədar işlərə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, standartların və digər normativ sənədlərin tələblərinin pozulması nəticəsində insanların həyatı, sağlamlığı, əmlakı və ya ətraf mühit üçün təhlükəli məhsulun satılması, işin (xidmətin) görülməsi ilə əlaqədar işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;

**5.50-1.** həmin Məcəllənin 439-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası və Azərbaycan Respublikasının Mərkəzi Bankı fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

**5.52.** həmin Məcəllənin 447.0.6–447.0.8, 537.2 və 538-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi baxır;

**5.53.** həmin Məcəllənin 454 və 455.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları baxır;

**5.54.** həmin Məcəllənin 457-ci maddəsində nəzərdə tutulmuş bank fəaliyyəti sahəsində qiymətli metalların və qiymətli daşların uçotu, saxlanılması, mühafizəsi və dövriyyəsi qaydalarının pozulması ilə əlaqədar işlərə Azərbaycan Respublikasının Mərkəzi Bankı, qiymətli metalların və qiymətli daşların hasilatı sahəsində qiymətli metalların və qiymətli daşların uçotu, saxlanılması və mühafizəsi qaydalarının pozulması ilə əlaqədar işlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi, qalan hallarda qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi qaydalarının, qiymətli metalların və qiymətli daşların, onlardan hazırlanmış məhsulların (məmulatların) mühafizəsi, pərakəndə satışı, uçotu, saxlanılması, onların qırıntılarının və tullantılarının yığılması qaydalarının pozulması ilə əlaqədar işlərə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır;

**5.55.** həmin Məcəllənin 460-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə vergilərə münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi, məcburi dövlət sosial sığorta haqlarına münasibətdə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu baxır;

**5.56.** həmin Məcəllənin 462-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə bank olmayan kredit təşkilatlarına, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərə, investisiya fondlarına və onların idarəçilərinə, həmçinin sığorta, təkrarsığorta və sığorta vasitəçiliyinə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası, digər mühasibat uçotu subyektlərinə (kredit təşkilatları istisna olmaqla) münasibətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır;

**5.57.** həmin Məcəllənin 469.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dəmiryol nəqliyyatı vasitələri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi, su nəqliyyatı vasitələri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası, hava nəqliyyatı vasitələri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası, yaşayış binalarının, yaşayış evlərinin və mənzillərin icbari sığortasına münasibətdə Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları, digər daşınmaz əmlakın icbari sığortasına və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasına münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi baxır;

**5.58.** həmin Məcəllənin 469.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə standart sığorta müqaviləsi növünə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, sərhəd sığorta müqaviləsinə və Azərbaycan Yaşıl Kartı növünə münasibətdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi baxır;

**5.59.** həmin Məcəllənin 479-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

**5.60.** həmin Məcəllənin 517.0.7 və 517.0.8-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

**5.61.** həmin Məcəllənin 542-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

**5.62.** həmin Məcəllənin 550-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti baxır;

**5.63.** həmin Məcəllənin 555-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

**5.64.** həmin Məcəllənin 562.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi baxır;

**5.65.** həmin Məcəllənin 566-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (şəxsiyyət vəsiqəsi və ümumvətəndaş pasportuna aid hissədə), Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (xidməti və diplomatik pasporta aid hissədə), Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti (Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün sənədlərə aid hissədə) və Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası (dənizçinin şəxsiyyət sənədinə aid hissədə) baxırlar;

**5.66.** həmin Məcəllənin 575 və 577-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

**5.67.** həmin Məcəllənin 578-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti baxır;

**5.68.** həmin Məcəllənin 579–582-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi baxır;

**5.69.** həmin Məcəllənin 597-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının ərazisində xarici hüquqi şəxslər, yaxud əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş hüquqi şəxslərə, o cümlədən birbaşa və ya dolayı yolla xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslərə (onların vəzifəli şəxslərinə və mühafizəçilərinə) münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, digər hüquqi şəxslərə (onların vəzifəli şəxslərinə və mühafizəçilərinə) münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi baxır;

**5.70.** həmin Məcəllənin 598-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (kredit təşkilatlarına, lizinq xidmətləri göstərən hüquqi şəxslərə, investisiya şirkətlərinə, investisiya fondlarına, sığortaçı, təkrarsığortaçı və sığorta vasitəçilərinə, pul vəsaitlərinin köçürülməsi ilə məşğul olan poçt xidməti göstərən müəssisələrə, lotereya təşkilatçısına, lombardlara və daşınmaz əmlakın alğı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslərə münasibətdə), Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və ya qiymətli metallardan hazırlanmış zərgərlik və ya digər məişət məmulatlarının alğı-satqısı ilə məşğul olan fiziki və ya hüquqi şəxslərə münasibətdə), Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (öz fəaliyyətinin tərkib hissəsi kimi vəsait alan, toplayan, verən və ya vəsait köçürən qeyri-hökumət təşkilatlarına, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə münasibətdə) və Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (öz fəaliyyətinin tərkib hissəsi kimi vəsait alan, toplayan, verən və ya vəsait köçürən dini təşkilatlara münasibətdə) baxırlar;

**5.71.** həmin Məcəllənin 604, 606.2, 606.3 və 607-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti baxır.

**6.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 43.1-ci maddəsində göstərilən inzibati xətalar haqqında işlərə baxmaq hüququ bu Fərmanla həmçinin səlahiyyətli orqanlara aid edildikdə, icraatında inzibati xətalar haqqında iş olan səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xətanın xarakterini, inzibati xəta törədənin şəxsiyyətini, onun təqsirinin dərəcəsini, məsuliyyəti ağırlaşdıran halların və müsadirə olunmalı malların mövcudluğunu nəzərə alaraq, şəxs barəsində müvafiq maddənin sanksiyasında nəzərdə tutulan xəbərdarlıq və ya cərimə inzibati tənbeh tədbirlərindən daha ağır tənbeh tədbirinin tətbiqi üçün əsasların olması qənaətinə gəldikdə, inzibati xəta haqqında protokolu baxılmaq üçün məhkəməyə göndərir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 fevral 2016-cı il
№ 795